İRADƏ ZƏRQAN

# MİLLİ İDEOLOGİYA VƏ AZƏRBAYCANDA QADINA MÜNASİBƏTİN FƏLSƏFİ PROBLEMLƏRİ



**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Fəlsəfə və Sosiologiya İnstitutu**

**İRADƏ ZƏRQANAYEVA**

# MİLLİ İDEOLOGİYA VƏ AZƏRBAYCANDA QADINA MÜNASİBƏTİN FƏLSƏFİ PROBLEMLƏRİ

**"Elm və təhsil"**
**Bakı – 2022**

**Elmi redaktor:** **İlham Məmmədzadə**
*fəlsəfə elmləri doktoru, professor*
**Rəyçilər:** **Rəna Mirzəzadə**
*fəlsəfə elmləri doktoru, professor*
**Dilarə Müslümzadə**
*fəlsəfə elmləri doktoru*
**Anar Qafarov**
*fəlsəfə üzrə fəlsəfə doktoru,dosent*
**Şəhla Musayeva**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

**Zərqanayeva İradə. Milli ideologiya və Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri. “Elm və Təhsil", Bakı: 2022, 144 səh.**

*Kitabda Azərbaycançılıq ideologiyasının əsasları, məfkurənin siyasətə çevrilməsi prosesləri izlənir, mədəniyyət və ədəbiyyat nümunələri, dini baxışlar, milli-mənəvi dəyərlər, müasir qadınların həyat və fəaliyyətləri əsasında Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri tədqiq edilir. Din, qloballaşma, mədəniyyətlərin inteqrasiyası, gender proqramlarının tətbiqi şəraitində qadınlara münasibətin dəyişmə dinamikası araşdırılır. Müasir dünyada mədəni, siyasi, sosial-psixoloji durumun dəyişməsi proseslərinin qadın mənəviyyatı və sağlamlığında yaratdığı fəsadlar, qadın həssaslığı, onun hiss və həyacanlarının cəmiyyət üçün bir xəbərdarlıq olması və yetişən nəslin ruhi emosional durumuna təsirləri araşdırılır, problemlərin həlli istiqamətində fikir və mülahizələr irəli sürülür. Kitab AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi Şurasının 16 may 2022-ci il tarixli qərarı (protokol № 2) ilə çap olunur.*

**4702000000** **qrifli nəşr**
**N-98-2022**

**© İradə Zərqan, 2022**

# MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................ 4
**I FƏSİL.** MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İDEYA ƏSASLARI......................................................................... 8
1.1.Azərbaycançılıq: məfkurədən siyasətə ................................. 8
1.2. Sevgiyə həyat verən təcrübə ............................................... 22
1.3 Azərbəycan milli fəlsəfəsi.................................................. 28
1.4.Fəlsəfə və mənlik şüuru arasındakı əlaqə ........................... 34
1.5.Milli birlik və Qafqaz körpüsü ideyası ............................... 47
**II FƏSİL.** MÜASİR AZƏRBAYCANDA QADINA MÜNASİBƏTİN FƏLSƏFI PROBLEMLƏRİ ........................ 63
2.1. "Münasibət" anlayışının etik məzmunu............................. 63
2.2. Zaman və qadın.................................................................. 66
2.3. Məkan və qadın.................................................................. 77
2.4. Qadına münasibətin mədəni-mənəvi əsasları..................... 88
2.5. Cəmiyyətdə kişi-qadın münasibətləri ................................ 97
2.6. ValideynlİK funksiyası və qadının rolu............................ 104
2.7. Dində qadına münasİbət məsələləri ................................. 108
2.8. Qadına münasibətin gender aspekti ................................. 112
**NƏTİCƏ**.................................................................................... 126
İstifadə olunmuş ədəbiyyat siyahısı ......................................... 131
**RƏYLƏR** .................................................................................. 138

# GİRİŞ

Azərbaycan hazırda öz vətəndaşlarının qürur mənbəyi olmaqla yanaşı, bütün dünyanın diqqətini cəlb edən bir dövlətə çevrilmişdir. O, neft yataqları, iri layihələr sahibi, torpaqlarını işğaldan azad edən bir ölkədir. Qazanılmış nailiyyətləri əldə saxlamaq və daha da inkişaf etdirmək kimi çətin məsələnin həlli üçün düşüncə mədəniyyətinin rolu danılmazdır. Keçmiş təcrübələrdən doğru nəticələr çıxarmadan bu günü dəyərlən-dirmək və gələcəyi düşünmək çətindir. Kitabda Azərbaycan xalqının milli-mənəvi dəyərləri, müasir Azərbaycan dövlətinin təməlləri və fəlsəfi düşüncənin inkişaf xüsusiyyətlərinin tədqiqi ilə yanaşı, müasir qadınların həyatı, hazırda ölkəmizdə qadına münasibətin aktual problemləri araşdırılmış, zərif qəhraman-ların qayğı və çətinliklərinə elmi nəzər salınmışdır.

Hər bir ölkənin uğurlarında kişilərlə yanaşı əhalinin qadın qisminin də rolu vardır. Təsadüfi deyil ki, qadın fəallığı yüksək olan ölkələrdə cəmiyyət daha sülhsevər, demokratik, insanların maddi rifah səviyyəsi yüksək olur. Bu eyni zamanda cəmiyyətin mədəni-mənəvi havasından və qadına münasibətin xarakterindən asılıdır. Qədim və orta əsr tarixi mənbələrində, folklor və ədəbiyyat nümunələrində Azərbaycan qadınlarının üstün fəaliyyətləri haqqında əsaslı dəlillər vardır. Müasir Azərbaycan qadınları elm və təhsildə, ictimai həyatın bütün sahələrində qismən təmsil olunsalar da, hazırda sələflərindən xeyli geri qalırlar...

Müasir dövlətçiliyimizin təməlləri çox sağlamdır: dini, milli, müasir meyarlardan qidalanır. Davamlı inkişaf məhz həmin meyarların qorunması şəraitində mümkündür. Milli lider Heydər Əliyev Azərbaycançılıq məfkurəsini dövlətçilik ideologiyası müstəvisinə gətirərkən, o dərin kökləri görmüşdü. O zaman milli-mədəni dəyərlərimizin ümumiləşdirilmiş obrazının siyasi mexanizmə, hərəkətverici qüvvəyə, müasir dövlətçiliyi-mizin əsas

prinsipinə çevrilməsi fəlsəfə və humanitar elm sahəsinə də bir təkan vermişdi. Bu mövzu ətrafında geniş araşdır-malar aparılmış və maraqlı nəzəri nəticələr əldə edilmişdi.

Nizaməddin Şəmsizadənin "Azərbaycançılıq ideologiyası", Anarın "Azərbaycançılıq haqqında düşüncələr", Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik", Yaşar Qarayevin "Azərbaycan ədəbiyyatı XIX – XX yüzillər", "Azərbaycan realizminin mərhələləri", "Milli "mən" şüuru və etnik yaddaş - azərbaycançılıq", İsa Həbibbəylinin "Azərbaycançılıq məfkurə-si yollarında", "Möhtəşəm azərbaycançılıq dərsliyi", Azad Nəbiyevin "Azərbaycançılıq - estetik dəyərdən milli ideolo-giyaya", Sona Vəliyevanın "Azərbaycançılıq: milli ideologiya və ədəbi-estetik təlim kimi" Nizami Cəfərovun "Azərbaycanşünaslığa giriş", Əlikram Tağıyevin "Milli ideya və milli ideologiya", "Milli kimlik fəlsəfəsi", Səlahəddin Xəlilovun "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", "Lider. Dövlət. Cəmiyyət", və "Milli dövlətçilik hərəkatının yüksəlişi və xalq cümhuriyyəti dövründə azərbaycançılıq ideyası", Akif Hüseynovun "Ədəbiyyat və ideologiya", Rəhim Əliyevin "Azərbaycançılıq: dünən, bu gün, sabah", Nazif Ələkbərlinin "Türkçülük, yoxsa azərbaycançılıq?!", Mübariz Yusifovun "Heydər Əliyev və Azərbaycançılıq ideologiyası", "Azərbaycançılıq", Sevda Süleymanovanın "Azərbaycanda ictimai-siyasi hərəkat XIX əsrin sonu, XX əsrin əvvəlləri", Şirməmməd Hüseynovun "XIX – XX əsrlər Azərbaycan ictimai fikri: Müstəqilliyin çətin yolu... Biz hara gedirik", "Mətbu irsimizdən səhifələr", M.H. Vəliyevin (Baharlı) "Azər-baycan (Fiziki, coğrafi, etnoqrafik və iqtisadi oçerk)", Faiq Ələkbərovun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (I-II hissələr)", Rafail Əhmədovun "Azərbaycan milli-demo-kratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq", "Azərbaycan dövlətçilik fəlsəfəsi", A.Ş. Həsənovun "Milli ideologiya və milli-mənəvi dəyərlər", Fazil Mustafanın "XX əsrin əvvəllərində Azərbaycanda si-

yasi düşüncə cərəyanları" əsəri və başqa müəlliflərin araşdırmalarında Azərbaycanın milli dövlətçilik ideologiyası və ayrıca azərbaycançılığın tədqiqat problemləri müxtəlif aspektlərdən şərh olunmuşdu. Qarşıda daha çətin məsələ - elmin əmələ çevrilməsi, nəzəriyyədən prak-tikaya keçid mərhələsi dururdu...

Kitabda "Azərbaycançılıq" məfkurəsinin siyasətə çev-rilmə dinamikası izlənir, tanınmış dövlət xadimi Heydər Əliyevin uzaqgörənliyi və diplomatik səyləri nəticəsində sez-ginin tətbiqi təcrübəsi - müasir milli birlik ideyasının Azərbaycançılıq ideologiyasına çevrilməsi prosesi tədqiq olunur. Əsərdə fəlsəfə, ideologiya, mənlik şüuru və mədəniyyət arasındakı əlaqələr təhlil edilir, ayrıca milli birlikdə Qafqaz körpüsü ideyasının perspektivləri işıqlandırılır. Cəmiyyətdə baş verən hadisə və proseslərin qadına fərdi və ictimai münasibətlə əlaqələri araşdırılır.

Kitabın adı ("Milli ideologiya və Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri") ilk baxışdan oxucuya para-doksal görünə bilər. Lakin yada salınsa ki, ailə kiçik dövlətdir, onun fəlsəfi-ideoloji tərəfinin qadın, praktik, əməli tərəfinin daha çox kişi fəaliyyəti ilə bağlı olduğunu görmək çətin deyildir. Əsər həyatın bəzi situasiyalarında bu funksiyaların yerdəyişməsindən və ya identifikasiyasından yaranan prob-lemlərə işıq salır. Tədqiqatda varlıqların öz təbiətlərinə, yaradılış funksiyalarına uyğun istifadəsi, qarşılıqlı münasibətlərdə fitri ahəngin qorunmasının əhəmiyyəti diqqətə çatdırılır. Azərbaycandakı fəlsəfi-ideoloji bazisin qaynaqları, hərəkətverici qüvvələri, inkişaf dinamikası təhlil edilir.

Azərbaycan dövləti kimi, azərbaycanlı ailəsi də məhz dövlət bayrağında əks olunan - türklük, İslam və müasirlik dəyərlərinə sahibdir. Ailədə qadına münasibəti türk adət-ənənələri, İslam dəyərləri və müasirlik tələbləri tənzimləyir. Dövlətdə liderlik parametrləri, rəsmi qanunlar və onların icra mexanizmləri nə qədər mühüm rol oynayırsa, qadına müna-sibətdə də ailə "qanunları", dini dəyərlər və sosial-etik faktorlar güclü təsir bağışlayır. Kita-

bın II fəslinə daxil edilən "“Münasibət” anlayışının etik parametrləri”, “Zaman və qadın, “Məkan və qadın”,“Qadına münasibətin mədəni-mənəvi əsas-ları”, “Cəmiyyətdə kişi-qadın münasibətləri”, “Valideynlik funksiyasında qadının rolu”, “Dində qadına münasibət məsə-lələri”, “Gender və qadına münasibətin yeni aspekti” mövzuları tədqiqatda qarşıya qoyulan məqsəd və vəzifələrin həllinə xidmət edir. Kitabda M.S.Qorbaçovun simasında ədalətsiz idarəçiliyin cəmiyyətə vurduğu zərər qabardılır. Fərdlərin öz funksiyalarına uyğun davranmamasından, milli-mənəvi dəyər-lərdən kənar, qeyri-etik, məsuliyyətsiz davranışlardan qaynaqlanan problemlərin cəmiyyətə, xüsusilə qadın talelərinə təsiri qeyd edilir, elmi-fəlsəfi mülahizələr irəli sürülür.

# I FƏSİL

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İDEYA ƏSASLARI

## 1.1.Azərbaycançılıq: məfkurədən siyasətə

Azərbaycançılıq bu ərazidə yaşamış, yaşayan və yaşayacaq millətlərin nəsildən nəslə - anadan qıza, atadan oğula, nənə-babadan nəvələrə, müəllimdən tələbələrə, yaşlılardan cavanlara, müdriklərdən kütləyə, liderlərdən sosiuma ötürülən mirasıdır. Azərbaycan tarixi Azərbaycançılıq ruhunun və mənəvi mədəniyyətinin maddi mədəniyyətə çevrilməsi tarixidir. Azərbaycan ədəbiyyatı və incəsənəti mənəvi mədəniyyətimizin maddiləşmiş təzahürüdür. Azərbay-cançılığa gələn yol - Nuh, Azər, Zərdüşt miflərindən, ..., Tomris, Cavanşir, Nüşabə, Babək cəsarətindən, ..., Dədə Qorqud, Molla Nəsrəddin, Bəhlul Danəndə məntiqindən, .., Nizami, Füzuli, Nəsiminin söz xəzinəsindən, ..., Hüseyn Cavidin, Məmməd Arazın, Xəlil Rzanın dəyanətindən, ... yoğrulmuşdur...

Azərbaycan indi olduğu kimi qədimdə də müxtəlif din, dil, etnosu təmsil edən insanların vətəni olmuşdur və tarixin müxtəlif dönəmlərində sosiumun mövcud dəyərlərə münasi-bətindən asılı olaraq fərqli olaylara səhnə olmuş, mürəkkəb proseslərdən keçmişdir. Azərbaycan xalqı Zərdüştün “xeyirli söz, xeyirli fikir, xeyirli iş” hikmətini, Allahın rəsulu Nuhun sənətkarlığını, Allahın rəsulu İbrahimin hənif dinini, “odda yanmaz” imanını, Allahın rəsulu İsmailin fədakarlığını, Cavanşirin (616-681) diplomatiyasını, Babəkin azadlıq mübarizəsindəki dönməzliyini nümunə götürmüş və sonrakı nəsillərə ötürmüşdür...

Nəsillərarası varislik prosesinə, mənəvi mədəniyyətin maddi mədəniyyətə çevrilərək yeni dəyərlər kəsb etməsinə misal olaraq

saysız-hesabsız nümunələr göstərmək olar. İsa Həbibbəylinin Azərbaycan tarixi, coğrafiyası, ədəbiyyatı, incəsənəti, ümumiyyətlə milli irs və mədəniyyətimizin müxtəlif dövrləri haqqındakı informasiyanın ötürülməsi, analizi və sintezi təcrübəsindən çıxış edən "Nuhçıxandan Naxçıvana" əsərindəki "Dövlətçilik işığında", "Cəhalət dərdinin dərmanı - maarifçilik", "Ulu qüvvət - mədəniyyət" bölmələri klassik ənənə ilə müasirliyin vəhdətini - milli dəyərlərə sahib çıxmaq və layiqli şəkildə inkişaf etdirmək proseslərini əks etdirir. Ümumiyyətlə Azərbaycan ədəbiyyatı xalqımızın ilham qaynağıdır: milli qürur hissini dirçəldir, dəyərləri qoruyur, milləti özünə qaytarır. Amma real əmələ, fəaliyyətə gəldikdə məsələ bir qədər qəlizləşir - cəmiyyətin qadına münasibətində olduğu kimi... Müəyyən istisnalar xaricində, ədəbi ideallarla reallıq arasındakı fərq nəzərə çarpacaq qədər böyük olur.

Azərbaycançılığın fəlsəfi təşəkkül prosesinin təməlində C. Məmmədquluzadənin (1869-1932) "Kamança", M.Ə.Sabi-rin (1862-1911) "Beynəlmiləl", N.Nərimanovun (1870-1925) "Bahadır və Sona", H.Cavidin (1882-1941) "Şeyx Sənan", C.Cabbarlının (1899-1934) "1905-ci ildə" əsərləri və ümumiyyətlə bəşəriliyi, beynəlmiləlçiliyi, insansevərliyi təbliğ edən digər müəlliflərin düşüncə mədəniyyəti durur.

Abdulla Şaiqin (1881-1959) qələmindən süzülən təmiz duyğularda, birlik amalında azərbaycançılıq hissləri belə tərənnüm olunur:

"Hamımız bir yuva pərvərdəsiyik!
Hamımız bir günəşin zərrəsiyik!
Ayırmaz bizləri təğyiri-lisan,
Ayırmaz bizləri təbdili-məkan.
Ayırmaz bizləri İncil və Quran,
Ayırmaz bizləri sərhəddi-şəhan"[1].

[1] Şaiq Abdulla, 2005, səh. 29

Şeirdə dil, din, ərazi, sərhəd, idarəçilik üsullarından asılı olmayaraq mövcud olan ideal vəhdətdən - insan birliyindən bəhs olunur ki, ümummilli lider Heydər Əliyev bu birliyi "azərbaycançılıq" adlandırmışdı.

Digər Azərbaycan maarifçisi A.Şaiq "Ananın öz oğluna laylay deməsi" adlı ilk mətbu şeirində gələcək nəsillərə Qafqazın türklərin vətəni olduğunu xatırladır.

"Lay-lay mələkim, sevdiciyim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu çocuqluq dəmi heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, şərəfraz,
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz" [2] .

Dünyada tanınan Azərbaycan oğullarının bioqrafiyasına nəzər salmaq kifayətdir ki, şeirdə əks olunan həqiqətin şahidi olasan. Onların təvəllüd yeri kimi qədim Azərbaycan torpaq-larında qurulmuş müxtəlif inzibati ərazi adlarını görmək olar. Deməli, inzibati bölgü kökdən, nəsildən gələn ruhi-mənəvi bağları ayıra bilməz. Tarixdə və mədəniyyətdə məna axtarışı ilə məşğul olan fəlsəfə milli-mənəvi dəyərlər, ideologiya və tərbiyə arasındakı əlaqələri araşdıraraq gələcəyə körpü salır. Əks halda nə ədəbiyyatın, nə də mədəniyyətin bəşəri anlamı qalmazdı.

70 illik SSRİ dövründə sovet ideologiyası müəyyən tarixi həqiqətlərin üstündən qırmızı xətt çəkmiş, nəticədə xalqımızın nəsillərarası varislik əlaqələri xeyli zəifləmişdi. Hətta bu əlaqələrin qırıldığını zənn edənlər də az deyildi... N.Nərimano-vun Azərbaycan dilində əski əlifba ilə yazdığı və 92 il işıq üzü görməyən iki bəndlik şeirində çox böyük mənalar gizlənmişdir:

"Hilal artıq öldü deyə,
Sevinmişdi düşmən yenə

[2] Şaiq Abdulla, 2005, səh. 8-9

Hilal birkən iki oldu,
Salam bizdən ikinciyə..."[3]

Bu sətirlər Azərbaycan ərazilərinin parçalanaraq, Gürcüstan SSR və Ermənistan SSR-ə qatıldığı, lakin Azərbaycan SSR timsalında qədim Azərbaycanın, azərbaycançılığın yaşadığına işarə idi. "Hilal birkən, iki oldu. Salam bizdən ikinciyə" deyərkən N.Nərimanov 1920-ci ildə əraziləri bölündükdən sonra qalan Azərbaycan SSR-ni (1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cumhuriyyətinin varisi) və 1923-cü ildə yenidən istiqlalına qovuşmuş Türkiyə Cumhuriyyəti Dövlətini nəzərdə tuturdu.

Tarix boyu xalqların dövlət sərhədləri müxtəlif: sub-yektiv və obyektiv səbəblərdən dəyişikliyə uğramışdır. Yalnız bəşəri dəyərləri qoruyan, ona sahib çıxmağı bacaran və yaşadan xalqlar yenidən dirçələrək tarix yaza bilmişlər. Millət var - fəlsəfə yazır, millət də var tarix yazır... Ötən əsrlərdə tarix yazan türk millətinin müasir dövlətçilik fəlsəfəsi Azərbaycançılıq. oldu..

Azərbaycançılığın ideya əsasları Azərbaycan xalqının milli varlığı, dini, dili, tarixi, adət-ənənələri, nəsri, poeziyası, ümumiyyətlə zəngin maddi və mənəvi mədəniyyətindən qaynaqlanır. Minilliklər boyunca formalaşmış mədəniyyətin XX əsrdə milli məfkurəyə, XXI əsrdə milli ideologiyaya və dövlətçilik fəlsəfəsinə keçidi müasir Azərbaycan dövlətinin siyasi və elmi nailiyyətləri ilə əlaqədardır.

Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin milli ideologiyası kimi XX əsrin sonlarında irəli sürülsə də, onun kökləri tarixin dərin qatlarına gedib çıxır. Azərbaycan türklərinin İslamaqədər tarixini araşdıran Firudin Ağasıoğlu yazır: "Sami peyğəmbərlər ierarxiyasına yad olub azərilərin inanc sistemində möhkəm yer tutan Xızır peyğəmbər, monoteizm görüşünü ... ilk yayan aran boyundan Azərin oğlu İbrahim peyğəmbər də hələ

[3] Rəşad Sahil. N.Nərimanov haqqında bilmədiyimiz faktlar.

protoazər çağlarından Azər-baycanla bağlı idi. İslamlaşma çağlarında ərəb mənbə-lərində azər boylarına qantura oğulları (bəni qantura) deyilməsi də İbrahim peyğəmbərin şəcərəsi ilə bağlı idi."[4] Bu qəbildən olan mülahizələrə digər xarici və yerli müəlliflərin tədqiqatlarında da rast gəlmək olur.

Onlardan biri Azərbaycanın mədəniyyət və incəsənətini Mesopotamiyanınkından da qədim hesab edən və hələ kifayət qədər öyrənilmədiyini vurğulayan Tur Heyerdal idi. Azər-baycanın müxtəlif ərazilərində, o cümlədən Şəkinin Kiş kəndində arxeoloji qazıntılar apardıqdan sonra elmi məlumatları təhlil edərək belə bir qənaətə gəlmişdi ki, "Skandinaviya ölkələrində mövcud olan kral ailələri öz mənşələrini məhz Azərbaycandan götürmüşlər. Onların əcdad-ları bizim eramızdan əvvəl birinci əsrdə və yaxud bizim eramızdan sonra bu məmləkətdən, ölkədən törəmiş, çıxmışlar."[5]

"Azərbaycan" adının etimoloji mənası odun qorunduğu yer anlamına gəlir.[6] Avestada Azərbaycan mühüm dini və dünyəvi proseslərin baş verdiyi müqəddəs yer hesab olunur. Azərbaycan ədəbiyyatında "nuri-Azər" – "Azər odu" ifadəsi də mövcud olmuşdur. Mifoloji informasiyaya görə, oğul ata-babadan qalma ənənəyə qarşı çıxaraq qeybə, gözəgörünməz qüvvəyə, tək Tanrıya (Göy Tanrı) iman etmiş, beləliklə də indiki Azərbaycan ərazisində min illər öncə hənif din - Göy Tanrı inancı yayılmağa baslamışdır.

L.Qumilyov "Qədim türklər" əsərində yazır ki, Göy Tanrı maddi səmadan fərqli anlayış olub, ilahi gücü ifadə edir. O, əsərində təmiz türk ifadəsi olan "el" kəlməsinin geniş izahını vermiş, elin tarixinin mənəvi dəyərlərə sədaqətlə bağlı olduğunu əsaslandırmışdır. Əsər müasir texniki tərəqqiyə rəğmən insanlar və dövlətlərarası münasibətlərdə hələ də köhnə manipulyasiya

---

[4] Ağasıoğlu Firudin, 2014.
[5] Quliyev R. 2013.
[6] Дьяконов И.М. 1956, стр. 260-262.

metodlarının qaldığını görməyə imkan verir. Aşağıda nümunə gətirilən ilhaq metodu bu gün də bəzi ərazilərdə tətbiq olunur.

L. Qumilyov yazır: "Dövləti saxlamaq zərurəti bəyləri və budunu rahat buraxmırdı, çünki yalnız müharibəyə daimi hazır vəziyyət elin mövcudluğunu təmin edirdi, hərbi məğlubiyyət, diplomatik səhv, tək-tük xəyanət halları, hətta adicə səhlənkarlıq elin mövcudluğunu təhlükə altına qoyurdu. Məhz bu səbəbdən də ilkin orta əsrlərdə Asiyanın mərkəzi hissələrindəki siyasi qurumların ömrü o qədər də uzun olmamışdı."[7]

Azərbaycan ərazilərində yaşayan milli çoxluğun – türklərin heç bir digər millətə bənzəməyən, fərqli cəhətləri kitabdakı iqtibaslardan da görünür. L.Qumilyovun tarixçi Fəxrəddindən aldığı iqtibasda yazılır: "Kim deyə bilər — türklərin bəxtinə düşən şöhrətin və müvəffəqiyyətin səbəbləri nədir? Cavab: hamıya məlumdur ki, hər bir tayfa və hər bir sinif öz xalqının, öz qohumlarının arasında, öz şəhərində yaşadığı müddət ərzində hamıdan hörmət və ehtiram görür, lakin səyahətə çıxanda və yad ölkələrə düşəndə onlara nifrət edirlər, heç kim onlara diqqət yetirmir. Lakin türklərdə əksinədir — onlar öz qohum-qardaşlarının və öz tayfalarının içərisində olanda yalnız çoxsaylı türk tayfalarından biridirlər, kifayət qədər qüvvələri yoxdur və heç kəs onların köməyinə arxalanmır. Lakin onlar öz ölkələrindən müsəlmanların arasına düşdükdə, evlərindən, yaxın adamlarından, vətənlərindən nə qədər uzaq olsalar gücləri də bir o qədər artır, onlar daha yüksək qiymətləndirilir, əmir və sipahsalar olurlar".[8]

Türk şəxsiyyətinin başlıca cəhəti Yaradanın hikmətini sevmək, dürüst və etibarlı olmaqdır. İnsanların bir qismi fövqəl qüvvənin varlığına inanır və pis hərəkətlərdən çəkinirlər. İnanca görə, Tanrı görünən və görünməyən hər şeyin xaliqidir. O, insanların dünyada sülh və hüzur içində yaşaması üçün kitablar

[7] Qumilyov L.N. 1993, səh. 87.
[8] Qumilyov L.N., 1993, səh. 125

göndərmişdir. İnsanların bəziləri onlarda yazılanları müqəddəs hesab edir, inanır, əməl edir, xeyrini görür və özündən sonra gələn nəsillərə tövsiyə edirlər. Digərləri isə şübhə və təkəbbürləri üzündən kitablara əhəmiyyət vermir, ilahi hikməti dəyərləndirmir, həyati çətinliklərdən çıxmaq üçün radikal yollar arayır, beləliklə də Qurani-Kərimdə buyrulduğu kimi, azğınlıqları get-gedə artır...

Türklərin ruhi-mənəvi assimilyasiya səbəblərindən biri də onların gücünə bələd olan rəqiblərinin nigah siyasəti aparmaları ilə əlaqədardır. Təsadüfi deyildir ki, hələ 631-ci ildə Taytszun türkyutlar haqqında demişdi: "Əgər biz onları qıra bilməsək, onda nigah siyasətindən başqa yolumuz qalmır."[9] Bu siyasət Çin hökuməti tərəfindən uyğur türklərinə qarşı hazırda – XXI əsrdə daha radikal şəkildə tətbiq olunur. Uyğur ailələrindəki yetkin kişilər müxtəlif bəhanələrlə həbs olunur, həmin ailələrə buddist kişilər yerləşdirilir. Buddizmi qəbul etməkdən imtina edən müsəlman qadınlara toplama kamplarında fiziki və psixoloji əzab verilir, cinsi zorakılıq hərəkətləri edilir.[10]

Çin hakimiyyəti tarixində bir-biri ilə yola getməyən türkyut tayfa başçıları ilə dil tapmağın başqa yolları da olmuşdur. Qumilyov yazır ki, Taytszun "sel gücünü bəndə salmaq üçün" Çinə gələn on bir tele tayfası başçısına xalat və qılınc bağışlamış, rütbələr vermiş, sərxoş olana qədər şərab içirmiş, eyni zamanda öz səfirini fərman, litavra və bayraqla Seyanto xanı İnanın yanına göndərmişdi ki, onu rəsmən xan kimi tanıdığını təsdiq etsin. Beləliklə, köçərilərin at oynatdığı Çöldə vəziyyət dərhal dəyişmişdi: uyğurlar müharibəni dayan-dıraraq yeni xana tabe olmuşdular.

Taytszunun hakimiyyəti dövründə özgə ərazisini tədricən özününküləşdirmə siyasəti belə həyata keçirilirdi: "Xarici ərazi sahibi «nəvazişlər» vasitəsi ilə imperatorun hamiliyini qəbul etməyə razı

[9] Qumilyov L.N., 1993, səh. 87
[10] Hill Matthew, Campanale David and Gunter Joel, 2021

salınırdı. Bunun ardınca onun əyalətinə artıq «birləşdirilmiş əyalət kimi yeni ad verilir, hakimin özü əvvəlcə nominal şəkildə, sonra isə daha yüksək səlahiyyətli məmura tabe olmaq şərti ilə Çin rütbəsi alırdı... Növbəti mərhələdə özünüidarənin bu xəyali variantı da yoxa çıxır və «birləşdirilmiş» əyalət ümumi əsaslarla imperiyanın tərkibinə daxil edilirdi. Taytszunun hakimiyyət başında olduğu dövrdə bu sistem parlaq nəticələr verirdi."[11]

Fərqli ərazi vahidlərinin adlarının müxtəlif üsullarla dəyişdirilərək tarixdən silinməsi və ya məqsədli şəkildə dəyişdirilməsi siyasəti müasir dövrə qədər davam edir. Sovet Sosialist Respublikaları İttifaqı yaradılanda Qafqazdakı qədim Azərbaycan ərazilərinin yeni yaradılan Ermənistan SSR-in kənd və şəhərləri kimi identifikasiyası həyata keçirilmişdi. Belə ki, qədim oğuz türklərinin daimi yaşayış yerləri olan toponim adları dəyişdirilərək erməni dilinə çevrilmiş və saxta xəritələr tərtib edilərək yayılmışdır.

Rus hakimiyyətinin "Böyük Ermənistan" dövləti adı altında Qafqazdakı türk-müsəlman birliyini parçalayaraq müstəmləkəçilik siyasəti yeritməsi 1797-ci ildən başlamış, 1828-ci il Türkmənçay müqaviləsi ilə möhkəmləndirilmişdir. Qafqazda ümumi sayı 25 min olan ermənilər İran və Türkiyədən köçürülənlər hesabına artırılmışdır. Qırxbulaq, Zəngibasar, Körpübasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Saatlı (Səədli), Talin, Seyidli, Ağsaqqallı, Sərdar-abad, Kərnibasar, Abaran, Dərəçiçək, Göycə (bir hissəsi) mahallarının daxil olduğu İrəvan; Əlincəçay, Məvazixatun, Xok, Naxçıvan Dərələyəz mahallarının daxil olduğu Naxçıvan əyaləti; Ordubad, Əylis, Dəstə, Biləv və Cənnəp mahallarının daxil olduğu Ordubad dairəsindən sıxışdırılaraq Türkiyə və İrana köçməyə məcbur edilmiş türklərin evlərinə xaricdən dəvət edilmiş erməni ailələri yerləşdirilmişdir. Rusların silah-landırdıqları ermənilər qonşuluqda yaşayan silahsız və müdafiəsiz Azərbaycan türklərinə qarşı talan və qırğınlar

[11] Qumilyov L.N. 1993, səh. 188.

təşkil etməklə kifayətlənməmiş, eyni zamanda qədim Azərbaycan toponimlərini dəyişərək tariximizi yer üzündən silməyə çalışmışlar. Belə fitnəkarlıqlar 1905-1906-cı və 1915-1920-ci illərdə kütləvi şəkil almış, türklərə qarşı soyqırım (genosid) siyasəti həyata keçirilmişdir.

1947-53-cü illərdə Harutyunov-Mikoyan-Stalin üçlü-yünün bədnam siyasəti ilə 150 minə yaxın Azərbaycan türkü Ermənistandakı 60 yaşayış məntəqəsindən - daimi yurd-yuvasından çıxarılmış,[12] Azərbaycan SSR-in Kür-Araz ovalı-ğının susuz düzənliklərində çadırlarda yaşayaraq, pambıqçılıq təsərrüfatı yaratmaq üçün məcburi əməyə cəlb edilmişdi. Boşaldılmış 60 qədim Azərbaycan yaşayış məntəqəsinə sonradan erməni adları verilmişdir. İşğal və deportasiya prosesi 1988-1992-ci illərdə davam etmiş, təkcə azərbaycanlılar yaşayan 172 kənddən, 89 qarışıq kənd və 6 şəhər tipli yaşayış məntəqəsindən 49928 ailə (250000 nəfər azərbaycanlı) zorla qovularkən 226 azərbaycanlı ermənilər tərəfindən öldürülmüş (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.), 400 nəfərdən çox adam xəsarət almışdır. Bir çox azərbaycanlıların evləri, əmlakı yandırılmış, yüzlərlə türk-oğuz mənşəli yaşayış məskəninin adı dəyişdirilərək "erməniləşdirilmişdir".

Türklərə qarşı anoloji siyasətin kökləri çox dərindir. Məlumatlara görə, Altaydan Xinqana və Qobi səhrasından Baykala qədər uzanan Seyanto dövləti türkyut nümunəsi əsasında təşkil edilməsinə baxmayaraq, Çinə xidmət edirdi. Beləliklə Şibir xanın zamanında sayı milyonla ölçülən vahid türkyut ordusunun parçalanması nəticəsində Çin imperatoruna tabe olan və ölkənin sərhədlərini qoruyan, hamısı birlikdə sayı 200000 döyüşçü qalmışdı... Əsrlər keçməsinə baxmayaraq, bu siyasət indiyə qədər davam edir və türk birliyinə ciddi zərbə vurur.

---

[12] Arzumanlı Vaqif, Mustafa Nazim. 1998, səh. 4

Araşdırma göstərir ki, bütün müsbət cəhətləri ilə yanaşı, ən məkrli planlar da bəzən "elm" vasitəsilə həyata keçirilir. Tarixi izlərin itirilərək, məqsədli şəkildə saxtalaşdırılması tədqiqatlardakı yanlış yozumlardan başlanıb loyal müna-sibətlərlə davam edir. Mövzu üzrə araşdırma aparan tədqi-qatçının özündən əvvəlki tədqiqatçıların elmi nəticələrindən xəbərdar olması labüddür, lakin bu onun tədqiqata müstəqil yanaşaraq, obyektiv arqumentlər irəli sürməsinə mane olmamalıdır.

Məlumdur ki, "Azərbaycan" sözünü bütün türklər, M.Ə.Rəsulzadə (Arxivdə saxlanan səs yazısı sübutdur) və istiqlal qurucularımız, S. Xəlilov, eləcə də uzun müddət vətəndən kənarda yaşayan (babaları keçən əsrdə hicrət etmiş) indiki azərbaycanlılar "Azərbəycan" tələffüz edirlər. Tərkibcə təmiz Azərbaycan sözlərinin birləşməsindən yaranan ("Azər", "bəy", "can"), çox böyük məna və məzmun kəsb edən adı xarici tədqiqiatçıların mürəkkəb yozumlarına qurban etməyə dəyərmi? Azər bəyin canı - Azərbəycan - bütün vətənsevərlərin canı, qanı, nəfəsidir. Əks halda bu vətən üçün bu qədər mücahid şəhid olmazdı. Azərbaycan neçə-neçə canların yolunda fəda olduğu, baş qoyduğu Qafqaz diyarıdır. Müstəqil dövlətimizin adının düzgün yazılması millətimizin təhriflərə məruz qalan şanlı tarixinin bərpasının başlanğıcı ola bilər.

Azərbəycançılıq fəlsəfəsinin rüşeymləri Qədim türk mifologiyasında, Azərbəycan nağıllarının əhval-ruhiyyəsində, dastanlarımızda, folklor nümunələrində, Nizaminin, Füzulinin, Nəsiminin, ... irsində, xalq qəhrəmanlarının azadlıq və istiqlal mübarizəsinin xarakterindədir .[13]

İnsanın idrak prosesində mifologiya mühüm rol oynayır. Mifologiya elmin və mədəniyyətin sinkretik təzahürüdür. Azərbəycançılığın araşdırılmasında azərbaycan xalqının tarixi kökləri,

[13]Əsatirlər, əfsanə və rəvayətlər, 2005; Çəmənzəminli Y.V. 1977, səh. 44-48; Qafarlı R.O., 2004

mənəvi həyatının başlanğıcı, ilkin təsəvvürləri, ibtidai məişəti, qədim adət və ənənələrinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu aspektdə aparılan araşdırmalar arasında folklorşünas R.O.Qafarlının əsərləri təqdirəlayiqdir.

Azərbəycan şifahi xalq yaradıcılığının özü də mifologiya və dini mətnlərdən mayalanmışdır. Atalar sözündən tutmuş çoxşaxəli süjetə malik eposlaradək hər bir folklor nümunəsində müqəddəs mətnlərin əks-sədası görünür. Məsələn, "Avesta" və "Dədə Qorqud"u müqayisə edərkən bu iki informasiya mənbəyində olan xarakter yaxınlığını, ortaq ana xətti, vahid sistemi nəzərdən qaçırmaq mümkün deyildir. Hər iki mənbə qədim Azərbəycan mifoloji modelləri haqqında tam təsəvvür yaradır. Əsrləri adlayaraq müasir dövrdə xalqımızın milli mənəvi dəyərlərinə, ailə münasibətlərinə, gender məsələsinə, uşaq tərbiyəsi ilə əlaqədar cəhətlərə, xarici və daxili sosial münasibətlərə, ümumiyyətlə əxlaqi universalilərə baxarkən də müəyyən arxaik, formal detalları çıxmaqla ortaq ruhun ifadəsini görürük. Bu ortaq ruh azərbaycançılıqdır.

Türklər öz mövcudluqlarını dünyanın başlanğıcından hesab edirlər, lakin onlar belə güman edirdilər ki, dünya heç də elə qədim deyildir. Kül-tigin abidəsi tarixi ekskursiyadan başlanır: "Yuxarıda mavi səma və aşağıda boz torpaq yaradılan vaxt onların hər ikisinin arasında bəşər övladı yarandı (yaxud meydana çıxdı). Mənim əcdadlarım Bumın xaqan və İstəmi xaqan bəşər övladlarını başda oturtdular".[14] Türklərin yazılı tarixi eramızdan əvvəl VI əsrdən hesablanır. Türk yazılı qaynaqlarına görə, dünya sanki 2000 ildir ki, mövcuddur. L.N.Qumilyov bu qeyri-müəyyənliyin səbəbini Orta Asiyada hunların ənənələrinin kəsilməsi ilə əlaqələndirir. Hunların varisləri olan türklər öz əcdadları haqqında heç nə bilmədikləri kimi, Çingiz xan dövrünün monqolları da həmçinin türklər haqqında heç nə bilmirdilər. Əgər biz ənənə-

[14] Qumilyov L.N. 1993, səh. 278

lərdə iki - hun və türk xaqanlığı ilə xaqanlıq və Çingiz xanın imperiyası arasındakı dərin uçurumu (yaxud varisliyin qırılmasını) nəzərə almasaq, Orta Asiyanın tarixi bizə aydın ola bilməz. Tarixi proseslər burulğanında yaranan fasilələrdə türklüyün dövrümüzə gəlib çatmayan mərhələləri durur.

"Altay" nəzəriyyəsinin əksinə olaraq Azərbaycan tarixinin tədqiqində "Urmi teorisi" ilə çıxış edən Firudin Cəlilov öz əsərində türklərin ilkin məskənlərinin Avrasiya deyil, Azərbəycan olduğunu elmi-nəzəri dəlillərlə sübut edir. F.Ağasıoğlu tarixi qaynaqları, folklor və mifoloji mətnləri, Azərbəycanın qədim coğrafiyasını araşdıraraq İslamaqədərki azərbəycan dili, Azərbəycan əraziləri, xalqımızın dövlətçilik ənənələri haqqında müfəssəl məlumat vermişdir. O, bir sıra tarixçilərin türk adını Göytürk dövləti ilə eyni vaxta aid etməsini yanlış hesab edir, türkologiyada dərin kök salmış bu fikrin elmi əsasa söykənmədiyini vurğulayır. F.Ağasıoğlu yazır: "Qədim forması türük və daha qədim forması turuk olan bu türk etnonimi het, elam, akad-asur yazılarında və antik çağ yazarlarının əsərlərində yer almışdır. Hətta, m.ö. XIX-XVIII əsrlərdə Urmu gölünün güneyində Turuk bəyliyi vardı."[15]

O, asuroloqların mixi yazılarda Turuk bəyliyinin adını yanlış olaraq, Turukki şəklində oxumalarınının səbəblərini araşdırmış və III Bitikdə izah etmişdir. "Görünür, burada Mana dövləti qurulana qədər turukların böyük bir hissəsi Turana keçmiş və böyk Hun imperiyasının etnik tərkibini təşkil edən onlarla türk boyu kimi, «hun» adı altında görünməz olmuşdur. Yalnız ağhunlar çağında bir araya gəlib toparlanan turuk boyu artıq göy-türk, yəni «doğu türklər» adı ilə siyasi səhnəyə çıxmışdır. Bu adın özü aydın göstərir ki, həmin türklər batıdan (Azərbəycandan) doğuya getmişlər. Ön Asiyadan doğuya getmiş türk boylarının dilində rəng bildirən sözlərin cəhət anlamı da saxlanmışdır: ağ (batı),

[15] Ağasıoğlu Firudin, 2014, səh. 338

göy (doğu), qara (quzey), qızıl (güney), sarı (orta)."[16] Beləliklə L.N. Qumilyovun "Qədim türklər" kitabında türklərin mənşəyi və qədim məskənləri haqqındakı qaranlıq məsələlərə F.Ağasıoğlunun "Azərbaycan türklərinin İslamaqədər tarixi" kitabında aydınlıq gətirilmiş, türk tarixindəki "qırılma nöqtələri" yaxud "ağ zolaqlar"ın səbəbləri öyrənilmişdir. Xatırladaq ki, eyni yanaşmaya "Dədə Qorqud" eposunun bəzi tədqiqatçılarında da rast gəlmək olur. Ümumiyyətlə ədəbi abidələrdə bəhsi keçən millətlərin tarixini yaratdıqları abidələrin tarixi ilə eyniləşdirmək yanlışdır. Daha bir yanlışlıq isə millətlərin tarixini dövlətlərinin tarixləri ilə uzlaşdırmaqdır. Nəzərə almaq lazımdır ki, bəzi siyasi taktikalar millət və dövlət arasındakı əlaqələri qırır və millətin tarixində "fasilələr" yaranır. Məsələn: SSRİ dövründə türklərin yaşadığı ərazilər müxtəlif respublikalarda təmsil olunmuş, "türk" millət anlayışı leksikondan çıxarılmış - özbək, türkmən, tatar, qarakalpak, qırğız, qazax, xüsusilə türklüyün mayasını təşkil edən oğuz türkləri isə azərbaycanlı adlandırılmışdılar. Beləliklə 70 illik (1920-1990) tarixdə SSRİ-də türklərin yaşaması faktı pərdə arxasına keçmişdir. İnsanlıq tarixində belə hadisələr çox olmuşdur.

Tur Heyerdalın da təsdiq etdiyi kimi, Azərbəycandan Avropaya gedən azərbəycanlılar orada dillərini itirib norveçlilərin içində əridiyi halda, doğuya gedən azərbaycanlı boyları türk mühitində öz milli varlıqlarını saxlaya bilmişlər. Odur ki, tədqiqatlarda diqqətli olmaq, hər hansı problemə bir-neçə baxış bucağı altında, sistemli, elmi-fəlsəfi yanaşma tələb olunur.

Azərbəycan folklorşünası R.O.Qafarov "Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası)" adlı monoqrafiyasında yazır: "Azərbaycan türklərinin mifologiyası hər bir mifoloji düşüncə kimi öz arxetipik simvollarına malikdir". Əsərdə ilkin mifoloji anlayışla-

[16] Ağasıoğlu Firudin, 2014, səh. 339

rın (zaman, məkan və kəmiyyət), sakrallaşmanın, arxetipik simvolların bədii yaradıcılığın, mədəniyyət növlərinin rüşeymləri olduğu əsaslandırılır. Müəllif qeyd edir ki, mifin sakral strukturunun qabardılması milli mədəniyyətimizin funksional strukturu baxımından ciddi əhəmiyyətə malikdir."[17]

Azərbaycançılıq əsrlərin sınağından keçmiş mədəni universalilərin unikal, təkrarsız vəhdətidir. Azərbaycançılıq yalnız azərbaycanlı olmaq deyil, həm də Azərbaycanla olmaq, Azərbaycanı, onun milli-mənəvi dəyərlərini qorumaq və yaşatmaq fəlsəfəsidir. Azərbaycançılıq qədim Azərbaycan mədəniyyəti və ictimai fikrinin XXI əsr mərhələsinin – müasir multikultural, tolerant düşüncə fəlsəfəsinin adıdır.

Mənşəyini mifik təfəkkürdən: əsatirlər, əfsanə və rəvayətlərdən, Kitabi Dədə Qorqud kimi şifahi xalq yaradıcılığı xəzinəsindən, Avestadan, İncildən, Qurandan alan yeni Azərbaycan ictimai fikri xalqın azadlıq mübarizəsi və dövlətçilik ənənələri zəminində təkamül edib formalaşmış, nəhayət 1918-ci ildə Şərqdə ilk demokratik dövlət yaradan ideologiyaya çevirilmişdir.

Akademik Tofiq Hacıyev yazır: "Dədə Qorqud kitabı" Oğuzun tarixidir, dövlətçiliyidir, Azərbaycanın tarixi coğra-fiyasıdır. Hər elm adamı bu kitabda axtardığını tapa bilər."[18] O, İsmayıl Hacıyevin ""Dədə Qorqud" dünənimizin keçmişidir" tezisini dəstəkləyərək yazır ki, ... "Dədə Qorqud kitabı" dastanın yaranması haqqındakı tarixdən qədimdir. Belə ki, dastanda hadisələrin Muhamməd peygəmbərin zamanına yaxın, yəni VII əsrdən əvvəl Boyat boyunda cərəyan etdiyi qeyd olunur.[19] Beləliklə, Böyük Oğuz Elinin VII əsrə qədərki dövlətçilik tarixi bizə oğuznamə halında, yəni yazılı şəkildə "Dədə Qorqud kitabı"nda gəlmişdir.

[17] Qafarov R.O. 2010, səh. 51
[18] Kitabi-Dədə Qorqud, 2004, səh. 6
[19] Kitabi-Dədə Qorqud, 2004, səh. 172

T. Hacıyev "Dədə Qorqud" dastanındakı informasiyanın yazıldığı dövrdən daha qədim olması faktını araşdırarkən, hazırda "dastanın xalqın içində olmadığını – şənliklərdə, toy-mağarlarda iştirak etmədiyini" qeyd edir və səbəbini xüsusi ifaçıların - qorqudçuların olmamasında görür. Həm şeir, həm də nəsrlə ifa olunan dastanlardan fərqli olaraq, "Dədə Qorqud eposunda bir cümləni də buraxmaq olmaz. Çünki hər cümlə şeir misrasıdır və o cümlə - misra ifadan çıxsa, süjetin söylənməsində qırıqlıq yaranacaqdır.[20] Deməli "şeirlə yazılmış dastanı əzbərləyən, əvvəlindən axırına qədər bir sözü dəyişmədən, unutmadan söyləyən, xüsusi "ağıllı, elmli kimsələr", fövqəladə yaddaşlı qorqudçular nəsli kəsilib. Nəticədə dastanın el içində şifahi ifası dayanmış, ... ulu babalarımız onu sonuncu qorqudçu ozanın dilindən yazıya almışlar."[21] Müəllifin gəldiyi nəticə onu göstərir ki, zamandan və məkandan asılı olmayaraq dəyərlərə sahib çıxmaq mümkündür, lakin çox çətindir, Milli-mədəni dəyərləri qorumaq üçün keçmişi, dünəni dəyərləndirmək, indini dərk etmək və gələcəyə baxmaq lazımdır.

## 1.2. Sevgiyə həyat verən təcrübə

Heydər Əliyev "Milli varlığımızın mötəbər qaynağı" adlı məruzəsində "Dədə Qorqud" dastanının milli kimliyimizi təsdiq və dünyaya tanıdılması baxımından əhəmiyyətini şərh edərkən demişdir: ""Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir."[22]

XIX əsrin sonu, XX əsrin əvvəllərində M. Ə. Rəsulzadənin, Ə. Hüseynzadənin, Ə. Ağaoğlunun, Ə.Topçubaşovun, H.Zərda-

[20] Kitabi-Dədə Qorqud, 2004, səh. 8
[21] Kitabi-Dədə Qorqud, 2004, səh. 9
[22] Əliyev Heydər, 2004, səh. 16

binin, Ü. Hacıbəyovun və digərlərin fəaliyyətlərində pərvəriş tapan milli istiqlal məfkurəsi Hüseyn Cavid, Məmməd Araz, Xəlil Rza, ..., poeziyasında daha da cilalanmış, elmi-fəlsəfi mühitdə geniş əks-səda doğurmuş və Azərbəycan xalqının milli lideri Heydər Əliyev tərəfindən ictimai, praktik perspektivləri olan nəzəriyyəyə çevirilmişdir. Azərbəycançılığın dövlətçiliyə tətbiqi məhz bu dahi şəxsiyyətin adı ilə ona görə bağlıdır ki, o, nəzəriyyəni həyata tətbiq etdi: dövlətin daxili siyasət xəttini müəyyənləşdirdi, birlik və həmrəyliyin loqosunu yaratdı.

O, Hüseyn Cavidin, Xəlil Rzanın, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin ədəbi-bədii irsində poetik tərənnümünü tapmış milli-mənəvi dəyərləri Azərbaycançılıq adı altında birləşdirdi və milləti azadlıq mübarizəsinə səfərbər etdi. Dövlət xadimi Heydər Əliyev H.Cavidin Azərbəycan xalqına müraciətini siyasi strategiyaya çevirdi:

“Çoq əzildin, yetər, ər oğlu ər ol!
Çırpınıb çareyi-xilas ara, bul!
Qoşaraq nura, cəhli et pamal!
Həp sənindir şərəf, ümid, iqbal.
Şaşırıb durma böylə... Bir aydın
İdeal arqasınca qoş, çırpın!
İdealsız nicat ümidi-məhal...
“İttihad!” İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarır birlik,
Çünki birlikdədir fəqət dirilik!..”[23]

Yalnız H.Cavidin deyil, Cavanşirdən, Babəkdən bu yana bütün azərbəycançıların, o cümlədən İsmayıl bəy Qaspıralının (1851-1914) bir idealı olmuşdur: birlik.[24]

---

[23] Cavid Hüseyn, 2005, səh. 54
[24] Qaspıralı İsmayıl, 2002

Dünyada müxtəlif məzmun və xarakterli, müxtəlif məqsədlərə xidmət edən, dini və dünyəvi hədəflərə yönələn birliklər olmuş, müəyyən vaxtdan sonra bu və ya digər səbəblərdən dağılmışdır. H.Cavid bu barədə yazır:

"Seyr edin iştə kainatı bütün,
Devrilir hər adımda bir əzəmət,
Dinləməz dünkü hadisatı bu gün,
Parlıyor hər dəqiqə bir hikmət.
Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur."[25]

İdeya əsası möhkəm olan birliklər isə "fəsillərə görə dəyişsələr" də tamam yox olmamış, baharda cücərən otlar kimi sərt daşları belə dəlib çıxmış, inkişaf etmiş, xəyaldan həqiqətə çevrilmiş, dünyanı yenidən gözəlləşdirməyə davam etmişdir.

Xəyalların gerçəkləşməsi yolları çox fərqlidir. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbəycan xalqının birliyi gah dini (müsəlman), gah da milli (türk) olmaq etibarilə müxtəlif təsirlər altında tərəddüd etmişdir. Bu xalqımızın müsəlman və türk birliyinin nümayəndəsi olmasından irəli gəlmişdir. "Aləmiyyət əl-İslam" ("İslamın universallığı") prinsipinə görə "Lə ilahə illəllah" kəlməsi bütün insanları islam dini ətrafında birləşdirir."[26] İslam dini dəyərləri insanları eyni dövlət tərkibində yaşamadan belə, vahid ümumbəşəri əqidə yolunda sıx birləşdirməyə xidmət edir. Lakin İslamın inteqrativ potensialından istifadə edərkən, digər mədəni təsirləri və əks yanaşmaları da unutmaq olmaz.

Fransız tarixçisi Fernan Brodelin işini davam etdirərək "Dünya – sistem" nəzəriyyəsini yaradan İ.Vallerstaynın fikrinə görə, ümumdünya tarixi mübarizəyə məhkumdur. "Assimil-yasi-

---

[25] Cavid Hüseyn, 2005, səh. 76
[26] Mürsəlov Ramiz, 2004, səh. 40

ya prosesləri bəşəriyyətə baha başa gəlir. Müasir dünya sistemində tam və onun hissələri arasında baş verən hadisələri izləməyə, müqayisəli təhlil aparmağa imkan verən konsep-siyalar lazımdır. Mən detallı, ətraflı kəmiyyət göstəricilərinin tərəfdarıyam. Tarixi hadisələrin bütün mürəkkəbliyi ilə, olduğu kimi – arxiv materialları əsasında vicdanla, dəqiq, dəlil-sübutlu araşdırılmasının tərəfdarıyam. Fərqlilik ölçülərini müəyyən-ləşdirməyə imkan verən vasitələrə, modellərə ehtiyac vardır. Bizə elə bir model lazımdır ki, onun köməyi ilə dəyərləri qiymətləndirək, əldə olunmuş bilikləri ümumiləşdirən konsep-siyalar yaradaq və bir-birimizlə paylaşaq. Bütün bunlar insanların "hibris"li (təkəbbürlü, yekəxana, lovğa – İ.Z. ), günahkar yaranışı ilə əlaqədardır. Ona görə də yaxşılığa, həqiqətə və gözəlliyə can atırıq.[27] Kitab müəllifinin dünya sistemini analiz etdikdən sonra hazırda yaşadığımız situasiya haqqında gəldiyi nəticə çox ilgincdir. O, yaxşılıq, həqiqət və gözəlliyə can atan bəşəriyyətin gələcəyi haqqında düşünür, lakin insana münasibətindəki köhnə kilsə prinsipindən (günahkarlıq haqqında) ayrıla bilmir. Xatırlayaq ki, dünya - sistem modelinin ən mükəmməli - VII əsrdə Muhamməd peyğəmbər vasitəsilə bəşəriyyətə tanıdılmış İslam dinindədir. Qurani-kərim insanlığın ruhi-mənəvi, əqli-intellektual, iqtisadi-hüquqi, sosial-psixoloji problemlərindən çıxış yollarının aydın göstərildiyi mənbədir.

Müasir dünya sisteminin özəlliyi yaxşılığa, həqiqətə və gözəlliyə fərqli rakursdan yanaşmaqdan daha çox "İblisi təqlid etmək", yəni nankorluqla - ilahi hikmətin əksinə yönəlməklə əlaqədardır. Həyatın mübarizədən ibarət olması düşüncəsi "nə uğrunda?" sualını meydana gətirir. Bu suala cavab istiqa-mətindəki bəzi yanaşma və hədəflər Yaradanın hikməti, öyüd və nəsihətlərinə ziddir. Xüsusilə, "fitnə-fəsad törətməyin insanı öldürmək-

---

[27] Валлерстайн И. 2001, стр. 57-58

dən daha təhlükəli olması”[28] haqqındakı İslam dini müddəasına laqeydlik davamlı inkişaf məqsədləri və hədəflərinə nail olmaqda qarşıya çıxan çətinliklərin bir cavabıdır. Müşahidələr göstərir ki, insan tələfatı ilə müşayiət olunan bütün münaqişə və müharibələr öncəsi cəmiyyətdə mənəvi tənəzzül, əxlaq böhranı, ədalətsiz idarəçilik halları artır.

Tarix boyu xarici dövlətlər tərəfindən Azərbəycana edilən hücumların səbəbi kimi zehnimizə yeridilən yanlışlardan biri ölkənin maddi ehtiyatlarla zənginliyi hesab olunur. Lakin dünyada elə zəngin ölkələr (İsveç, Bruney və s.) vardır ki, müharibələrlə vidalaşmış və elə kasıb ölkələr (Sudan, Somali, Mozambik və s.) də vardır ki, müharibə və münaqişə az qala həyat tərzinə çevrilmişdir. İslamı qəbul etmək, müsəlman olduğunu düşünmək, sülhü (salamı, İslamı) istəmək azdır, hikməti sevmək, məzmunu və mahiyyətinə varmaq, Sahibini tanımaq, Yaradanı, Eşidəni, Görəni, Biləni inkar etməmək, iman etmək - əməl lazımdır ki, NİZAMı anlayasan və əmin-amanlıqda olasan.

Dünya sistemində kiçik yer tutan (5765 kv.km), əhalisi 400000 nəfər olan ən zəngin ölkə Bruney Darussalam (Sülh ölkəsi) Sultanlığı haqqında məlumatların müqayisəsi problem-lərdən çıxış yolları və davamlı inkişaf meyarlarını təxmin etməyə imkan verir. Dövlət quruluşu monarxiya olan müsəl-man ölkəsi Bruneydə ən kasıb adamın illik gəliri 20000 dollardır. Burada evsizlik, işsizlik və verginin nə olduğunu bilmirlər, təhsil və tibbi xidmətlər pulsuzdur, xarici ölkələrdə təhsil isə dövlət hesabınadır. Bruneydə alkoqollu içki, siqaret, bar-diskoteka yoxdur, narkotikdən istifadənin cəzası ölümdür. Hazırda valyuta ehtiyatı 20 milyard dollar təşkil edən ölkə İslam şəriəti ilə idarə olunur və davamlı insan inkişafı indeksinə görə, müsəlman ölkələri içərisində birinci yerdədir.[29]

[28] Quran, 2/11, 2/27, 2/60, 2/91, 2/205, 2/217, 5/64, 7/56 və s.
[29] Bruney Darussalam, 2015

Dünyada Tunku Abdul Rəhman, Mahathir Muhamməd, Yusuf əl-Üseymin, N.Ərbakan, R.T.Ərdoğan və M.Çavuşoğlu kimi uğurlu karyeraya malik siyasətçilər apardıqları mübarizənin hədəflərini gizlətmirlər. R.T.Ərdoğan bioqra-fiyasında yazır: "Mən səmimi müsəlmanam... İnandım ki, siyasət xilaskarlıqdır. İçində yaşadığımız cəmiyyətdə siyasətlə məşğul olmaq və minlərlə, on minlərlə, yüz minlərlə, hətta milyonlarla insanın rifah və səadətini təmin etməyi bacarmaq məcburiyyətindəyik... Biz yaxın məqsədlərə deyil, uzaq marafona - "elani Hayy" ("Allahın xəbərdarlıqlarını yaymaq" – İ.Z.) yoluna çıxmışıq."[30] Çünki, Allahın xəbərdarlıqları ədalətli dünya nizamı, sülh və təhlükəsizlik, bəşəriyyətin əmin-amanlığı üçündür.

R.T.Ərdoğanın hakimiyyətdə olduğu müasir Türkiyədən fərqli olaraq, keçən əsrin əvvəllərində Azərbaycanda ictimai, siyasi, iqtisadi, coğrafi durum tamamilə başqa (Azərbaycan SSR) olduğundan vahid strategiyanın formalaşmasında çətinliklər yaranmışdı. Milli birlik - türkçülük ətrafında birləşmək çağırışının tərəfdarları, islamçılar və ümumiyyətlə Qərbə üz tutaraq Avropa dəyərləri vasitəsilə inkişafı dəstəkləyənlər arasında birliyi təmin edən vahid dövlətçilik strategiyası hazırlanmalı idi...

Bu çətin vəziyyətdə Azərbəycan bayrağı millətin birlik rəmzi oldu. Hələ XX əsrin əvvəllərində Azərbəycan ictimai fikrinin qabaqcıl nümayəndələri, o cümlədən Əli bəy Hüseynzadənin uzaqgörənliyi ilə təsbit edilən dövlətçilik atributlarında gələcəkdə yarana biləcək bütün mübahisəli məsələlərin həlli nəzərə alınmışdı. Azərbəycan Cumhu-riyyətinin qurucuları 1918-ci ildə müxtəlif anlamları ifadə edən (islam, türklük, müasirlik), hətta çoxlarının ziddiyyət hesab etdiyi məsələləri dövlətçiliyimizin simvolu olan bayrağa sığışdıra bilmişdilər. Üç rəngli bayraq (mavi, qırmızı, yaşıl) Azərbəycan dövlətinin rəmzi olmaqla yanaşı, həm də dəyərlərin inteqrasiyasına əsaslanan mədəniyyətin,

[30] Erdoğan R.T, 2013

milli düşüncə tərzinin - Azərbəycan fəlsəfəsinin rəmzi təsviridir.

Azərbəycan hazırda elm, fəlsəfə, dövlət siyasəti və sosial mühit arasındakı qarşılıqlı təsir və ənənəvi əlaqələri qoruyub saxlayan, eyni zamanda müasir dünyaya inteqrasiya edən unikal məkanlardan biridir. Azərbəycan xalqının əsrlər boyu gen yaddaşında qorunub saxlanmış dövlətçilik fəlsəfəsi aşağıdakı dörd misrada olduqca sadə və aydın ifadə olunmuşdur:

"Milli fikir toxumları səpildi,
İslatdı torpağı axan qızıl qan.
Bu əkindən sabahkı bir baharda,
Əlbət bitər bir yeni Azərbəycan."[31]

"Mayıs duyğuları" şeirinin müəllifi, XX əsrin əvvəllərində (27 may 1918 – 7 dekabr 1918) Azərbəycan dövlətinin başçısı olmuş M.Ə.Rəsulzadənin (1884-1955) bütün xəyalları görkəmli dövlət və siyasi xadim, SSRİ dövründə (1969-1982) və sonralar Azərbaycana rəhbərlik etmiş (10 oktyabr 1993 – 31 oktyabr 2003) Heydər Əliyev (1923-2003) tərəfindən reallaşdırılaraq, daha da inkişaf etdirilmişdir.

## 1.3 Azərbaycan milli fəlsəfəsi

Azərbəycançılıq dil, din, ərazi birliyi ilə məhdud-laşmayan ortaq mənəvi özəllikdən qaynaqlanır. Azərbəy-cançılıq vətəndən kənarda da vətənin milli-mənəvi dəyərləri ilə nəfəs almaq, yaşamaq və yaratmaqdır. Azərbəycançılıq Almaniyanın Münhen şəhərində yaşayan yəhudi əsilli Azərbəycan şairi Simax Şeydaya ilham verən, norveçli alim Tur Heyerdalı Kişə (Şəki, Azərbəycan) gətirən, amerikalı musiqiçi Cefri Verbaxı azərbəycanlı muğam ustası Alim Qasımovla yaxınlaşdıran düşüncə mədəniyyəti-

[31] Sahil Rəşad, Nərimanov haqqında, 2014.

dir. Azərbəy-cançılıq işğallara, müharibələrə, soyqırımlara, ədalət-sizliklərə, məhrumiyyətlərə, ... məruz qalmasına baxma-yaraq bir xalqın dirəniş gücü, kimliyini təsdiq etmə mexanizmi, yenidən dirçəlmə, özünübərpa vasitəsidir.

F.Məmmədova azərbəycanlıların milli özünüdərk şüuru-nun genezisi haqqında yazırdı ki, "Azərbaycanlıların milli özünüdərk şüurunun formalaşaraq türkçülüyə (ümummilli dəyərlərin qorunması) və nəhayət milli, azərbaycançılığa gedən yolu ümummüsəlman və ümumtürk birliyindən keçir."[32]

Müəllif həmin tezisində qeyd edir ki, IX-XII əsr ərəb mənbələrində "Atropatena adlanan Azərbaycan" ərazilərindən bəhs olunur. Halbuki, həmin dövrə aid bir sıra mənbələrdə Azərbaycan adlı ərazinin mövcudluğu artıq açıq dəlillərlə təsdiq olunmuşdu. Bunlardan biri də Əbu Hamid Qəzalinin (1058-1112) "İhya ülumiddin" əsəridir. 4 cilddən ibarət ensik-lopedik əsərdə xəlifə Ömər ibn Xəttabın Azərbəycanda İslam dəyərlərinin təbliği üzrə nümayəndəsinə halal və haramın ayırd edilməsi və s. haqqında tövsiyələrindən bəhs olunur.[33] İsnadın məzmunu həmin hadisənin VII-VIII əsrlərdə, həzrəti Ömərin həyatı və Xəlifəlik fəaliyyəti dövründə baş verdiyini göstərir. Buradan belə bir nəticə çıxır ki, Azərbəycan adlı ərazi o zamanlar artıq mövcud olmuşdur.

Azərbəycan tarixşünası Yaqub Mahmudov qeyd edir ki, "Qədim türklər hələ bizim eradan çox-çox əvvəlki tarixi dövrlərdən başlayaraq həmişə, təkrar-təkrar Avrasiya məka-nında öz yerlərini dəyişmişlər. Lakin Azərbəycan torpağı türk üçün həmişə dəyişməz məkanlardan biri (daha doğrusu ən başlıcası!) olaraq qalıb."[34]

Azərbaycan milli fəlsəfəsinin təməli milli irsdir. "Azərbaycan ideologiyası" monoqrafiyasının müəllifi Niza-məddin Şəm-

---

[32] Мамедова Фарида, 1998, стр. 100.
[33] İmam Qəzali, 1974, səh. 305
[34] Mahmudov Yaqub, 2004, səh.16.

sizadə yazır ki, xalqımızın ideya birliyinin ifadəsi olan "Azərbaycançılıq millətin varlığının iki əsas əlamətinə Dil və Dinə əsaslanır... O üç təməl üzərində bərqərar olur: Türk millətindənəm, İslam ümmətindənəm, Azərbaycan məmləkə-tindənəm."[35] Azərbəycan milli fəlsəfəsinin müasir dövrü milli identikliklə şərtlənir. XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbəycan milli fəlsəfəsi dünyaya əsasən iki təməl istiqamət: daxili birliyi möhkəmlədən - Azərbəycançılıq və dünyaya inteqrasiyanı təmin edən – multikulturalizm üzrə açıldı. Milli fəlsəfə bir millətin mənəvi simasıdır, varlığı anlama üsuludur, başqaları ilə dialoqda, dünyaya inteqrasiya şəraitində özünəməxsus dəyərlər sistemidir. Milli ruhu qorumaq, inkişaf etdirmək, həm də bəşəriyyətin hikmət xəzinəsini zənginləş-dirmək deməkdir.

Ə.Abbasov yazır ki, "cəmiyyət - millət – dövlət rabitəsində mütərəqqi sinergizmi qidalandıran ən başlıca amil-şərt intellektual əmtəənin istehsalı və onun optimal dövriyyəsidir...[36] Bu istehsalın məhsulu olan milli fəlsəfə eyni zamanda milli kimliyi, milli ağıl və təfəkkürü təmsil edir.

Milli fəlsəfənin özünəməxsus açar sözləri vardır. Zeynəddin Şabanova görə, Azərbaycan milli fəlsəfəsində iki açar söz vardır: varlıq - nəsnə, bilik - öznə. "Nəsnə - öznə anlayışı fəlsəfənin mahiyyəti hesab olunan "nə - öz - söz" formulunu ifadə edir. Yəni nəsə var, öz onu dərk edir və daha sonra onu sözlə ifadə edir. Nəsnə varlığı təmsil edir, öznə onu bilik şəklində dərk edir və daha sonra bu ikisinin sintezindən söz doğur: Nə(snə) - öz(nə) - (nə)s(nə)öz(nə)".[37] Maddi və mənəvinin sintezindən yaranan söz fəaliyyət nəticəsində yenidən yaranan maddiyatın mənəvi əsası olur. Beləliklə, hər əməlin xarakteri onu yaradan fikir

[35] Şəmsizadə Nizaməddin, 2006, səh. 5-8.
[36] Abbasov Ə.F. 2011, səh. 7
[37] Şabanov Zeynəddin, Milli fəlsəfə, 2019, səh. 696

və sözdən qaynaqlanır. O halda yaxşılığın xeyirli fikir və xeyirli sözdən başladığı bir həqiqətdir.

Azərbəycançılıq Azərbəycan ərazisində yoğrulan, eyni zamanda onun hüdudlarını aşan milli təfəkkür simgəsidir. Yazıçı Anara görə, "azərbaycançılıq insan azadlığı, milli müstəqillik, sinfi, milli, irqi, dini, cinsi bərabərlik, qardaşlıq, dostluq təməli üzərində dayanan vahid dövlətçilik ideolo-giyasıdır. Yazıçının elmi qənaətinə görə, xalqımızın milli ideologiyası zaman, məkan və etnos çərçivəsinə sığmayan daha geniş, ümumbəşəri məvhumdur. Anarın "İki dilin bir adı ola bilməz", "İpək yolu", "Mədəniyyətimizin taleyi təhlükə altın-dadır", "Mədəniyyət də istehkamdır, qaladır" adlı yazılarında ictimai məsələlərə, eyni zamanda məfkurə mövzusuna xüsusi yanaşma, təhlil və münasibət vardır.

O yazır: "... dilimizin tarixi kökləri baxımından qazax ya başqırd mənə nə qədər yaxın olsa da, ayrı dil sistemində danışan talışdan, ləzgidən ya kürddən yaxın deyil. Əsrlər boyu adət-ənənələri, məişət özəllikləri, əxlaq anlayışları, nəhayət, mətbəxləri bir olmuş tat, avar mənə eyni dil sisteminə malik olduğum xakasdan, ya yakutdan doğmadır. Ailə bağları da Azərbaycan türklərini çuvaşlarla, ya tuvalılarla deyil, talışlarla, kürdlərlə, ləzgilərlə və özünə qürurla "azərbaycanlıyam" deyən bütün başqa millətlərlə bağlayır. Tarixi araşdırmalar, dil, ədəbiyyat tədqiqatları baxımından son dərəcə önəmli olan bir sahə - türkçülük məkanı bizi azərbaycançılıq məkanından ayıra bilməz. Azərbaycan türk dünyasının bir parçasıdır, amma Azərbaycanın içində ayrıca bir Azərbaycan dünyası da var və bu dünyada türk olmayan azərbaycanlılar da layiqli, şərəfli yerə malikdirlər."[38]

Avropa və Asiyanın qovşağında, Böyük ipək yolunun üzərində yerləşən Azərbəycan tarixinə nəzər salmaq kifayətdir ki, buradakı mədəni müxtəliflikə yanaşı xalqın müdrikliyini və nümunəvi tolerantlıq ənənələrini başa düşmək olsun. "Azərbaycan

[38] Anar, 2004, səh. 26

mifoloji mətnləri” (1998), S.Y.Malovun rus dilində “Памятники древнотюркской писменности. Тексты и исследования” (1951) K.Əzimovun rusca “Ценностный мир человека в религиозно-философской доктрине зороастризма” (1991), Azərbaycan tarixi (Ən qədim zamanlardan XIX əsrədək) çoxcildliyinin I cildində (1994), Yaşar Qarayevin “Tarix: yaxından və uzaqdan” (1996) əsərin-də, 20 cildlik “Azərbaycan klassik ədəbiyyatı kitabxanası”nın I cildində (1982), Mirəli Seyidovun “Azərbaycan mifik təfəkkürünün qaynaqları” (1983), V.Həbiboğlunun “Türk dün-yasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri (1995) və başqa əsərlərdə Azərbaycan tarixi və mifoloji təfəkkürünün xarakterik cəhətləri geniş tədqiq olunmuşdur.

Göründüyü kimi, Azərbəycançılıq yalnız dil, din, ərazi birliyi ilə məhdudlaşmayan mənəvi özəllikdən qaynaqlanır. Azərbəycançılıq bu ərazidə yaşayan xalqların dəyərlərinin əsrlərin sınağından keçmiş mədəni universalilərinin unikal, təkrarsız vəhdətidir. Heydər Əliyev Azərbaycançılıq məfku-rəsini Azərbaycan milli ideologiyasının əsas prinsipi hesab edirdi. O, Azərbaycan Respublikasının Prezidenti olarkən Res-publika gənclərinin ikinci forumunda demişdi:

“Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, Azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, Azərbaycanın milli bayrağı, gerbi, himni – bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir.”[39]

[39] Əliyev Heydər, 1999, səh. 1.

Heydər Əliyevin bu fikirləri Azərbaycançılıq fəlsəfəsinin demək olar ki, bütün parametrlərini lakonik şəkildə ifadə edir. Azərbaycançılıq məfkurəsinin dövlətçiliyə tətbiqi, Azərbaycanın milli ideologiyasının müasir mərhələsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Heydər Əliyev dövrünün sənətkarı, xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009) “Bayraq” şeirin-dən bir parçada milli dövlətçiliyin rəmzi ilə müasir milli düşüncə arasındakı təsirlər çox gözəl təsvir olunmuşdur:

“Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.”[40]

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycançılığın nəzəri-praktik təbliği və elmi inkişafı məqsədilə 16 dekabr 1991-ci ildə tammətnli elektron materiallar məcmuəsi yara-dılmışdır. Məcmuədə yaradıldığı gündən bu günədək dünya azərbaycanlılarının ölkə daxilində və xaricdə milli-mənəvi dəyərlərin qorunması və dünyaya inteqrasiyası istiqamətindəki fəaliyyətlərinin ən parlaq nümunələri xronoloji ardıcıllıqla toplanır. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi-nin Kitabxanası tərəfindən hazırlanmış məcmuə informasiya agentliklərinin xəbərləri, dövri mətbuat və internet materialları əsasında daim yenilənir.

Topluda dərc olunan materialların bir hissəsi Azər-baycançılığın elmi tədqiqinə həsr olunmuşdur. Buraya Azərbaycançılıq konsepsiyasının əsasını qoyan H.Əliyevin çıxışları ilə yanaşı, Azərbaycançılıq məfkurəsi aspektində tədqiqatlar aparan N.Şəmsizadə, S.Məmmədov, R.Mehdiyev və digər mütəxəssis-

[40] Vahabzadə Bəxtiyar, Bayraq, 2017.

lərin əsərləri daxil edilir. Onların və Azərbaycan milli ideologiyasını ədəbiyyatşünaslıq, tarix, fəlsəfə, siyasət, mədəniyyətşünaslıq aspektlərində araşdırmış N.Cəfərov, Ş.Hüseynov, R.Əhmədli, F.Ələkbərov, S.Süleyma-nova və başqa müəlliflərin monoqrafiyalarında Azərbaycan fəlsəfəsinin xarakterik xüsusiyyətləri, milli və bəşəri cəhətləri elmi təsdiqini tapmışdır.

## 1.4.Fəlsəfə və mənlik şüuru arasındakı əlaqə

Hazırda dünyada mənəvi deqradasiya prosesi ilə yanaşı KİV, reklam mətnləri, dəb və moda vasitəsilə dəyərlərin mexa-niki olaraq dəyişdirilməsi - “pis”in “yaxşı” kimi təqdim olun-ması, xeyirxahlığa ironiya, və s. meyllər müşahidə olunur. Bəzi hallarda beynəlxalq aləmdəki standartlara bilərəkdən, məqsədli şəkildə riayət olunmaması, qanunların birbaşa və yaxud dolayısıyla pozulması həm qlobal miqyasda, həm də lokal müstəvilərdə öz təsirlərini göstərir. Milli ədəbiyyatımız, elmi-fəlsəfi əsərlər sayəsində dirçələn milli şüur təəssüf ki, yad təsirlər altında formalaşan acı reallıqlarla ziddiyyət təşkil edir. Düşüncə və fəaliyyət arasındakı uyğunsuzluq cəmiyyətdə şübhə və tərəddüd yaradır, milli mənlik şüurunun qətiyyətini zəiflədir.

Bu gün dünyada heç bir dövlət beynəlxalq müstəvidə qəbul olunmuş tolerantlıq prinsiplərindən rəsmi şəkildə imtina etmir. Lakin pərdə arxasında bu prinsiplərə əməl etməyən dövlətlər və cəmiyyətlər kifayət qədərdir. Məsələn, Rusiyaya arxalanan Ermənistan insan hüquqları və onun tərkib hissəsi kimi tolerantlıqla bağlı konvensiyalara qoşulmasına baxma-yaraq, etnik təmizləmə və işğalçılıq siyasətindən əl çəkmir. Müvafiq beynəlxalq qurumlar isə gözləmə mövqeyi tutaraq ictimaiyyətin gözündən pərdə asmaqla məşğuldurlar. Əslində sağlam şüur və aydın təfəkkür işığında obyektiv və subyektiv cəhətləri ayırd etmək o qədər də çətin deyildir. Sadəcə insanın həyata baxışında “mən və başqası” ayrıseçkiliyinin qabarması, mühitə və “digər”ə münasi-

bət ilə özünə və öz hərəkətlərinə münasibəti arasındakı təzadlar problemin həllini mürəkkəb-ləşdirir. "Sevdirmək, nifrət etdirməmək", "asanlaşdırmaq, çətinləşdirməmək", "yaxşılıq etmək və pislikdən çəkindirmək" kimi hikmətli sosial rifah aksiomlarının əvəzinə "həm suçlu, həm güclü" iblis obrazına rəğbət oyadılması mənəvi böhranın cücərtiləri olmuşdur. Çağımızda Azərbaycana xaricdən yalnız ətirsiz qızılgüllər gətirilmir, həm də ateizm, deizm, satanizm, buddizm təsirləri ayaq açır.

Fərqliliyə, mədəni müxtəlifliyə problem kimi deyil, zənginlik kimi baxılan odlar diyarında multikulturalizmin uğur qazanması təsadüfi deyildir. Azərbaycanın hikmət xəzinəsində elə əsərlər vardır ki, etnik zənginlikdən bəhrələnməyə kömək edir və mədəni müxtəliflik şəraitində dinc yanaşı yaşamın səmərəliliyini təşfiq edir. "Əvvəl evin içi, sonra çölü", "insanın batini zahirindədir" və s. kəlamlar isə milləti özündən uzaqlaş-mağa qoymur, ya olduğu kimi görünməyə, ya da göründüyü kimi olmağa təşviq edir.

Harmonik inkişaf fərdi şüurdan ictimai şüura, təkdən cəmə doğru istiqamətlənmişdir. Tolerantlıq insanın cəmiy-yətdəki "mən" və "başqası" vəziyyətini dərk etdiyi halda, ədalət hissini itirmədən şüurlu fəaliyyətinin xarakteridir. Tolerantlıq şəxsiyyətin hər hansı hadisə və prosesə müdaxilə etmək iradəsi və imkanına baxmayaraq, yaranmış vəziyyətdən sui-istifadə etməməsi – fərdi deyil, cəmiyyətin ümumi mənafe-yinə yönəlik davranış formasıdır.

Məlumdur ki, Qərbdə multikulturalizmin və tolerantlığın iflası mənəvi deqradasiya ilə bağlıdır. Azərbaycanda isə xalqın bəşəri dəyərlərə sədaqətinin nəticəsidir ki, ölkədə milli düşün-cə, multikulturalizm və tolerantlıq siyasəti ziddiyyətə deyil, vəhdətə xidmət edən həyat tərzinə çevrilmişdir. Müasir Azərbaycanda münbit əməkdaşlıq mühitinin yaranmasında XIX-XX əsr maarifçi ziyalıları, xeyriyyəçiləri ilə yanaşı müasir dövr milli düşüncəsinin nümayəndələrinin - ədəbiyyatşünas və filosofların da rolu danılmaz-

dır. Ağayar Şükürov "Müstəqil dövrün fəlsəfəsi və filosofları" kitabında Azərbaycanın müstəqillik dövrünün fəlsəfəsi və nümayəndələri haqqında müfəssəl məlumat vermişdir. [41]

Nəsillər arasındakı varislik əlaqələri bu gün də davam edir. Azərbaycan düşüncə mədəniyyətinin inkişafında fəlsəfi irsə hermenevtik yanaşma təcrübələrindən bəhs edən Arzu Hacıyeva Azərbaycan mütəfəkkirlərinin əsərlərinə zamanın kontekstində baxmağın önəmini xüsusi vurğulayır. Çünki irsi təmsil edən "cansız mətn" çağın tələbləri aspektindən araşdırmaçıda fərqli duyğular yarada bilir. Millətin öndər-lərinin irsinə fəlsəfi yanaşmaq lazımdır ki, mənlik şüuru cilalansın və yeni şəraitdə meydana çıxıb öz sözünü deyə bilsin. Mənlik şüuru yalnız millətin keçdiyi tarixə heyranlıq və qürur hissi deyil, həm də səhvləri və məğlubiyyətləri anlayaraq təhlil etmək, nəticə çıxararkən ədalətli olmaq, "yaralara məlhəm olmağı bacarmaq" düşüncəsidir.

Fəlsəfi düşüncəni əks etdirən hər kitab hikmətdən bir zərrədir. Hikmət zərrələri insan münasibətlərində bağlayıcı rol oynayır. İnsanlar sevgi, diqqət, etimad mühitində xoşbəxt olur, öz hisslərini, daxili dünyalarını başqaları ilə bölüşmək istəyirlər. Xüsusilə də düşüncə əhli, fəlsəfi fikrin mənalarına baş vuran, maddi-mədəni irsdə mənəviyyat adlı xəzinə axtaran, tapıntılarını arındırıb, cilalayıb mahiyyətinə müvafiq yenidən daha geniş auditoriyaya təqdim edən söz sərrafları ilə ünsiy-yətdən gözəl nə ola bilər?

Bizi insan edən ən ümdə məsələlərdən biri məhz düşüncələrin bölüşülməsi, səmimi, mənəvi əlaqələrdir, qarşın-dakına yalnız cavab yox, həm də sual vermək, maraqlanmaq, ünsiyyət həvəsində olmaqdır. Düşüncə mədəniyyətini oluşdu-ran, əqlə naxışlar vuran, fəlsəfi irsə töhfələr verən əsərlər səbrin, səmimiyyətin və ünsiyyət mədəniyyətinin ən gözəl nümunələridir.

[41] Şükürov Ağayar, 2007

Əsərlər müəlliflərinə bənzəyir. Bəzisi dəlisov, odlu-alovlu, digəri pafoslu, iddialı, bir qismi sadə və təvazökar, bir başqası mücərrəd, anlaşılmaz... Eləsi də var ki, dərin, səbatlı və təmkinli, ..., oxucunu darıxdırmır, yormur, gərginləşdirmir, sadəcə düşündürür. Oxuduqca sonuna çatmağa tələsmirsən, fikirlərin düzümündən, axarından, əhatəliyindən, tutumundan, dəlillərindən həzz alırsan. Müdrikliyin himayəsinə düşürsən, rahatlıq və hüzur tapırsan. Dünyanın reallığından, fərqlilikdən, ziddiyyətlərdən qorxmursan, çünki səni anlamağa məcbur etmir, sadəcə düşünməyə: keçmişi və indini müqayisə etməyə, fərqli mövqelər, hadisə və proseslər haqqında fikirləşməyə, bəşəri təcrübədə birgə fəaliyyətə dəvət edir. Bu zaman tarix və məkan hədləri aradan götürülür, insanlar arasında fərqli həyat nümunələri qalır. Bəziləri hədəfi, digərləri gedilən yolu əsas hesab etsə də, həyat hər ikisindən öyrənməyin heç də pis olmadığını göstərir.

Arzu Hacıyevanın hermenevtik təcrübələrdən bəhs edən "Azərbaycan mütəfəkkirləri zamanın kontekstində" əsəri bizi keçmişlə ünsiyyətə, fəlsəfə ilə bədii söhbətə çəkir. Əsər oxucunu sadəcə Azərbəycan mütəfəkkirləri Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov və Üzeyir Hacıbəyovun fikir dünyasına aparmır, həm də hər yeni nəsildə aktuallaşan, zamana müvafiq fərqli tarix yaradan hikmətin dərkinə hermenevtik metodla yanaş-manın əhəmiyyətini izah edir.

Azərbaycan fəlsəfəsində retrospektivlər və perspektivləri nəzərdən keçirməklə başlanan tədqiqat işi fəlsəfə ilə ciddi məşğul olmaq istəyənlərə gözəl nümunədir. Dörd dildə mündəricat, mənbələr və ədəbiyyat siyahısı, dörd dildə xülasə və ad göstəricisinin nəfis tərtibatı kitabdan ilkin elmi informa-siyanı tez və asan almağa kömək edir.

Hermenevtikanın məzmunu, tarix və idrak prosesində rolundan bəhs edərkən görkəmli Şərq və Qərb filosofları ilə yanaşı Heydər Hüseynov və Mübariz Əlizadənin elmi fəaliyyətinə də toxunan müəllif müxtəlif yanaşmaların fərqli ictimai nəticələrə

səbəb olmasını və nəhayətində fərqli düşüncə formalaşdırmasını xüsusi ustalıqla əsaslandırır.[42] O yazır: “Sözün gözəlliyi və pozitivliyi məhz mənaca sonsuz olduğuna görə, fikri hər bir yeni dövrdə təzələməyə qabil olmasında, onu yeni cür anlamağa imkan verməsindədir.”[43]

Ənənəvi və fəlsəfi hermenevtikanın müxtəlif konsepsiya-larını elmi dəlillərlə, bütün xırdalıqlarına qədər şərh edən müəllif oxucu ilə ünsiyyətində eradan əvvəlki mətnlərdən son illərin elmi yeniliklərinə qədər mənimsədiyi zəngin bilik potensialını olduqca səmərəli şəkildə, məharətlə, mövzuya müvafiq istifadə edir.

Əsərdə nəzəri cəlb edən məqamlardan biri Azərbəycan milli təfəkkürünə xas hermenevtik təcrübələrin dünya fəlsəfi sistemində yerini, ümumbəşəri düşüncəyə töhfələrini müəyyən etməkdir. A.Hacıyeva əsərinin qəhrəmanlarını nəzərdə tutaraq yazır: “Mütəfəkkirlər, qüdrətli zəka sahibləri nəinki yaşadıqları dövrün, özlərindən sonrakı dövrlərin fövqündə duran insanlardır. Onların fikir dünyası mürəkkəb, geniş və çoxçalarlıdır. Kəlamları milli zehniyyət və psixologiyanın dərin qatlarına nüfuz edir, gələcəyə işıq salır, ... təfəkkür və xəyalları ümumbəşəri mahiyyət kəsb edir”.

Nəticə etibarilə, millilik universallığın tərkib hissəsi kimi onun struktur elementini təşkil edir. Fərdlər qrupları, qruplar cəmiyyətləri təşkil etdiyi kimi, milli düşüncə toxumlarını cücərdən və yetişdirən mütəfəkkirlərin əsərləri də ümumilikdə düşüncə mədəniyyətini, müasir fəlsəfəni yaradır. Bu mənada Arzu Hacıyeva M.M. Baxtinin hermenevtik tədqiqatların əhəmiyyəti haqqında fikirlərinə şərik olduğunu bildirir: “Ümumiyyətlə, müdriklərin özləri ölsələr də bizə miras qoyub getdikləri sözü yenidən canlandırmaqda, onu yeni nəsillərlə “mənaca sonu olmayan dia-

[42] Hacıyeva Arzu, 2017, səh. 15, 18-20
[43] Hacıyeva Arzu, 2017, səh. 23

loqa girməsinə" yardımçı olmaqda hermenevtika çoxəsrlik zəngin ənənələri ilə böyük perspektivlərə malikdir."[44]

Arzu Hacıyeva xalqımızın varlığı və təfəkkürü, tarixi və mədəniyyətinin əksi olan irsdə yatan saysız-hesabsız gizli mətləblər, mənalar, rəmzlər xəzinəsindən bəhrələnmək üçün hər yeni nəslin onları dinləməyi baçarması, onlar vasitəsilə müasir dövrümüzün suallarına cavab tapması üçün hermenevtikanı açar hesab edir.

Dərk olunan hikmət vəziyyəti, şəraiti və fəaliyyət istiqamətini müəyyən edən faktor kimi daim tarixi öz arxasınca apara bilir. Bu cəhətdən müəllif milli ideyanı mənəvi varlığın substansiyası hesab edir. Xalqın azadlıq və tərəqqisində ana dilinin, həmin dildə maarifin, ədəbiyyatın, mətbuatın, elm və mədəniyyətin inkişafı, milli mənəviyyat və milli özünüdərk məsələlərinin xüsusi yer tutduğunu qeyd edir.[45]

Dil yalnız təfəkkürün deyil, həm də milli ruhun, hiss və emosiyaların nəsildən-nəslə daşınma vasitəsi, fitrətin qorunma üsuludur. Azərbaycanda müasir tədqiqatçıların bəziləri vətəndaşlıq, milli kimlik, dini kimlik, etnos və s., dövlət dili və ana dili anlayışlarını qarşı-qarşıya qoyurlar. Bu çox risqli məsələ-dir. Arzu xanımın tədqiqat işi təsdiq edir ki, qeyd olunan fərqli xüsusiyyətlər insanın şəxsiyyətində birləşir. Cəmiyyətin bütöv-lüyünü qorumaq üçün bu fərqlərə tamın əlamətləri kimi baxmaq, vəhdətdə qəbul etmək lazım gəlir. Çünki bu əlaqə ruh və can, din və dünya kimidir. Ana dili ruhun daşıyıcısı, bədii təfəkkürün mayasıdır.

Arzu Hacıyeva tamamilə haqlı olaraq, fəlsəfənin "təcrübənin bütövlüyünə" qayıdış funksiyasını təqdir edir: "...bədii-fəlsəfi formada yazılan əsər təkcə ağla, təfəkkürə deyil, duyğulara da təsir etməklə şərh olunan predmeti öz bütövlüyündə, daha adek-

[44] Hacıyeva Arzu, 2017, səh. 34
[45] Hacıyeva Arzu, 2017, səh. 154

vat formada təqdim edir. Beləliklə, gerçəkliyin mücərrəd kateqoriyalar vasitəsilə dərk edilməsi ilə yanaşı, əxlaqi-estetik cəhətdən duyulmasına və anlanmasına ehtiyac yaranır."[46] Burada eyni zamanda təcrübənin ehtimallar və ehkamlar haqqında mübahisələrə son qoya bilmək xüsusiyyəti təsdiq olunur.

Əsərdə fəsillər və yarımfəsillərin mövzuları da çox diqqətlə seçilmişdir. Müəllif Nizami Gəncəviyə həsr etdiyi fəsildə mövzulardan birini "Müdrikliyin zirvəsində" (hikməti sevməyin zirvəsində) adlandırırsa, Mirzə Fətəli Axundzadəyə ayrılan fəsildə "Dərvişməslək və bəşəriyyəti sevən insan" mövzusuna, mütəfəkkirin həyatı ilə bağlı reallıq və rəmzlərə diqqət çəkir. O, Mirzə Ələkbər Sabiri Azərbaycan dili və mentalitetinin daşıyıcısı, Şərq müsəlmanlarının fəlsəfi poeziya nümayəndəsi kimi təqdim edirsə, Nəriman Nərimanovu bütpərəslik əleyhinə barışmaz mübariz, Məhəmməd ümmətini, "ən gözəl sözləri" doğrulamağa çalışan, tövhidi anlayan milli ideoloqlardan biri kimi şərh edir.[47]

Müəllif tədqiq etdiyi mütəfəkkirin mövqeyini üzə çıxarmaq üçün əsərlərini diqqətlə incələyir, aydın elmi dəlillər gətirir. "Bəs kilsəni dövlətdən ayırmaq nə deməkdir?" sualına N.Nərimanovun cavabı dövlət və din mövzusuna aid mübahi-sələrə son qoymaq məqsədi daşıyır: "Bu ancaq o deməkdir ki, kilsəni, dini dövlətin təsirindən azad etmək lazımdır. Bu o deməkdir ki, ruhanilər: mollalar, keşişlər kənardan heç bir təsir olmadan dini, şəriəti təbliğ etsinlər. Kilsəni dövlətə tabe etmək mollalara, keşişlərə pul, qızıl, vəzifə, rütbə verib satılmaz və alınmaz əsl dinin tələblərini deyil, dövlətə lazım olan şeyləri təbliğ etməyə məcbur etmək deməkdir. Din, iman azad olmalıdır. İman şəxsi bir işdir, onu satmaq və almaq olmaz, zorla bir adamı bir dinə gətirmək olmaz."[48]

[46] Hacıyeva Arzu, 2017, səh. 125
[47] Hacıyeva Arzu, 2017, səh. 227-228
[48] Nərimanov Nəriman, 1971, səh. 199

Rusiya Xalq Komissarları Soveti tərəfindən 23 yanvar 1918-ci il tarixində "Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında" dekretin qəbul edilməsi ilə İslamın mahiyyətini ifadə edən "Dində məcburiyyət yoxdur"[49] prinsipi arasında ziddiyyət görməyən N.Nərimanov müvafiq qərarın ictimai qaydada dəstəklənməsini münasib hesab edirdi. Bir zamanlar əqidəni, iradəni, azad düşüncəni dövlətin qanun-vericiliik sisteminə alət etməmək istiqamətində atılan addım kimi qiymətləndirən N.Nərimanovun işıqlı düşüncələrinə rəğmən, məsələni hələ də əksinə qəbul edən müasirlərimiz vardır. Çağımızı "son yüzillikdə bütlər, görünür, azalmamışdır" deyə tənqid edən müəlliflə razılaşmamaq mümkün deyildir. Hazırda pulla yanaşı elm, texnologiya, millətçilik, seksuallıq və s. meyllərin səcdə obyektinə çevrilməsi yalnız müasirliklə əlaqəli olmayıb, həm də qnoseoloji problemdir. Belə ki, bəşə-riyyət mənəvi dəyərlərə laqeyd münasibətindən yaranan bənzər sosial-psixoloji anomaliyaları keçmiş zamanlarda da təkrar-təkrar yaşamışdır.

Problemin kökü - seçilən (maddi, mənəvi) hədəflərdə və məsələyə yanaşmanın ruhi-emosional xarakterindədir. Cəmiy-yətdəki bütün bəlaların səbəbini "pulun çoxluğu və ya çatış-mazlığı" ilə əlaqələndirən Aqata Kristinin aforizminə rəğbətlə yanaşı, problemin səbəbini obyektin funksiyasının subyektiv dərki ilə də izah etmək olar. Bu halda obyekt (pul) və subyekt (insan) anlayışlarının həyati funksiyalarının bəzən doğru dərk olunmaması və məntiqi məzmunlarının qarışdırılması məsə-lənin məğzini anlamağı çətinləşdirir. Beləliklə pulun (mübadilə vahidi) və insanın (məhsuldar qüvvə) həqiqi funksiyasının dərk olunmaması, ya da bilərəkdən subyektiv şəkildə, insanın özü tərəfindən dəyişdirilməsi düşüncələri qarışdırır, ictimai şüuru dolaşdırır. İdrak

[49] "Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir." (Quran, 2/256).

obyektini yanlış qavrama səbəbindən hətta "Adamı adam edən puldur", "Qadına qulaq as, əksini et", "Qızını döyməyən, dizini döyər" "Uzun saçlının ağlı topuğunda olar" və s. kimi absurd aforizmlər belə yarana bilir.

Subyekt tərəfindən obyektin funksiyasının düzgün dərki insanların təhsili və tərbiyəsi, ağlı və əqidəsi, ictimai şüurun inkişafı və cəmiyyətdəki fəlsəfi təfəkkürlə əlaqədardır. VII əsrdə nazil olan Qurani-kərimin qadın haqlarını müdafiə edən surə və ayələrini görməzdən gələn cahil cəmiyyətin içində yaşamalarına rəğmən N.Nərimanov Z. Tağıyev, A. Axundzadə və başqalarının fərqli, demokratik, mütərəqqi düşüncələrinin əsasında elmi obyektivlik, dürüstlük və hikmətsevərlik keyfiyyətləri dururdu.

Milli-mənəvi dəyərlərə, eləcə də İslama yanaşma fərqlə-rinin ictimai nəticələrini Nərimanov, Hegel, Volter və Tolsto-yun düşüncələrinin müqayisəsində izah edən Arzu Hacıyevanın hermenevtik tədqiqatlarında elmi obyektivlik özünü daha qabarıq göstərir.

"Azərbaycan mütəfəkkirləri zamanın konteksində" əsəri müasir dövrdə dini dünya ilə qarşı-qarşıya qoymaq meyllərinə sadə, aydın, elmi cavablar mənbəyidir. Əsərin Üzeyir Haçıbəyova həsr olunan fəslində "muğam hermenevtikası", "metamorfozlar" və "publisistika"dan bəhs olunması məhz dinin dünyaya təsiri və bu təsirdə insanın qavramaq, anlamaq və məntiq funksiyasının ictimai əhəmiyyəti əks olunmuşdur. Üzeyir Hacıbəyov öz mühitinin fövqündə duran qəhrəmanlar, ölməz musiqi nümunələri yaratmaqla ilahi hikmətin düşüncə, dinin həyatla ahəngdar vəhdətini ifadə etməyə nail olmuşdur. Əsərdə diqqət cəlb edən bu və digər nümunələr doğru anlamın doğru fəaliyyətlərə səbəb olmasını göstərir. Buradan belə nəticəyə gəlmək olur ki, subyektiv düşüncənin obyektə adekvatlığı tərəqqiyə, qeyri-adekvatlığı yanlış interpretasiya-lara, mənəviyyatsızlığa, psevdoelmə yol açır.

Arzu Hacıyeva tədqiqat işində sözün, nitqin təfəkkürdə yerinə və roluna xüsusi diqqət ayırmışdır. O, sözün kəsərindən bəhs

edərkən, Mirzə Ələkbər Sabir yaradıcılığından nümunələr gətirir. Bu təsadüfi deyildir. Sözə münasibətdə Füzuli ənənəsini davam etdirən M.Ə.Sabirin şeirlərində nitq idrakın, şüurun ifadəsi olmaqla yanaşı, insan nəslini yetişdirən, bəşəriyyətin əqli qabiliyyətini, hünərini müəyyən edən hadisə kimi təsvir olunur:

"Sən aləmi-əkbəri-xudasən,
Sən ayineyi-cəhannümasən."
"Səndə yaradıb bədi i-əflak
Əqlü hünərü, şüurü idrak." [50]

Və yaxud:

"Növ i-bəşərə tərbiyəbəxş olduğun üçün –
Gər densə sənadır sənə ümmül-ədəbiyyat."[51]

Ana körpəni tərbiyə edib böyütdüyü kimi, sözlər də məqamına və sərrastığına müvafiq ədəbiyyat yaradır. Bu mənada ədəbiyyat sözdən ana tərbiyəsi alır. İctimai həyatda düşüncənin tarixə yansıması söz vasitəsilə həyata keçir. Söz mənəvidən maddiyə və əksinə keçidi təşkil edir. Azərbaycanın varlığının bütün xüsusiyyət və təzahürləri dilimizdəki sözlərdə kodlaşmışdır. "Milli mentalitetimizin ən güclü daşıyıcısı söz-lərdə yaşayan milli dildir."[52] Bu dili qorumaq və gələcək nəsil-lərə öz dərin məzmunu ilə çatdırmaq vəzifəsi sözün dərkindən keçir. Arzu Hacıyevanın "Azərbaycan mütəfəkkirləri zamanın kontekstində" əsəri yuxarıda qeyd olunan məziyyətlər baxımından nəsillər arasında varislik əlaqəsinin ən yaxşı nümunələrindən biridir. Milli dilimizin, söz xəzinəmizin özünəməxsusluğunu, bədiiliyini və

[50] Hacıyeva Arzu, 2017, səh. 104
[51] Sabir M.Ə. 2004, səh. 53
[52] Hacıyeva Arzu, 2017, səh. 100

təkrarsızlığını qoruyub saxlayan, onu vaxtında, məqamında yaddaşlara qaytaran, zamanın kontekstində gələcək nəsillərə ərməğan edən fəlsəfi əsərlərdə milli kimlik, yeni düşüncə mədəniyyəti təzahür edir.

Azərbəycanda fəlsəfə, siyasət və xalqın həyat tərzi arasında mütənasiblik vardır. Fəlsəfənin ideologiya ilə harmo-niyası insanların mədəni inkişafında öz təsirini göstərir. Cəmiyyətin ictimai şüurunun yüksəlişi, xalqın həyata baxışının nikbinliyi ümumi dünyagörüşün xarakterinə təsir edərək, sabit, güvənilən milli platforma yaradır. Nəticədə Azərbəycanın dünyaya inteqrasiya prosesləri mənəvi deqradasiyadan qoru-naraq, milli mənəvi dəyərlərin yayılması istiqamətində daha da inkişaf edir.

Psixologiyada, eləcə də, insanın sosial-bioloji fitrətini araşdıran elm sahələrinin əksəriyyətində ruhi-intellektual düşüncənin sağlamlığı məsələsi, ümumiyyətlə ən aktual problemdir. Belə ki, insan təbiətində gözəl əxlaqın, tolerant münasibətin mövcudluğu həyat tərzində harmonik nizamın formalaşmasına vəsilədir.

Azərbəycan əhalisinin əksəriyyəti İslam dininə ibadət edir. İslamın mənbəyi Quranda iman və ibadətin vəhdətinə xüsusi önəm verilir ki, bu xüsusiyyət insanda davamlı zikir, fikir, şükür vərdişi formalaşdırır. Zikir varlığın təsdiqi, fikir varlığın tədqiqi, şükür varlığın dəyərini bilmək və ona müvafiq davranmaqdır. Yalnız elmli - Allahın yaratdıqlarından məqsə-dini anlayan insanlar cəmiyyətdəki nizamı və harmoniyanı saxlamaq zehniyyətinə sahibdirlər. Məhz imanlı insan fitrətin-dəki dörd ünsürü: ağıl, iradə, qəzəb və şəhvətini bəşəriyyətin xeyrinə - təbiət, cəmiyyət və idrakın mühafizəsi istiqamətində nizamlaya, həyatını ləyaqətlə yaşaya bilər. Ləyaqət insanın yaradılış mahiyyətinə layiq olmaqdır. Ləyaqət hissi insanın öz mənşəyinə, mənəvi dəyərlərinə hörmət hissindən qaynaqlanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik" bəyanını şərh

edən İ.R.Məmmədzadə qeyd edir ki, “Əslində, Prezidenti-mizin bu sözlərində həm dərin məna var, həm də müstəqil dövlətimizin dərin, çoxmənalı fəlsəfəsi öz əksini tapıb. Düzdür, bu gün dünyada təxminən 200 müstəqil dövlət vardır, lakin, əlbəttə, heç də onların hamısı müstəqillik fəlsəfəsinə malik deyil. Çoxu yalnız başqa dövlətlərin təsiri altındadır... Azər-baycan hakimiyyət və cəmiyyəti birləşdirən, milli dəyərlərin inkişafına xidmət edən, birlik və vətənpərvərlik üçün bizdə məsuliyyət yaradan güclü ideologiyaya malikdir. Onun mərkə-zində ümummilli lider Heydər Əliyevin mənəvi irsi yerləşir. Heydər Əliyevin mənəvi irsi bir çox tanınmış alim və mütəfəkkirlər tərəfindən öyrənilir.”[53]

Heydər Əliyevin milli-mənəvi irsə münasibəti cəmiyyətə məlumdur. Məhz onun Allaha inamı, ləyaqətli həyatı və bəşəriyyətə xidmət edən şüurlu fəaliyyəti nəticəsində Azərbaycan yenidən müstəqilliyə qovuşdu və beynəlxalq aləmdə tanındı. İlham Məmmədzadə H.Əliyev irsinin əhəmiyyətini yalnız hüquqi Azərbəycan dövləti və demokra-tiyasını, çoxvektorlu xarici siyasəti, güclü sosial siyasətin inkişafını müəyyən etməsində deyil, həm də məsələnin kontekstində mühüm olan digər cəhətdə, hər şeydən əvvəl, ölkə ideologiyasını formalaşdırmasında, maarifləndirilmiş vətənpər-vərliyin, humanizm və mənəvi amillərin, tolerantlıq prinsipinin etirafında görür. İ.R. Məmmədzadənin cəmiyyətə müraciətində böyük həqiqət vardır: “Ölkə üçün azadlıq qazananlar dərk etməlidirlər ki, bundan sonra onu inkişaf etdirmək lazımdır. Müstəqillik müdrik, mərd, cəsarətli və intizamlı insanlara nəsib olur.”[54]

Tarix, ictimai proseslərin gedişi zaman və məkan anlayışları ilə, habelə hərəkətverici qüvvələrin mahiyyəti və məzmunu ilə sıx bağlıdır. Bu və digər amillər ictimai-tarixi proseslərin yetişməsi və təşəkkülünü, inkişaf və tənəzzülünü gerçəkləşdirir. Keçmişi

[53] Məmmədzadə İlham, 2016.
[54] Məmmədzadə İlham, 2016.

araşdırmadan, gələcəyə getmək çətin-dir. Natamamlıq duyğusu düşüncədən başlayır. Əgər insan dünya maraqlarına, yaxud zənnə, psixo-emosional hallara qapılaraq ilahi hikmətdən üz çevirirsə, nəticələrini də tezliklə görür. Bir çox hallarda yeridilən qeyri-milli, formal siyasətlər öz acı nəticələrini çox da gecikdirmir.

Hakimiyyətdəki ideoloji boşluq cəmiyyətin siyasi və milli iflasını reallaşdırmaqla yanaşı, dövlətciliyin əsas hərəkət-verici qüvvəsinin müəyyənləşdirilməsi problemini də aktual edir. Keçmişin dərsləri gələcəyə yol göstərir. Ona görə də, irəli gedərkən dini-mənəvi-intellektual bağı əldən vermək olmaz. Fəlsəfə və mənlik şüuru arasında qarşılıqlı təsir mövcuddur. Bu əlaqənin möhkəmliyi həyata yansıdıqda müsbət nəzəri-praktik nəticələr verir.

Bilgə Kağanın (673-732) "Ey türk oğuz bəyləri! Türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz türk ulusu, özünə dön!.."[55]kəlmələrinin unudulduğu, dünyada sonuncu türk dövlətinin də çökmək üzrə olduğu bir zamanda türkləri hansı ideya dirçəltdi, yenidən öz ruhuna, milli mənsubiyyətinə qaytara bildi? Bu məqamı öyrənmək, başa düşmək, mənimsəmək və gələcəyə götürmək həyatımızın "olmazsa olmaz"larındandır.

Diqqətə alınmalı problemlərdən biri də daxili milli birliyi təmin edərkən, xarici qüvvələrin müdaxilə ehtimalını nəzərdən qaçırmaqdır. Təəssüf ki, dil, din, mədəniyyət və ərazi yaxınlığı dövlətçilik idealları üçün kifayət deyildir. Cəmi 23 ay davam edən (28 may 1918 - 28 aprel 1920) Azərbaycan Cumhu-riyyəti[56] və cəmi 12 ay davam edən (12 dekabr 1945 – 12 dekabr 1946) Azər-

[55] Göyalp Ziya, 2010, səh. 3
[56] Azərbaycan Cumhuriyyəti, 1998, səh. 304-328.

baycan Milli Hökumətinin[57] (Güney Azərbaycan) aqibəti millətimiz üçün tarixi dərsdir. AXC kimi AMH də xarici imperializmin birbaşa siyasi, maddi və hərbi dəstəyi ilə devrilmişdir.

İngilis siyasi alətinə çevrilən İran fars rejimi 12 dekabr 1946-cı ildə qardaş qırğınından çəkinmədən AMH-ni devirmiş Güney Azərbaycanı qan dəryasına çevirmişdi. Azərbaycanın 25 min nəfərdən çox demokrat və milli qüvvələrinin nümayəndələri güllələnmiş, edam olunmuş, mütərəqqi və demokratik ruhlu insanlar amansız təqibə məruz qalmış, minlərlə vətəndaş zindana salınmış, 100 mindən çox adam sürgün edilmişdi.

Deməli Türk dünyasının dirçəliş məqamlarında nəşət edən: din və dil yaxınlığı, milli-mədəni yaxınlıq və strateji maraqlara söykənən ərazi yaxınlığı hələ məsələnin həlli demək deyildir. Daxildə öz müqəddəratını həll etməyə qadir olan millət xarici müdaxiləyə qarşı mübarizəyə də hazır olmalı: hücumda müdafiəni, müdafiədə hücum imkanınını nəzərdə tutmalıdır. "Dədə Qorqud" dastanında deyildiyi kimi, torpağı qorumayacaqsansa, əkib-becərməyinə dəyməz, əkib-becər-məyəcəksənsə, qorumağına dəyməz. Məhz hikmətə, milli-mənəvi dəyərlərə doğru münasibət fərdlərin mənlik şüurunu qüvvətləndirir.

## 1.5.Milli birlik və Qafqaz körpüsü ideyası

Əli bəy Hüseynzadə 1906-cı ildə "Kuhi-qaf və simurq" məqaləsində Qafqazda Azərbəycanın varlığına diqqət çəkərək yazırdı: "Qafqaz Asiya ilə Avropa arasında bir körpüdür, Bakı Avropanın Asiyaya olan qapılarından biridir… Belə bir məkanda həm də dünyanın ruhən və cismən ən gözəl xalqı yaşayır və irqi-Qafqaziyyə mənsubiyyəti ilə fəxr edirlər. Bəs ərəblərin "Huristan" adlandırdıqları bir məkanın azadlığı niyə olmasın?"[58] Bu

[57] George Lenczowski, 1972, p. 49.
[58] Hüseynzadə Əli bəy, 2007, səh. 141

sual Azərbəycan səmasında şimşək kimi çaxdı, azadlıq eşqi ilə dolu buludları sıxdı, sıxdı...

Əli bəyə görə ruh və fikir gözəlliyinin əlaməti azadlıqdır. O yazır: "Şən, namus və tar, heysiyyət, istiqamət, şücaət, həmiyyət, qeyrət, rüfət, nəcabət kimi sifətlərin cümləsi hürriyətdən, azadlıqdan törər. Bu sifətlər ruhda olduqca insanın simasına inikas edər… Bəncə Qafqaz türkləri ətrakın ən hürriyətpərəstidir."[59] Lakin hürriyətpərəstlik məsələnin bir tərəfidir. Əsas məsələ onların birliyini gerçəkləşdirəcək və gələcəyə aparacaq vahid məfkurənin olması idi.

Əli bəy Qaf dağına zəncirlənmiş və ciyəri qaraquş tərəfindən yeyilən, lakin vüqarını itirməyən Prometeyi Azərbəycanlılara bənzədirdi. Prometeyin ciyərini parçalasalar da onun azadlıq hissini məhv edə bilmədikləri kimi, Azərbəycanlıları da əsarətdə saxlamaq olmazdı. Əli bəy Hüseynzadə Prometeyi xilas edən Heraklla Zal oğlu Rüstəmin köməyinə çatan Simurq quşunu müqayisə edir və bildirir ki, bu əfsanələr əbəs deyildir. Təbiətlə cəmiyyət arasında harmoniya vardır. Qartallar yurdunun insanları da ucalıqda pərvəriş tapırlar və aləmin istibdad və bidad altında inləyən qismini əsarətdən xilas etmək xüsusunda ən böyük rol oynayacaqdır![60] Nə qədər böyük özgüvən, nikbinlik və uzaqgörənlik!..

...Qafqazda yaşayan yüzdən artıq xalq və tayfa milli, dini və dil fərqlərinə baxmayaraq, əsrlər boyu sülh və qardaşlıq münasibətlərini qoruyub saxlaya bilmişdilər. Lakin ermənilər 1890-cı ildə şovinist "Daşnaksütyun" partiyasını yaradaraq saxta "Böyük Ermənistan" ideyasını reallaşdırmağa başlayan andan əvvəlcə yaşadıqları Osmanlı dövlətinin, sonra isə gəldikləri Azərbəycan ərazilərinin asayişini pozdular.

Məlum olduğu kimi sultan Əbdülhəmidin humanist münasibətindən sui-istifadə edən ermənilər 1890-cı ildə "Daşnaksütyun"

---

[59] Hüseynzadə Əli bəy, 2007, səh. 141-142

[60] Hüseynzadə Əli bəy, 2007, səh. 143

və "Qnçak" partiyalarını yaratmış, Türkiyənin Qars, Van, Ərzurum, Xarput, Diyarbakır, Bitlis, Sivas, Adana və Kilikiyanın cənub vılayətlərində yerli türk əhalini məhv etmək, qovub çıxarmaq üçün zor gücünə, silahlı basqın və vəhşi qırğınlar hesabına "Böyük Ermənistan" yaratmaq iddiasına düşmüşdülər. "Qəsbkar siyasətlərinə və azğın hərəkətlərinə görə 1896-cı ildə Türkiyədən qovulan ermənilər Azərbaycandakı 54 qəzadan yalnız beşində məskunlaşma-larına" [61] baxmayaraq, nəyin bahasına olursa, olsun "Böyük Ermənistan" planlarını həyata keçirməyə başladılar.

Erməni gəlmələr Osmanlı dövlətindəki məğlubiyyətlə-rinin acısını Azərbəycandakı türklərdən – azərbaycanlılardan çıxır, rus məmurlarının himayədarlığı sayəsində İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda müsəlman əhalini öldürür, təsərrüfatlarına ziyan vurur, torpaqlarından çıxarır, nəyin hesabına olursa olsun məqsədlərinə çatmağa çalışırdılar. Nikolay hökuməti isə Qafqazda böyük qüvvə olan türklərin əleyhinə "kütbeyin övladları"nın ağlasığmaz hərəkətlərinə göz yumurdu. "Rus əsgərləri, polislər və jandarmlar türklərin qırılmasını kənardan seyr edirdilər. Elə ki, ermənilər türklər tərəfindən sıxışdırılırdı, başlayırdılar onlara kömək etməyə..."[62] Rəsmi mənbələrə görə Rusiya ilk olaraq Şərqi Anadolu və İranda yaşayan 70 min ermənini 20 il müddətinə vergidən azad olmaqla Cənubi Qafqaza, yəni indiki Azərbəycana yerləşdirmişdi. 1914-cü ilə qədərki məlumatlara görə Naxçıvan, İrəvan, Qarabağ, Gəncə və Bakı ətrafına köçürülən ermənilərin sayı 1 milyonu keçmiş-di.[63]

Hadisə və proseslərin gedişi qəti tədbirlər görməyi tələb edirdi. Azərbəycanlıları qırğınlardan qorumaq üçün 1905-ci ildə Bakıda Əhməd Ağaoğlunun rəhbərlik etdiyi "Difai" ("Müdafiəçi") partiyası yaradıldı.

---

[61] Baykara Hüseyn, 1992, səh. 120
[62] Baykara Hüseyn, 1992, səh. 123
[63] Görüryılmaz Mustafa, 2009, səh. 15-16

Azərbəycançılığa gedən yolda növbəti addım 8 aprel 1905-ci ildə Peterburqda Rəşid əfəndinin evində kiçik bir heyətlə baş tutan "Rusiya müsəlmanları ittifaqı"nın birinci qurultayı olmuşdur. İkinci qurultay 22 yanvar 1906-cı ildə Peterburqda Həsən Həbibullanın evində iki yüz nəfərin iştirakı ilə davam etmişdi. Avqustun 15-də Nijni Novqorodda kirayə tutulmuş gəmidə 13 saat davam edən və daha artıq nümayən-dənin qatıldığı "Rusiya Müsəlmanları İttifaqının" üçüncü qurultayında artıq "Xalq Partiyasının Proqramı" qəbul edilmişdi. Rusiyanın müxtəlif ərazi nümayəndəliklərindən təqdim olunmuş 7 proqram layihəsi Kazanda davam etdirilən həmin qurultayda müzakirə olunmuş və Əlimərdan bəy Topçubaşovun 79 maddədən ibarət proqram layihəsi qəbul olunmuşdu.[64]

Proqramda siyasi məqsədlər, əhalinin hüququ, dövlət quruluşu, dini qaydalar, məhəlli muxtariyyət, məhkəmə, maarif, maliyyə işləri, torpaq məsələsi, qadınların seçki hüququ kimi aktual məsələlər öz əksini tapmışdı.

Rusiya müsəlmanları ittifaqının əsas simalarından biri olan Əli bəy Hüseynzadə milli birlik naminə müxtəlif təklif-lərlə çıxış edirdi. Onun ictimai mövqeyini və araşdırmalarının əhatə dairəsini qələmə aldığı yazıların mövzusunda aydın görmək olur. O, "Türklər kimdir və kimlərdən ibarətdir" "Ramazanül-mübarək və hürriyyət" "Milliyyət və insaniyyət", "Müxtəlif bəhanələrlə adam öldürmək", "Həyat və meyli-füyuzat", "Vəqayeyi-aləmə bir nəzər", "Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar", "Siyasəti-fürusət", "Nicat məhəb-bətdədir!" və s. məqalələrində siyasi güc və nüfuzu millətin ayaqda durması üçün əsas amil hesab edirdi. Bunun üçün tərəqqi, tərəqqi üçün isə xalqın birliyi lazım idi.

Əli bəy Hüseynzadə rəhbəri olduğu "İttihad və tərəqqi" firqəsinin strategiyasında silaha deyil, siyasətə, sözün gücünə, mə-

[64] Baykara Hüseyn, 1992, səh. 146

dəniyyətə və maarifə, ədalətə və qanunlara güvənilməsinin önəmini ifadə edir və nizam-intizamlı idarə üsulunun vacib-liyini xüsusi olaraq vurğulayırdı. O, mədəniyyət, sivilizasiya, ictimai-iqtisadi formasiyalar mövzusunu şərh edərkən öz mülahizələrini belə açıqlayırdı: "Tarixi dövrlərə təqsim üçün vəhşət və heyvaniyyət ilə mədəniyyət və insaniyyətdən daha mətin əsas olamaz! İnsaniyyəti heyvaniyyətdən, mədəniyyəti vəhşətdən təfriq edəcək bir əlamət varsa, o da qətl və qitalın, xunxarlığın və xunrizligin ortadan rəf olmasıdır... İstanbul fəth edildi, Amerika kəşf olundu, müqatilə, səfkidəmə xitam buldumu, bəşəriyyət heyvanlıqdan xilas oldumu? Əsla!.. Vəhşətində, heyvaniyyətində bu günə qədər israr edib durmuşdur!.."[65] Görkəmli dövlət xadiminin mütərəqqi məqsəd və məramı real vəziyyətə yanaşmada olduqca humanist təsir bağışlayır. Şovinist, radikal rus-erməni təcavüzkarlığına qarşı mübarizədə Azərbaycanın sülhsevər və humanist münasibəti kimi... Əslində fövqəladə vəziyyətlər problemə adekvat - radikal yanaşmalar tələb edir.

Əli bəy Hüseynzadənin ictimai görüşləri sülhsevər, tolerant, multikultural azərbaycanlı dünyagörüşündən qaynaq-lanır. Təsadüfi deyil ki, millətimiz bənzər tarixi situasiyalarda hadisə və proseslərə ilk növbədə ənənəvi mövqeyindən yanaşır. Qarı düşməndən insaf, mərifət ummaq ağlasığmazdır. Zaman göstərir ki, təcavüzkara qarşı mübarizədə yüksək humanizm nümayişi hər dəfə millətimizə ağır qurbanlar hesabına başa gəlir. XIX-XX əsrlərdə Azərbaycan ərazilərinin 80%-nin işğalı bizim tətikdə, ayıq-sayıq olmamağımız və təcavüzkara adekvat cavabın gecikdirilməsi ilə əlaqədardır.

XX əsrin əvvəllərində qədim Azərbaycan ərazilərində Rusiya bolşeviklərinin xəyanəti sayəsində süni olaraq yaradılan "Ermənistan dövləti"inin əsrin sonlarına yaxın M.S.Qorbaçov və B.N.Yeltsinin dəstəyi ilə Azərbəycandan daha 20% torpaq qoparması da eyni

[65] Hüseynzadə Əli bəy, 2007, səh. 137-138

səbəbdən qaynaqlanır. Göyçədən və Zəngəzurdan türk-müsəlman (azərbaycanlı) əhalinin zorla çıxarılması Qarabağda azərbaycanlıların kütləvi məhvi, Xocalı soyqırımı sivil dünyanın, beynəlxalq təşkilatların gözü qarşısında baş vermişdir. İsrail-Fələstin sərhəddində, Yəməndə, İraqda, Suriyada səngimək bilməyən müharibələr, Aralıq dənizi ilə Avropaya üz tutan, nicat arayan minlərlə qaçqının davam edən faciəsi BMT-ni maraqlandırmır. Bəşəri məhrumiyyətlər idarəçilərin maddi və mənəvi, xeyir və şər, dünya və axirət, bəşəri və şeytani maraqlar arasındakı seçim tərəddüdlərinin nəticəsidir. Belə vəziyyətlər üçün atalar doğru demişlər: "Yalvarmaqla donuz darıdan çıxmaz."[66] Hadisə və proseslərə müvafiq münasibət olmalı, cinayət əməli cəzasını almalıdır.

Ötən əsrin əvvəllərində Əli bəy Hüseynzadə şəraitdən asılı olaraq çıxış yolunu gah inqilab, gah da təkamüldə görürdü.[67] Lakin düşüncəni dəyişmədən vəziyyətin dəyişəcə-yini gözləmək nə dərəcədə doğrudur? Klassik metodların birini  və ya bir-neçəsini seçmək, yaxud yeni yanaşma və hərəkətverici qüvvələrin axtarılması, hücum və ya müdafiə taktikası, ya da hər ikisinin birgə tətbiqi haqqında fikirləri nəzərə almaq lazım gəlir.

Əli bəy Hüseynzadə Türk dövlətçiliyindəki ideoloji boşluqları görür və insanların düşüncəsində inqilab yaratmaq istəyirdi: "... Fədai lazımdır, fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai!.."[68] O, bəzən də təkamülün tərəfdarı kimi çıxış edərək yazırdı:

"Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, öl-

---

[66] https://www.sozler.im/q/3ENH/yalvarmaqla-donuz-daridan-cixmaz
[67] Hüseynzadə Əli bəy, 2007,  səh. 440
[68] Hüseynzadə Əli bəy, 2007,  səh. 252

kəmiz onların beyinlərini həzm etsin. Yoxsa mədələrində həzm olunmasın."[69] Əslində avropalıları hərəkətə gətirən və inkişafa təhrik edən xüsusiyyət onların boğazları, doymayan mədələri və tükənməz tamahlarıdır. Həyat uğrunda mübarizədə onları tanıdan bu zəif bəndi nəzərə almaq çox vacibdir.

Əli bəy Hüseynzadəni daha çox narahat edən məsələlər millətin bəzi hallarda ayıq-sayıq olmaması,ləngliyi, zamanın nəbzini tuta bilməməsi, öz dəyərlərinə sahib çıxmaması, istedadına müvafiq davranmaması, şəraiti nəzərə almaması və s. idi.

Məqalələrindən birində Ə.Hüseynzadə təəssüfünə yumor qataraq yazırdı: "...Tiflisdə də bomba partladı, Bakıda isə altmışa qədər bomba partlamadan zabitiyyə tərəfindən tutulub müsadirə oluna bildi... Demək ki, bizim Bakı cəmaəti dəxi bombalar üzərində oturuyormuş..."[70]

Əli bəy Hüseynzadənin XX əsrdə qələmə aldığı mədəniyyət və tərəqqi haqqındakı mülahizələr bu gün – qloballaşma və mədəniyyətlərin inteqrasiyası şəraitində türk xalqlarına öz hərəkətverici qüvvələrini təyin etməkdə müəyyən istiqamət verir. O, birlik haqqında düşünərkən tarixi şərait, ərazi, əqidə və milli amilləri nəzərə almağın vacibliyini diqqətə çəkir, azadlıq mübarizəsində türk xalqlarını Qərbə, Avropalı-lara deyil, məhz özlərinə arxalanmağa çağırırdı. Ə. Hüseynzadə yazırdı: "Nə ingilis məmləkətində, nə də Fransada, Avstriya və Germaniyada İran və Türkiyəyi oyandıracaq bir hürriyyət ədəbiyyatı hüsula gəlmədi və gələməz də… İsveçrənin sizə biganə olan soyuq alplarından, Misirin lal və samit olan ehramlarından, hətta Avropanın mərakizi qeylü-qalından imdad gözləməyərək, oralardan səsinizi, fəryad və fəqanınızı vətənə eşitdirəməzsiniz. Oralarda sizi kimsə himayə edəməz! Gəliniz, gəliniz Qafqaza, Simurğun qanadları altına!.."[71]

[69] Hüseynzadə Əli bəy, 2007, səh. 265
[70] Hüseynzadə Əli bəy, 2007, səh. 158.
[71] Hüseynzadə Əli bəy, 2007, səh. 144.

Onun fikirləri biliyin, Avropa dəyərlərindən bəhrələn-məyin əleyhinə deyildi. Əli bəy Hüseynzadə millətin kimə və nəyə etimad etməsi problemini çözməyə çalışır, müsəlmanların çəkdiyi zillətlərin səbəblərini aydınlaşdırır, "yeni türklərin zəlalətlərini" aşağıdakı kimi sıralayırdı:

"Bunları hər vəqt yanıldan üç məsələdir: məsələlərin birisi sünniliyi, şiəliyi ayrı-ayrı şey hesab edib islamiyyəti həqqilə anlamamalarıdır, ikincisi xilafət bəhsini islamiyyətlə qarışdırıb aləmi-islama mənafei-xilafət nöqteyi-nəzərindən baxmalarıdır, üçüncü məsələ isə sülalə bəhsidir..."[72]

Məzhəb ayrılığı üzündən birləşə bilməyərək mübahisə edən müsəlmanlara Əli bəy Hüseynzadə irsindən maraqlı bir cavab vardır: "...imam-əzəm Əbu Hənifə həzrətləri o cənabın (İmam Cəfəri-Sadiq) şagirdlərindən olub həlqeyi-tədris və təlimlərində bulunmuşlardı... İmam əzəmin tutduğu təriq İmam Cəfəri-Sadiqin göstərdiyi yoldan başqa bir şey deyildir... bizlərə ittihad üçün ayrı bir təriq aramaq əbəsdir, zənn edəriz..."[73] Bu qeydlər Ə.Hüseynzadənin 1907-ci ildə "Füyuzat" jurnalının 15-ci nömrəsində İslam peyğəmbərinə həsr etdiyi "Mövludi-nəbi" məqaləsindən götürülmüşdür. Tamamilə haqlıdır. İmam Cəfəri-Sadiq həzrətləri Muhamməd əleyhissəlamın yoluna sadiq olduğundan bu ismi almışdır. Deməli, kitabı Quran, peyğəmbəri Muhamməd olan bir millətin ittihad yolu Allahın dini İslamdır. İslam bu gün Azərbaycanda hətta dildən daha çox birləşdirici amil kimi çıxış edir və dövlətçilik ideologiyasının üç təməlindən biri olaraq qalır.

Əli bəy Hüseynzadənin Avropaya nisbətən Rusiya haqqında fərqli düşüncəsinin əsasında duran səbəb doğmalıq əndişəsi, ortaq dil və dinə sahib türk soylu millətlərin ortaq maraqları idi. O yazırdı: "Rusiya ölkəsində hürriyyət sayəsində bir millət tərəqqiyə başlayır ki, onun dili Türkiyə və İran xalqına biganə deyildir.

[72] Hüseynzadə Əli bəy, 2007, səh. 159

[73] Hüseynzadə Əli bəy, 2007, səh. 238.

Bu millət Kazandan, Ufadan Səmərqəndə, Mavərayi-Baykaldan Krıma qədər müntəşir olan türk və tatar əqvamıdır."[74]

Cumhuriyyət qurucularının fikirlərinə əhəmiyyət verən Milli lider Heydər Əliyevin idarəçiliyi dövründə Azərbaycanın Rusiya ilə əlaqələrinə xüsusi önəm verilmiş, orada yaşayan azərbaycanlıların, digər türkdilli xalqların və hər iki ölkədə ortaq dəyərləri paylaşan bütün əhalinin mənafeyi naminə əməkdaşlıq hər vasitə ilə qorunub saxlanılmışdır.

Əli bəy Hüseynzadə Azərbaycan və Rusiya ziyalılarının azadlıq ideyalarını İran və Türkiyəni ağuşuna alacaq selin məcraları hesab edirdi. "Bu selin də məcrası bilaşəkk və şübhə bu iki məmləkətə Qafqaz bərzəxi olacaqdır!.. İştə, görünür ki, Qafqaz hürriyyəti-aləmin tarixində mühüm rollar oynaya-caqdır. Bu rolların da ən böyügü Qafqaz və Azərbəycan türklərinə aiddir."[75]

Maraqlı burasıdır ki, Əli bəy Hüseynzadə hələ 1906-1907-ci illərdə yazdığı məqalələrində Türkiyənin demokratik inkişaf yolu tutacağını və İran inqilabının labüdlüyünü bütün təfərrüatı və cəhətləri ilə proqnozlaşdırmışdı.[76]

Lakin bir acı həqiqət vardı ki, Qafqazda yaşayan gürcü, erməni və türklərdə eyni dövlət içində, bir bayraq altında, bir və bərabər yaşama iradəsi, əzmi və mövcud ortaqlığı davam etdirmə arzusu yox idi. Bu üç millətin milli maraqları bir-birinə zidd idi və aralarında da tarixi düşmənçiliklər və dərin ayrılıqlar var idi. Milli şüuru və vətənpərvərlik ölçüləri müxtəlif olan xalqları bir ideologiya ətrafında birləşdirməyin çətinliyinə baxmayaraq Ə. Hüseynzadə Qafqaz seyminin (18 yanvar 1918 – 28 may 1918) dağılması əleyhinə idi. O, türk-müsəlman birliyinin gücünə, azərbaycanlıların cəsarət və nüfuzuna inandığı üçün düşünürdü ki, Qafqaz seymi daxilində də söz sahibi olmaqla millət

---

[74] Hüseynzadə Əli bəy, 2007, səh. 144.
[75] Hüseynzadə Əli bəy, 2007, səh. 144.
[76] Hüseynzadə Əli bəy, 2007, səh. 241-242.

üçün çox şey etmək olar. Onun düşündüyünü həyata keçirmək üçün ümummilli lider Heydər Əliyev Azərbaycan SSRİ tərkibində olduğu illərdə var gücü ilə çalışdı. İmperiya daxilində adlarının çəkilməsi qadağan olunan bir şəraitdə Azərbəycan müstəqilliyinin ilk qurucuları M. Rəsulzadənin, Ə. Hüseynzadənin, Ə. Ağaoğlunun, Ə.Topçubaşovun və başqalarının ideyaları əməli şəkildə həyata keçirilir, Azərbəycanın bu günkü müstəqilliyinin təməllərinin möhkəmləndirilməsi yolunda böyük işlər görülürdü. Lakin bu dəfə də müxtəlif millətləri birləşdirən "Qafqaz körpüsü" M.S.Qorbaçov və B.N.Yeltsinin əli ilə yandırıldı... Və bu yanğının fitili yenə də ermənilər oldular...

30 oktyabr 1920-ci ildə Sovet Azərbəycanı türklərin yaşadığı ərazinin yalnız bir hissəsində qurulmuş, Göyçə mahalı və Borçalı isə orada yaşayan türklərlə birlikdə respublikanın sərhədlərindən kənarda qalmışdı. Artıq yuxarıda da qeyd edildiyi kimi, həmin ərazilər yeni yaradılmış Ermənistan SSR-ə daxil edilmişdi. Ermənilərin Qafqaza yerləşdirilməsi bu mübarək körpünün altına qoyulmuş bomba effekti verdi, Qarabağın qara günləri başladı...

Qafqazı fitnə ocağı olmaqdan xilas etmək üçün edilən cəhdlərdən biri XIX əsrin sonu, XX əsrin əvvəllərində Qafqazda Azərbəycan ərazilərində başlayan milli istiqlal hərəkatıdır. O zaman Əli bəy Hüseynzadə istiqlalın üç şərtini "İttihad, qüvvət, tərəqqi" devizində ifadə etmiş, ittihadı (birliyi) isə türkçülük, islamçılıq, avropaçılıq (müasirlik) dəyərlərinin sintezində görmüşdü.

"Türkçülüyün babası" hesab olunan Azərbəycan mütə-fəkkiri Əli bəy Hüseynzadənin beynəlmiləlçi və bəşəri şəxsiy-yət olması ədəbi və ictimai yaradıcılığından görünür. O, 1905-ci il hadisələri barəsində "Bundan sonra nə etməli?" sualına belə cavab vermişdi: "...millət və milliyyət tərəfdarlığı etməyib insaniyyət və səadəti-məmləkət naminə ... qeyrət və himmət etməli, .., millətin heyəti-məcmuəsinə isnad etməyib ancaq cinayətin faili olan

şəxsi, fərdi günahkar bilməlidirlər!..”[77] Bəli, hədəf müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi, başlıca vəzifə onun vətəndaşlarının – milliyyətindən asılı olmayaraq, bütün insanların hüquqlarının müdafiəsi idi.

İctimai proseslərdə ziyalılığın, maarifçiliyin roluna diqqət çəkən Əli bəy XIX-XX əsrlərdə Avropanın tərəqqisini protestantlıq və xüsusilə də Martin Lüterin xidmətləri ilə bağlayaraq yazırdı: “Bu gün İsveç, Germaniya, Hollanda kimi protestant məmləkətlərində bir fərd yoxdur ki, İncili oxuyub anlamasın. Bu əqvamın, öz Quranlarının mənasından bixəbər qalan müsəlmanlara əxlaq və məişətcə təfəvvüqləri əsbabından biri budur... ”[78] Tamamilə haqlıdır. O zaman olduğu kimi, indi də Qurandan xəbərsiz, yaxud bilərək, inkar yolu tutan “müsəlmanlar” vardır. Quranı oxumadan, Allahın öyüdünü eşitmədən İslam hikmətini anlamadan yaşanan “müsəlmanlıq” ümmətinə nə qazandıra bilər ki? Təsadüfi deyil ki, Quranın Sad surəsində[79] Allahın vəhyini yalan hesab edənlərin qürur və təfriqə içində məhv olmaları xəbər verilir.

Qafqaz “körpüsünün yanması” mənəvi tərbiyə mənbəyi-nin sarsıdılması: mədrəsə və təkkələrin bağlanması, mömin-lərin təqib və sürgün edilməsi, öldürülməsi və beləliklə varisliyin qırılmasından başladı... Rus hakimiyyəti Allahın hikmətini yaxşı bildiyindən, onu özünün “Parçala, hökm sür!” siyasətinə alət etdi. Qurana görə, varislik nəsildən daha çox inam, əqidə, mənəvi tərbiyə ilə bağlı anlayışdır. (Məsələn: Quran, Hud/45-46). Əsl varislik mənəvi dəyərləri qorumaq, Allah kəlamına hörmətlə yanaşmaq və Onun yolundan azmadan zamanın nəbzini tutmaqdır.

Müasir KİV-də elm, əqidə və dövlətçilik ideallarının qarşı-qarşıya qoyulması çox ciddi problemlərdəndir. Təsadüfi deyil ki, əqidədə qətiyyət göstərən zümrənin bir qismi elmə maraq gös-

[77] Hüseynzadə Əli bəy, 2007, səh. 112-113.
[78] Hüseynzadə Əli bəy, 2007, səh. 241.
[79] Quran, Sad / 1-4.

tərmir, elm adamlarının əksəriyyəti əqidə məsələsinə ciddi yanaşmır, bunların hər ikisinə önəm verənlər isə siyasi səhvlərə yol verir, dövlət maraqlarını qorumaq və vətənə layiqincə xidmət etmək məsələsinə səhlənkar yanaşırlar. Əslində bunlar insan şəxsiyyətində vəhdət təşkil edən keyfiyyətlərdir. Vətəndaşlıq məhz bu milli-mənəvi dəyərlərin harmoniyasında təzahür edir. Zamanın fövqündə olan bu üç dəyər tarixin ən qüdrətli şəxsiyyətlərini yetirmiş və yetirməkdə davam edir.

Əli bəy Hüseynzadənin söylədiklərindən 100 il keçməsi-nə, sələflərimizin müdrik kəlamlarından əsrlər keçməsinə, texnologiyaların həyatın ən həssas sahələrinə daxil olmasına, dünyanın mənzərəsinin tamam dəyişməsinə baxmayaraq, cəmiyyətdə hələ də köhnə problemlərin qalması dəyərlərə münasibətlə əlaqədardır. Vətəndaş şəxsiyyətini formalaşdıran dəyərlərin gözardı edilməsi, əxlaq və etika hədlərindən kənar biliklərin zərəri cəmiyyəti düşündürməlidir. Unutmaq olmaz ki, dəyərlər onlardan istifadə olunarkən, əməli fəaliyyət nəticəsində fayda verir. Əks halda mənəvi böhran, arxasınca isə maddi həyat səviyyəsinin çöküşü qaçılmaz olur. Dünyanın salamatlığı ilahi nizamın - haqqın və bəşəri ədalətin qorunması ilə əlaqədardır.

Mustafa Kamal Atatürk dövlətə rəhbərliyinin ilk dövründə, 20 Oktyabr 1927-ci ildə Türk gənclərinə xitabən demişdi: “Ey türk gəncliyi, birinci vəzifən, Türk istiqlalını, Türk Cümhuriyyətini daim mühafizə və müdafiə etməkdir. Mövcudluğunun və gələcəyinin yeganə təməli budur. Bu təməl sənin ən qiymətli xəzinəndir. Gələcəkdə də, səni bu xəzinədən məhrum etmək istəyən daxili və xarici bədxahların olacaqdır. Bir gün azadlıq və ölkəni müdafiə etmək məcburiyyətində qalsan, vəzifəni icra etmək üçün vəziyyətin imkan və şəraitini düşünməyəcəksən! Bu imkan və şərait çox uyğun olmayan bir mahiyyətdə təzahür edə bilər. Azadlığına və ölkənə qəsd edən düşmənlər bütün dünyada bənzəri görülməmiş bir qalibiyyətin banisi ola bilərlər... Məcburi olaraq və hiylə ilə əziz vətənin bütün qalaları zəbt edilmiş, bütün

limanlarına girilmiş, bütün orduları dağıdılmış və məmləkətin hər küncü tamamilə işğal edilmiş ola bilər. Bütün bu şəraitdən daha pis və dəhşətli: vətənin daxilində iqtidara sahib olanlar qəflət, dəlalət və hətta xəyanət içində ola bilərlər. Hətta bu iqtidar sahibləri şəxsi mənfəətlərini düşmənlərin siyasi məqsədləri ilə birləşdirərək, düşmənlərlə ortaqlıq qura bilərlər. Millət yoxsulluq və sıxıntı içində əldən düşmüş ola bilər...

Ey Türk gələcəyinin övladı! Bu vəziyyət və şərtlər içində belə, vəzifən - Türk azadlığını və Cümhuriyyətini qurtar-maqdır! Möhtac olduğun qüdrət damarlarındakı qanda mövcuddur!" Nə qədər doğru diaqnoz – dəqiq yanaşmadır...

Mənlik şüuru - kimliyinin fərqində olmaq xüsusiyyəti Azərbaycanın milli qəhramanı Mübariz İbrahimovun və general Polad Həşimovun inamı, əzmi və qətiyyətinin vəhdətində parlayaraq illərlə davam edən problemin üzərinə işıq saldı. Hər iki qəhraman damarlarında axan qandakı qüdrəti dərk etdikləri üçün qeyri-bərabər döyüşə atılmışdılar. Onlar zülmə dözmədilər, ədalətin tələbini yerinə yetirdilər - olmalı olanı həyata keçirdilər. Özləri həlak olsalar da, doğrunun, haqqın necə qorunmalı olduğunu göstərdilər. Onların qətiy-yətindən millətimizin sarsılmaz ümidinə yenilməz cəsarət gəldi... Azərbaycan xalqı ayağa qalxdı, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoyuldu.

Müasir milli şüur milli-mənəvi dəyərlərin, milli adət-ənənələrin, milli əxlaqi keyfiyyətlərin, milli qürurun və vətənpərvərliyin ümumbəşəri dəyərlərə inteqrasiyasının məhsuludur. Məhz milli şüurun formalaşması müstəqil dövlətçilik ideologiyasının təməlini yaradır. Dövlətçiliyə xidmət edən milli ideologiya isə onun dayaqlarının möhkəmlənməsinə, yaşamasına və inkişaf edib zənginləş-məsinə zəmin yaradır.

Bu gün Azərbaycan xalqı yalnız sələflərinin izləri ilə getməklə kifayətlənmir, onların açdığı cığırları daha geniş yollara qovuşdurur, şəhid qanları bahasına qorunmuş vətəni gülüstana

çevirir. Bir zamanlar Əli bəy Hüseynzadənin düşüncə və firçasından pərvəriş tapan Azərbaycan bayrağı hazırda müstəqil Azərbəycan dövlətinin dünya arenasındakı müvəffəqiyyətlərinə vüqarla şahidlik edir. Azərbəycan dövləti isə əsrin əvvəllərindən fərqli olaraq, bayrağında əks olunan simvolları mətanətlə qorumaq və yaşatmaq iqtidarını bütün dünyaya nümayiş etdirir. “Azərbaycançılıq ideyaları özündə tarixiliyi və müasirliyi, ənənə və varisliyi, ictimai psixologiyanı və etnik təfəkkürü birləşdirir. Azərbaycançılıq tarixən ictimai şüur forması kimi mövcud olmuş, müstəqil dövlətçilik şəraitində isə milli şüur formasına çevrilmişdir.”[80] Beləliklə, insan ikinci təbiəti – mədəniyyəti yaradır, mədəniyyət isə yeni insanı, yeni nəsli yetişdirməklə kommunikativ funksiyanı yerinə yetirir, nəsillər arasında varisliyi həyata keçirir. Azərbəycançılıq kökü Azərbəycan mədəniyyətində möhkəm duran, budaqları isə dünyayaya, beynəlxalq aləmə uzanan həyat ağacıdır. Bu ağacda onu qurutmayan, qoruyan və qidalandıran hər vətəndaş dəyərlidir. Davamlı inkişafda insanlıq dəyərlərinin mühafizəsi qadınların fitri keyfiyyət və funksiyalarının qorunması ilə sıx bağlıdır. Çünki bəşəriyyətin mərhəmət, şəfqət, ləyaqət tərəfi qadındır. Cəmiyyətdə bu keyfiyyətlərin assimilyasiyası qadına münasibətlə mütənasib-dir.

Dünya nizamının dəyişməsi, münaqişə və müharibələrin artması dünyanın başqa yerlərində olduğu kimi, müasir Azərbaycanda da qadın-kişi münasibətlərinə təsir edir. Bir tərəfdən müharibə fəlakətləri nəticəsində dağılan ailələrin acıları, digər tərəfdən hərb mühitinin maddi-mənəvi məhrumiy-yətləri sosial-psixoloji gərginliyi artırır. Ailə münaqişələri çoxalır. Münaqişə və dözümsüzlük halları bəzən intihar və ölümlə nəticələnən cinayətlərlə müşayiət olunur. İnsanların aldığı daxili travmalar ümidsizlik, səbrsizlik, qorxu və qəzəb hislərinin idarə olunmamasında təzahür edirsə, zahiri tərəf getdikcə artan aqressiya və

[80] Yusifov M. İ. 2012, səh. 4.

münaqişə, suisid və qətllərdə özünü büruzə verir. Problem bütün dünyada, eləcə də Azərbaycanda təhsil prosesinin təkmilləşməsinə rəğmən təlim-tərbiyənin ikinci plana keçməsi ilə əlaqədardır. KİV-lərin təsir imkanları, zehnin intellektual yüklənmə səviyyəsi ilə əxlaqi tərbiyənin bəşəri funksiyası, insani keyfiyyətlərin qorunma səviyyəsi arasında balansın olmaması fərdlərin şəxsiyyət kimi yetişməsinə təsirsiz ötüşmür.

Hədəflər və onlara nail olmaq düşüncəsi istər fərdi, istərsə də ictimai sferada həlledici amildir. Həm ailədə, həm də dövlətdə idarəetmə strukturlarının fəaliyyəti sağlam əsaslara – doğru dəyərlər və nizama xidmət edən hərəkət mexanizmlərinə malik olmalıdır. Nizam tərəzisi hikmət və ədalət olan hakimiyyət anlayışına fərqli yanaşmalar fərqli nəticələr verə bilir.

Makiavellinin "Hökmdar" əsərindən "idarəçilik vəsiqəsi" alan və günümüzə qədər şaxələnərək genişlənən hikmətə zidd üsullar ailələrdə və dövlətlərdə bəhrələrini verir. Əgər beş əsr bundan əvvəl cəmiyyətdə rast gəlinən ədalətsizlik və anarxiyanın səbəbi idarəçi olurdusa, indi ədalətsizliklərin səbəbi "makiavelizm" adlı siyasətin özüdür. Siyasi sistemdə naqisliyin olması isə davamlı inkişafa zərər vurur. Məlumdur ki, hadisə və proseslərə yanaşmada hədəflərin və məqsədlərin dəyişməsi fərqli vəzifələr meydana gətirir. Fərqli vəzifələr isə hərəkətverici qüvvələrin funksiyasını dəyişdirir. Hədəfi dəyişdirilən idarəçilik - geni dəyişdirilən meyvə effekti verir. O, bol məhsul versə də, insanın sağlamlığına deyil, dəyişən maraqlara xidmət edir. Hər yeni texnoloji avadanlığın istifadə təlimatı olduğu kimi, bəşəriyyətin də davamlı inkişaf proqramı onun Yaradıcısının kitabıdır. Yaradıcının kitabı insanın ağlının, əqidəsinin və bəşəri funksiyasının müdafiəsi proqramıdır və həmişə aktualdır.

Təbiəti, cəmiyyəti və idrakı yeni innovasiyalarla zənginləşdirməklə yanaşı, Quranı öyrənmək və Allahın yaratdıqlarından məqsədini dərk etməklə qoruya bilərik. Cəmiyyət mövcud dəyərlərdən öz təbii funksiyasına müvafiq istifadə edərək, faydala-

na bilər. Müasir insanın tərbiyəsindəki naqislikləri hikmətə sədaqətsizlikdə axtarmaq lazımdır. İnsanlıq funksiyasını itirməmək üçün aşağı yaşlardan uşaqlara ilahi hikməti öyrətmək lazımdır. Allahın öz bəndələrini hidayət etməsi üçün göndərdiyi oxunan kitabı - Quranı lazımınca öyrənmir, öyrətmir, dünya və axirət həyatını anladan əvəzsiz nemət olduğunu dərk etmirik. Hətta nə üçün öyrənməli olduğumuz haqqında dərindən düşünmürük. Dinin yalnız axirət üçün deyil, dünyamız, həyatımız, ..., insanlığın səadəti üçün əhəmiyyətini yetərincə dəyərləndirmir və əldə etdiyimiz nemətlərə layiqincə şükr etmirik. Fitrətə qayıtmağın yolu hikmətdən keçir. Din mənəvi qidamızın mayasıdır. Mənəvi aclıq maddi aclıqdan daha təhlükəlidir. Maddi aclıq fərdin məhvinə səbəb olursa, ruhi-mənəvi aclığın nəticələri öz mənbəyindən kənara çıxır, ətrafa təsir edir və sosial-psixoloji bəlalar zənciri yaradır.

Kitabın növbəti fəsli maddi həyatın özəyi və cəmiyyətin dayağı olan mənəvi təminat məsələləri haqqındadır. İnsanın ruhi və əqli keyfiyyətinin harmoniyasında təzahür edən mənəviyyat ünsiyyətin təməlidir. Ünsiyyət bəşəri borcdur, vəzifədir, əmanətdir. Ana ilə övlad arasında başlayan ünsiyyət yenidən bəşəriyyətə qayıdır... Ünsiyyət mühümdür, onu yaşatmaq, davam etdirmək fitrəti dərk etməkdən başlayır. Təlim-tərbiyə, fitrəti dəyişdirməməli, qarşılıqlı münasibətlər ünsiyyəti qorumağa, sülhə və əməkdaşlığa xidmət etməlidir.

# II Fəsıl

# Müasir Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri

## 2.1. “Münasıbət” anlayışının etık məzmunu

Mövzu məzmunu və əsaslarına görə fərqlənən üç etik istiqamətin: dini etika, normativ etika və sosial etikanın tədqiqat obyektidir. Dini etika dini prinsiplərin əxlaqa təsirini tədqiq edir: ilahi əmrlərin qəbul edilməsi və ya inkarı şəraitində etik dəyərlərin dəyişməsi problemlərini, xeyir və şərin fərdi və ictimai həyatdakı təsirlərini öyrənir. “Normativ etika insan davranışını tənzimləyən, hərəkətlərini istiqamətləndirən, gözəl əxlaqı qiymətləndirmək üçün meyarlar təyin edən prinsip və ya prinsipləri müəyyən edir, eyni zamanda bütün hallar üçün ümumi bir prinsip kimi çıxış edə biləcək qaydalar sistemi yaradır”.[81] Normativ etika gündəlik həyatın davranış normala-rını müəyyənləşdirmək, cəmiyyətdə əsas mənəvi dəyərləri qorumaq funksiyası daşıyır. Hər iki tədqiqat sahəsi ağıl, sübut, dəlil və arqumentlərdən istifadə edərək, problemlərə tənqidi yanaşır, əxlaqi düşüncənin dəyişmə prosesini izah edir və tənzimləyir.

Mövzuya eyni zamanda siyasi etika aspektindən də nəzər salınmışdır. Artıq beş əsrdir ki, Nikkolo Makiavellinin siyasi nəzəriyyəsi idarəçilikdə istifadə olunur və “makiavellizm” adı altında ideoloji tərəfdarlar qazanır. Şəxsiyyət və dövlət əlaqələ-rində Platon və Aristoteldən fərqli baxışlar sərgiləyən N. Makiavelli cəmiyyətin inkişaf qanunlarında psixoloji amilləri qabartmış, hakimiyyətin hiyləgərlik, ikiüzlülük, yaltaqlıq, satqınlıq, mənəviyyatsızlıq, qəddarlıqdan da istifadə etməsini yazdığı “Hökmdar” əsərində əsaslandırmış, klassik ənənədən fərqli mövqe ortaya

[81] Максимов Л.В, 1998, стр. 39-54.

qoymuşdur. Daha sonra XIX - XX əsrin əvvəllərində məşhur sosioloq Maks Veber iki növ siyasi etikanı təsbit etdi: ideal etika və məsuliyyət etikası. İdeal etikada siyasi fəaliyyətin son hədəfi ən yüksək dəyəri qazanır, imicini bu və ya digər ideologiya müəyyənləşdirir. Məsuliyyət etikası isə siyasi fəaliyyətdə hüquqi və sosial normalara əməl edilməsini nəzərdə tutur. Hazırda dünyanın müxtəlif regionlarında artmaq-da olan qarşıdurma, münaqişə və müharibələr siyasətdə olduğu kimi, etika sahəsində də ciddi geriləmələrin olmasını təsdiq edir. Azərbaycan Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru İlham Məmmədzadəyə görə, müasirlik etikaya qadın-kişi problematikasını daxil etmişdir. O, müasirlik deyərkən, məhz dünyanın müasir mənzərəsini nəzərdə tutur; müasir dövrdə insana münasibətin, o cümlədən qadın və kişi rollarına münasibətin dəyişməsinə diqqət çəkir. İ. Məmmədzadə əxlaqı indinin və gələcəyin perspektivi hesab edir, əxlaqın tənzimlənməsində ənənəvi, mühafizəkar və müasir dəyərlərin toqquşması probleminə diqqət çəkir, dialoq, kompromis və hörmət mədəniyyətinin formalaşmasında etikanın funksiyasını xüsusi vurğulayır.[82] Etika din, tarix, siyasət, iqtisadiyyat və s. sahələrdəki biliklərin mənəviyyata təsirini anlamağa kömək edir. Əxlaq nəzəriyyəsi başqa tədqiqat sahələrindəki nailiyyətlərin həyata tətbiqi zamanı dəyişən situasiyalarda insanlıq funksiyasının qorunmasına məsuldur. Robotların təkmilləşməsi insanlıq funksiyası ilə rəqabətə girə bilər, lakin məsuliyyət subyekti insan və cəmiyyətdir.

Dünyanın nizamı, bəşəriyyətin rifahı və təhlükəsizliyi, xoşbəxt gələcəyi insanların etik dəyərlərə münasibəti və dövlətlərin apardığı siyasətlə bağlıdır. Dövlət idarəçiliyi ilə ictimai əxlaq arasında qarşılıqlı əlaqələr mövcuddur. Dövlət başçılarının, məmurların, eləcə də idarəçiliyin bütün strukturlarındakı vəzifə sahiblərinin fəaliyyətlərinin xarakteri fərdi və ictimai əxlaqda təza-

[82] Мамедзаде И. Некоторые теоретические проблемы исследования нравственности и права, 05.10. 2021.

hür edir. Hər dövlət öz mədəniyyətini, dəyərlər kompleksini təmsil edir və təbii ki, istər daxili, istərsə də xarici münasibətlərdə bu özünü büruzə verir. Məsələn: 4 qonşu dövləti müqayisə etsək, Ermənistanın təcavüzkar, Azərbaycanın sülhsevər, Rusiyanın təcavüzkarı (Ermənistanı) dəstəkləyən olduğunun, Türkiyənin isə daim haqq, ədalət uğrunda mübarizə apardığını, ərazisi işğal olunan dövlətin (Azərbaycanın) hüquqlarının bərpasına çalışdığının şahidi olarıq. Bu reallığı əks etdirən minlərlə dəlil və istinadlar vardır. Məsələ etnik, dil, din arqumentlərində səsləndirilən qondarma izahlardan və məqsədli şəkildə yaradılmış stereotiplərdən daha sadə və aydındır. Hazırda qüvvədə olan beynəlxalq hüquq və normalar, dövlətlərin suverenlik və toxunulmazlıq şərtləri, eləcə də ümumbəşəri mədəni universalilər problemlərin təxirə salınmadan həllinə imkan verir. Lakin qanunların icrasına loyal, ədalətsiz, birtərəfli, sofist yanaşmalar fərdi və ictimai müstəvilərdə ayrıseçkilik yaradır, cəmiyyətdə məzlum və zalım anlayışlarının məzmunu süni şəkildə identikləşdirilir... Xırda problemlərin vaxtında həll olunmaması, səhlənkarlıq, yaxud qəsdən uzadılması daha da mürəkkəbləşməsinə və böyüməsinə gətirib çıxarır. Cəmiyyətin bütün təbəqələri, xüsusilə daha həssas qismi olan qadınlar mövcud vəziyyətdən daha çox əziyyət çəkir, ruhi və fiziki sağlamlıqlarını itirirlər.

Postmodern dünyada ədalətsiz idarəçilik nəticəsində xarici təcavüzə məruz qalan ölkələrdən biri kimi, Azərbaycanın beynəlxalq aləmdə məruz qaldığı qanunsuzluqlar, əhalinin mənəvi və fiziki məhrumiyyətlərlə üzləşməsi, qaçqınlıq və köçgünlük şəraitində qadın olmaq çox çətindir. Qeyd olunan və olunmayan onlarla faktor cəmiyyətdə qadına yeni münasibətlər formalaşdırır. İşdə Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyat nümunələri, dini baxışları, müasir milli-mənəvi dəyərləri, sülh və müharibə şəraiti kontekstində qadınların ictimai-siyasi fəaliyyətlərinin, ailə münasibətlərinin dəyişməsi, sosial-məişət problemləri və s. araşdırılmış, qadına münasibətin fərdi və ictimai aspektləri şərh olunmuşdur.

Azərbaycanın vətəndaş əxlaqi təcrübəsində qadına münasibət məsələsi həm zahiri mədəniyyət (incəsənət, dəb, davranış, tərbiyə və özünü ifadə imkanları), həm də daxili, ruhi-intellektual (milli-mənəvi, sosial-psixoloji, ictimai-siyasi, hüquqi və s.) aspektlərdə təzahür edir. Qloballaşma və mədəniyyətlərin inteqrasiyası, gender proqramlarının Avropada tətbiqinin sosial mühitə yansıması şəraitində yaranan dəyişikliklər dünyanın digər regionlarında olduğu kimi, Azərbaycandan da yan keçməmişdir. Müxtəlif əyləncəli tədbirlər, relaks motivasiya formasında təbliğ olunan yeni dəb və normalar müasir cəmiyyətdə əsrlərlə davam edən milli-mənəvi dəyərləri dəyişdirir, dünyaya, insana, təbiətə, idraka yeni baxışlar formalaşdırır, ruhi və intellektual sferaya təsir edir. Bəzən yeni, azad, demokratik, ədalətli normaların inkişafına xidmət naminə cəmiyyətə təqdim olunan müasir fəlsəfi nəzəriyyələr çox zaman geriliyə, cahilliyə və fanatizmə atılan addımlar kimi bəşəri tərəqqiyə ciddi ziyan vurur.

## 2.2. Zaman və qadın

Azərbaycanda milli-mənəvi dəyərlərə hörmət hissi ilə yanaşı vətəndaş əxlaqi təcrübəsində etikanın müasir istiqamətlərinin təsirini görməmək mümkün deyildir. Bu təsir həm zahiri xüsusiyyətlərdə, həm də daxili – mənəvi, sosial-psixoloji, siyasi, hüquqi, təlim-tərbiyə və s. aspektlərdə təzahür edir. Humanizmin imkanlarından bəhrələnərək hedonizmə və amoralizmə yuvarlanan cəmiyyətdə Avropa gender proqram-larının tətbiqinin sosial mühitə yansımasını unutmaq olmaz. Dünyanın hər yerində insan haqları və hüquq bərabərliyinə  nail olmaq əvəzinə, gender bərabərliyi kimi saxta problematikanın ortaya atılması, "koronavirus" epidemiyası yayaraq demoqrafiyanın "tənzimlənməsi", fitrətə – təbii genlərə müdaxilədən sui-istifadə, işğal, zorakılıq, terror və təcavüz hallarının artması, münaqişə və müharibə fəsadlarının acıları həyatı daha da çətinləşdirir. Belə bir zamanda dün-

yanın digər regionlarında olduğu kimi, Azərbaycanda da qadın olmaq böyük fədakarlıq və əzm tələb edir. Qeyd olunan və olunmayan digər şərtlər altında qadınlıq fitrəti və funksiyasını qorumaq heç də asan olmur. Bu cəhətdən tədqiqat mövzusu ictimai və fərdi aspektlərdən çox vacib və aktualdır.

Dünya əhalisinin savadsız, kitab oxumayan hissəsinin səviyyəsi məlumdur və çox bəsitdir. Problem müasir biliklərin tətbiqinin ictimai nəticələrində, daha çox KİV-nin xaotik, mənəvi dəyərə hədəflənməyən məzmunundadır. Dünya əhalisinin yüksək intellektuallı, dünyanı idarə edən qisminin dünyagörüşünün dünya nizamına və ümumbəşəri dəyərlərə təsiri qadınların həyatında da dərin izlər buraxır. Bəşəri başlanğıcın həssas qismi olan qadınlar kişilərə nisbətən qlobal kataklizmləri daha ağrılı keçirir, post müharibə fəsadları zəncirinə qatlanır, hətta suisidə əl atırlar. Başqasına həyat verən məxluqun öz həyatına son verməyə məcbur qalması çox dərin sosial-psixoloji reqressiyadan xəbər verir.

Mədəniyyətə istiqamət verən çoxsaylı layihələrin, müsabiqə və təşviqedici tədbirlərin hədəflərinə, müasir bəşəri nailiyyətləri müəyyən edən Nobel Fondunun maraq dairəsinə, “Ginnesin rekordlar kitabı”na baxarkən, bütün bunlarla bir araya sığmayan münaqişə və müharibələri, soyqırım cinayətlərini, şiddət və zoraklığın artmasını; çağımızın ölçü və meyarlarına, insana və xüsusilə qadınlara münasibətin dəyişməsini diqqətdən qaçırmaq olmaz.

Sülh üzrə Nobel mükafatına layiq görülmüş Mixail Qorbaçovun “yenidənqurma” siyasəti SSRİ-ni qapalı cəmiyyətdən açıq cəmiyyətə keçirmək üsulu kimi mütərəqqi görünsə də, əslində anarxiyaya, radikalizmə meydan açdı - postsovet məkanında, xüsusilə Azərbaycanda sülh və təhlükəsizliyə son qoydu. 70 il qardaşcasına yaşayan millətlər arasında nifrət, ayrıseçkilik, ekstemizm toxumları cücərdi. Heç bir etik normalara sığmayan Fərqanə və Xocalı hadisələri Qərbin tədqiqat İnstitutlarında hazırlanan müasir siyasi nəzəriyyələrin gerçək mahiyyətini və “təcrübi

əhəmiyyətini" üzə çıxardı. Baş verən proseslərdə ən çox zərər görən qadınlar oldular: öldürüldülər, müxtəlif fiziki və mənəvi zorakılıqlara məruz qaldılar, namus və ləyaqətlərinin alçaldılması, yaxın-larınının ölməsi, şikəst olması, övlad itkisi, sürgün, departasiya, qaçqın, köçgün həyatının dözülməz şərtləri ilə üz-üzə qalaraq, gələcək nəsillərə də yansıya bilən mənəvi sarsıntılar keçirdilər. Cəmiyyətdəki harmoniyanın pozulması, diskomfort, kata-klizmlər hətta dolanışıq problemi olmayan, firavanlıq içində üzən bədnam Mixail Qorbaçovun ailəsindən də yan keçmədi. Qorbaçovun "Yenidənqurma" adlanan dağıdıcı siyasəti (1985-1991), istedadlı, siyasi perspektivi olan insanlara qarşı qərəzli mövqeyi və ədalətsiz qərarları yalnız Azərbaycanda deyil, eləcə də onun öz ailəsində, həyat yoldaşı Raisa Qorbaçovanın səhhətində də təsirini göstərdi.

1991-ci ildə Moskvadakı üsyandan sonra insult keçirən, görmə qabiliyyəti zəifləyən R.Qorbaçova, M.Qorbaçovun SSRİ rəhbərliyindən istefasından sonrakı illərdə tədricən sağlam-lığını itirmiş, 1999-cu ildə qan xərçəngi xəstəliyindən vəfat etmişdir. Onun ölmədən öncə dediyi və KİV-də yayılan son sözləri olduqca ibrətamizdir: "Yəqin ki, belə bir ciddi xəstəlik çəkib ölməliydim ki, insanlar məni başa düşsünlər."[83] Qorbaçovun "Yenidənqurma"sından, Cənubi Qafqazdakı münaqişə[84] və qırğınlardan sonra R.Qorbaçova kimin yadına düşə bilərdi ki, üstəlik başa düşməyə çalışsınlar?! Onun çəkdiyi əziyyətin qat-qat artığını ölkənin sadə insanları, günahsız əhali çəkmişdi M.S.Qorbaçovun fəaliyyətindən...

Maraqlıdır ki, R.Qorbaçova haqqında yazdığı nekroloqu akademik Aleksandr Yakovlev "Raisa Qorbaçovanı zaman öl-

---

[83] Горбачева Раиса, 2021.

[84] Dadaşova Ramilə. Cənub Qafqazda olan münaqişələrin səbəb və nəticələri // Uluslarararası kriz ve siyaset araştırmaları dergisi. December, 2020, 4(2), səh. 115-155 https://dergipark.org.tr/tr/download/article-file/1480687

dürdü"[85] adlandırmışdı. Bu yanaşma 20 yanvar 1990-cı ildə Rus ordusunun Bakıda dinc əhalini qırması faktı qarşısında M.S.Qorbaçovun mövqeyi ("20 yanvar qətliyamının səbəbi - Qarabağdır" demişdi) ilə eyni "məntiq"ə söykənir: Zamanı, tarixi şəraiti formalaşdıran faktorlar içərisində Mixail Qorbaçovun rolu yox idisə, Nobel fondu onu sülh mükafatına niyə təqdim etmişdi? Raisa Qorbaçovanı "zaman öldürdü"sə, postsovet respublikalarında yüzlərlə sadə vətəndaşın, dinc insanların, xüsusilə yaşlıların, qadınların və uşaqların həlak olması ilə nəticələnən qarşıdurmalar, aclıq və yoxsulluğun artması, minlərlə insana qarşı aparılan ayrıseçkilik, müsəlman əhalinin izolyasiyası zamanın işidirsə, M.S.Qorbaçova Nobel mükafatı hansı xidmətlərinə görə verildi? Bəlkə Qarabağda ermənilərin başladığı işğal siyasətini Bakıda davam etdirdiyinə, yüzlərlə sadə vətəndaşın qanını tökdüyünə görə?!

1988-89-cu illərdə Cənubi Qafqazda – Çeçenistanda, Abxaziyada, Cənubi Osetiyada törədilən münaqişələrdə minlərlə insanın həlak olması, qaçqın vəziyyətinə düşməsi, Ermənistan SSR-də yaşayan azərbaycanlıların qətl edilərək, yandırılaraq, talan edilərək doğma yurd-yuvasından qovulmasında M.S.Qorbaçovun və ondan sonrakı rus idarəçilərin rolu olmuşdur. Rus hakimiyyətinin dağıdıcı siyasəti nəticəsində 1988-1992-ci illərdə 250 min nəfər azərbaycanlı son nəfərinədək Ermənistan SSR ərazisindəki tarixi yurd-yuvalarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. Şovinist rus hakimiyyəti dövründə 50 min Mesxeti türkü (Özbəkistan SSR, Fərqanə), 250 mindən çox gürcü daimi yaşayış yerlərindən qovulmuş, didərgin salınmış, qədim yurdlarına dönmələri təmin edilməmiş, etnik təmizləmyə, soyqırıma məruz qalmışlar. "Zaman" firavanlıq içində yaşayan ölkənin birinci ledisinə təsirini göstərməyə bilməzdi, çünki o həyat yoldaşı Mixail Qorbaçovun cinayətlərinin şahidi

[85] Яковлев Александр, 1999.

olmuşdu. "Qadın böyük qüvvə" hesab olunsa da, Raisa Qorbaçova ilahi fitrətinə, qadınlıq, xeyirxahlıq, sülhsevərlik simasına xəyanət etmiş, ərini bu amansız cinayətlərdən çəkindirməmiş, onun ortağı olmağı qəbul etmişdi...

M.S.Qorbaçovun hakimiyyəti dövründə SSRİ-nin müxtəlif regionlarında baş qaldıran təcavüzkarlığın qarşısı alınmadı, qanunsuzluq və anarxiya baş alıb getdi. Təkcə oğuz türkləri - azərbaycanlıların tarixən məskunlaşdıqları 126 yaşayış məntəqəsi 1988-ci ildə zorla boşaldılaraq Ermənistan SSR idarəçiliyinə verildi. M.S.Qorbaçov azərbaycanlılara qarşı aparteid siyasəti həyata keçirdi. Əhalinin ov tüfəngləri, "soyuq silah" adı altında ən primitiv kəsici alətləri müsadirə edildi. XX əsrdə əli yalın, tamamilə silahsız, dinc əhaliyə qarşı bəşəriyyətin ən qatı cinayətlərindən biri – soyqırım törədildi: Azərbaycanın Dağlıq Qarabağ vilayətində 6 min nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri SSRİ hərbi birləşmələrinin erməni terrorçularına köməyi ilə bir gecədə darmadağın edildi, 613 nəfər dinc sakin vəhşicəsinə, xüsusi qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü, 1000 nəfər dinc sakin müxtəlif dərəcədə şikəst oldu, 1275 nəfər - qocalar, qadınlar, uşaqlar əsir aparılaraq dəhşətli təhqirlərə, zülmə və həqarətlərə məruz qaldılar...[86]

Xocalı hadisəsi Rusiya hakimiyyəti və ordu komandanlığının beynəlxalq təhlükəsizliyə, bəşəri dəyərlərə, sivil birgəyaşayış qaydalarına, demokratik münasibətlərə, əxlaqa və insan haqlarına, sülh və təhlükəsizliyə zidd cinayətlərini bütün təfərrüatı ilə dünyaya göstərdi. M.S.Qorbaçovun sivil idarəçilik normalarına sui-qəsdi yalnız ictimai həyatda deyil, eyni zamanda şəxsi həyatında da acı nəticələr verdi: Qaçqın, köçgün olan, himayəçilərini (atası, qardaşı, əri, oğlu) və övladlarını itirən, alçaldılan, təcavüzə uğrayan, cirkaba batırılan, düşməninə oğul doğmağa məcbur edilən, yaralı, əsir qadınların ah-naləsi öldürdü Raisa

[86] Qaçqınlar və məcburi köçgünlər, 2021.

Qorbaçovanı... Bəli, həyatın acı gerçəyidir bu: Zalımın da, məzlumun da qəhrini qadın çəkir...

M.S.Qorbaçov hakimiyyətinin dəstəklədiyi Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ vilayəti, eləcə də ona bitişik olan 7 rayon: Kəlbəcər (1993), Laçın (1992-1993), Qubadlı (1993), Cəbrayıl rayonu (1993), Zəngilan rayonu (1993), Ağdam rayonu (1992-1993) və Füzuli rayonu (1993) ərazisi 30 ilə yaxın işğal altında qaldı. Bu rayonlardan 600 min nəfərdən çox soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün olmuş, respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti qalmışlar. Bundan başqa respublikamızın Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağcabədi, Ağdam, Ağstafa, Füzuli, Tərtər, Goranboy, Qazax rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərdən çox oğuz türkü - azərbaycanlı öz daimi yaşayış yerini müvəqqəti tərk edərək təhlükəsiz ərazilərə köçürülmüşlər.

M.S.Qorbaçovun üzdəniraq "sülh fəaliyyəti" nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, sağ qalanlar isə psixoloji sarsıntılar və maddi-mənəvi əziyyətlər çəkmişlər. Münaqişə dövründə 4852 nəfər (o cümlədən 54 uşaq, 323 qadın, 410 qoca) azərbaycanlı itkin düşmüş, onlardan 1368 nəfəri (o cümlədən 169 uşaq, 338 qadın, 286 qoca) əsirlikdən azad edilmişdir. 783 nəfər (o cümlədən 18 uşaq, 46 qadın, 69 qoca) isə bu günədək Ermənistanda əsirlikdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 azərbaycanlı əsirlikdə ölmüşdür.

Hadisələrin sağ qalan şahidlərinin, yaralılara xidmət edən həkim və sanitarların hisləri isə heç də həmişə mənəvi iztirabla bitmir, daxili sarsıntıdan yaranan ağır xəstəliklərə çevrilirdi. On-

lardan biri "Ermənistan SSR, Tumanyan rayonu"[87] sakini, Xocalı soyqırımı qurbanlarını gözləri ilə görən və yüzlərlə yaralıya tibbi yardım göstərən, həyatını xilas edən I Qarabağ müharibəsi veteranı, Azərbaycan Silahlı Qüvvələrinin I dərəcəli tibb xidməti kapitanı, "Azərbaycan bayrağı" ordenli Məleykə Əhmədova - Səma (1957-2006) olmuşdur. O, atəşkəsdən sonra Bakı şəhərində "əməliyyat sonrası qanaxma" diaqnozu ilə vəfat etmiş, prezident İlham Əliyevin sərəncamına əsasən, İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

Məleykənin həyatı və böyüyüb boya-başa çatdığı ailəsinin faciəsi M.Qorbaçovun dağıdıcı siyasətinin nəticələrindən yalnız bir zərrədir. Azərbaycanlıların əzəli yurd-larından qovulması prosesində M. Əhmədovanın üç qardaşı şəhid olmuş, atası Əhməd kişi isə üçüncü şəhid oğlu - Kamandarın ölümünə dözməyərək həyatla vidalaşmışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistandan qovularkən Məleykənin qardaşı Yaqub Əhmədov ermənilər tərəfindən qətlə yetirilmiş, kiçik qardaşı 16 yaşlı Səyyad Əhmədov isə ermənilər tərəfindən suda boğularaq öldürülmüşdür. Məleykənin böyük qardaşı Kamandar Əhmədov I Qarabağ müharibəsində şəhid olmuş, Bakıda Şəhidlər xiyabanında torpağa tapşırılmışdır. Bakı küçələrindən biri Kamandar Əhmədovun adını daşıyır. Məleykə Səmanın vətən dərdi, ailə faciəsi, qəlb ağrısı, xatirə acısı yazdığı şeirlərlə bir azca xəfifləsə də, bitmədi. I Qarabağ müharibəsindən sağ çıxan zərif qəhraman vətən həsrətinə dözə bilmədi, millətinin mərd oğul və qızlarının başına gətirilən işgəncələr şəfqətli həkim ürəyində qübar bağladı, içində sağalmaz yaraya çevrildi və onu 49 yaşında aramızdan apardı...

O, yazdığı "Xocalı şərqisi" kitabında 1988-1994 illər Qarabağ qətliamlarının sənədli foto-xronologiyasını tərtib etməklə yanaşı, həm də Azərbaycanın 1813-cü ildən etibarən ümumilik-

[87] "Ermənistan SSR Tumanyan rayonu" – Rus imperiyası tərəfindən işğal olunmuş Azərbaycanın Loru mahalının Allahverdi rayonu

də 80 % torpağının Rus-erməni işğalının qurbanı olduğunu xatırlatmışdı.[88] Kitabda müəllifin iştirak etdiyi müharibə ilə bağlı 40-a yaxın şeiri və müharibə dəhşətlərini əks etdirən fotoşəkillər toplanmışdır. Kitab gələcək nəsillərin qan yaddaşı üçün əyani vəsait, dəli-sübut, yaşanmış acı gerçəklərin susmayan şahididir.

İlkin məlumatlara görə, Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarda Azərbaycana məxsus milli mədəniyyət ocaqlarına erməni təcavüzkarların vurduqları ziyan, dünya sivilizasiya-sının misilsiz mədəniyyət nümunələri olan maddi-mənəvi sərvətlərin talan və məhv edilməsi azərbaycanlılara dəyən mənəvi-psixoloji zərbə ilə yanaşı, Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox həcmdə maddi ziyan dəymişdir.[89]

30 il işğal altında qalan ölkənin qadınlarının çəkdikləri məşəqqətləri bir tədqiqat işinə sığdırmaq qeyri mümkündür. Bu barədə KİV-də şahid ifadələri, xarici mediya nümayəndələrinin foto, video çəkilişləri və məqalələrinə qədər minlərlə fakt sadalamaq olar. Ona görə də tədqiqat materialına fəlsəfi yanaşılmış, rəqəmlərdən daha çox hadisə və proseslərin səbəblərinin açılması kontekstində qadına münasibətin şərhinə daha çox diqqət ayrılmışdır.

Cəmiyyət əxlaqının dəyişməsinə dövlət idarəçiliyinin təsiri olduğu kimi, dövlət idarəçiliyinə də filosof və siyasətçilərin təsiri vardır. Əvvəllər bu məsələ ədəbiyyat, mütaliə vasitəsilə həyata keçirdisə, müasir qloballaşma, mədəniyyətlərin inteqrasiyası dövründə KİV-də reklam və populizm yolu ilə reallaşır. Məsələn: Çinli Daysaku İkeda "Həyatı seç"[90] kitabında cəmiyyətə hansı mesajı verir? "Olum, ya ölüm?" dilemması qarşısında ləyaqəti alçaldılmış, mənəviyyatı, qüruru, dəyərləri tapdanmış insanın cisminin qorunması insanlığa nə verə bilər ki? Fitri, mənə-

[88] Səma Məleykə, 2006, səh. 12-14.
[89] Qaçqınlar və məcburi köçgünlər, 2021.
[90] Тойнби Дж. Икеда Дайсаку, 2007.

vi dəyərlərindən uzaqlaşmış insanın robotdan fərqi yalnız aldığı nəfəsdədir. Dünyanı bürümüş "Koronavirus" epidemiyası ilə insanların aldığı nəfəsi də idarə edən qüvvələr meydana çıxmışdır. Müasir dünya gücləri elmin nailiyyətlərini bir sosial qrupun maraqlarına uyğunlaşdıraraq digər qrupların demoqra-fiya proseslərini tənzimləyərkən, minlərlə insanın məhvinə səbəb olmaqdan da çəkinmirlər. Düşüncə və ünsiyyət qabiliyyətli insanları məhv edərək, yerini robotlarla doldurmaq?! Həyatın bütün sahələrinə daxil olan robotlar müasir insanın idarəetmə funksiyasını asanlaşdıra bilər, lakin onun psixologiyasını, mənəvi xüsusiyyətlərini daşıya, ünsiyyət ehtiyacını ödəyə bilməz. Ağlasığmazlıqların reklamı və təşviqi ilə "mənəviyyatın gərəksiz olduğu" mesajını verən müasir beyin mərkəzlərini, həquiqətən sağlam məntiqlə qavramaq çətindir.

Ədəbiyyat üzrə Nobel mükafatı almış yazar Svetlana Aleksieviç "Müharibə qadın simalı deyil" əsərində insanların "ölümün nə olduğunu bilmədən həyat üçün öldüklərindən"[91] yazır. Həyat üçün ölmək? Bu ifadə dəlili olmayan sofistika, terminlərin əsassız identifikasiyasıdır. Əslində mübarizənin (hətta həyatı qurban verərək) səbəbi insanın fitrətində olan ədalət hissidir. Əxlaqlı insan ilahi nizamı, təbii harmoniyanı qorumağa çalışır; doğruların inkarına, zülmə, ədalətsizliyə qarşıdır; hətta ölüm qorxusu onu bu uca amaldan yayındıra bilmir. Həyat və ölüm, xeyir və şər kimi əks məzmunlu etik anlayışların identifikasiyası şüurda xaos yaratmağa xidmət edir. Doğrudanmı düşünən insanla nəsil artırmaq üçün axına qarşı üzən balıqlar arasında fərq yoxdur? Varsa, hansı daha təbiidir?

Əxlaq, mənəviyyat və dəyərlərin əhəmyyətsizliyini təbliğ edən müasir nihilizm insanlığa nə vəd edir? Allahın kitabları və peyğəmbərləri vasitəsilə bəşəriyyətə nəql etdiyi hikmət – həqi-

[91] Aleksiyeviç Svetlana, 2015, səh. 150.

qət artıq daşınmaz hala gəldimi? Nədir bitib-tükənməyən narahatlıqların, dünyaya hakimlik iddialarının səbəbi?

Çay yuxarı, axına qarşı üzən balıq insandan fərqli olsa belə, öz fitrətinə, funksiyasına sadiqdir. O, varlığını, təbiətdəki yerini, yaradılış funksiyasını davam etdirmək üçün mübarizə aparır. Bəs insanın mübarizəsi nə üçündür? İnsanın öz mövcudluğunu saxlaması və funksiyasını davam etdirməsi nəyə əsaslanır? Əslində insan da, balıq da həyatı və ya ölümü seçmir, sadəcə yaradılış funksiyasını icra edir: hər bir situasiyada var olmağa, kainatın ona aid hissəsini tamamlamağa çalışır. Qadınlıq da tamamlayıcılıqdır. O, vəhdət üçün çatışmayan, əskik qalan hikmətin tamamlayıcısıdır. Qadınları yaşadan – ünsiyyət, bölüşmə, paylaşma, bütünləşmə funksiyasıdır. Bu fitri funksiyadan kənar qadın - qadın deyildir.

Yaxından tanıdığım bir qız vardı. Magistraturanı əla qiymətlə bitirib universitetdə işləyirdi. Həkimlər səhhəti ilə əlaqədar övlad sahibi ola bilməyəcəyini söyləmişdilər. Lakin o məhz ana olmaq arzusu ilə ailə qurdu. Çünki qadınlıq fitrətini və funksiyasını dərk edən biri idi, yarımçıq olmaq istəmirdi, tamlığa, bütövlüyə can atırdı. Öz funksiyasını daşıyan, Allahın onun üçün hazırladığı nemətlərlə yaşayan qadın, ana olmaq istəyirdi. O, ölümü seçməmişdi, seçə bilməzdi... Ölümün "gözlə-qaş arasında", "çağrılmamış qonaq", "haqq" olduğuna inanırdı: hədəfində bütövlük, tamlıq, insanlıq idealları vardı... Ölümü seçsəydi, həyat çox mənasız olardı onun üçün, hər şey başlamamış bitərdi. Artıq ona verilmiş həyatı seçmək düşüncəsi də absurd idi. Onun bütün varlığı dəyərlər uğruna səfərbər olmuşdu. Postmodern dünyaya, cəmiyyətə yeni münasibətlər paketi təklif edən gender proqramlarına, demoqrafik fəlsəfi nəzəriyyələrə rəğmən, qəlbinin səsinə qulaq asmış, fitrətinə uyğun davranmış, ilahi funksiyasının icrasını canından üstün tutmuşdu... O həyatı bahasına olsa da, yabançı tendensiyaya qarşı durdu, fitrətini, iradə azadlığını qorudu,

ailə qurdu, qısa da olsa, analıq hisslərini yaşadı; insan kimi gəldiyi dünyadan insan kimi də köçdü...

Maraqlıdır ki, ölümündən bir-neçə il sonra yuxuma əlindən tutduğu oğlan uşağı ilə girmişdi. Mən ondan soruşdum: "Bu uşaq kimindir? O isə gülərək mənə cavab verdi: Kimin olacaq, əlbəttə mənim, 3 yaşındadır" Təəccüb və həyəcandan oyandım, onun ölüm tarixini yadıma saldım. Belə çıxırdı ki, o, öldüyü gün həsrətində olduğu oğluna qovuşmuşdu. Elmin təsdiq və ya inkar edə bilmədiyi, lakin müqəddəs mətnlərdə xəbər verilən "şəhidlik və cənnət haqqında Allahın vədi" yerinə yetmişdi sanki... Quranda Allahın vədinin həqiqət olduğu xəbər verilir.

Bəs postmodern dünya insandan aldıqlarının yerinə nə təqdim edir? Daysaku İkedanın irəli sürdüyü ideyaya uyğun - fikrən hər hansı bir tarixi prosesin əksini fərz edək. Tutaq ki, ikinci dünya müharibəsi illərində - ekstremal şəraitdə insanların çoxu faşizmə qarşı çıxmayaydı, ədalət və xəyanət, ləyaqət və rəzalət haqqında düşünmədən, nəyin bahasına olursa olsun həyatı – yaşamağı üstün tutsaydılar, nəticə necə olardı? Dünya faşizmin köləsinə çevrilməzdimi?! İnsanlığı itirərək həyatı seçmək kimə lazımdır?

Keçən əsrin sonları və XX əsrin əvvəllərində dünyanın müxtəlif ərazilərində tətbiq olunan tibbi, siyasi, hərbi, sosial-psixoloji təcrübələr, "haramın lüqallaşdırılması"[92] məhz "həyatı seçmək" nəzəriyyəsinin təsiri altında etik dəyərlərə etinasızlıqdan qaynaqlanır. "Beşikdən qəbrə qədər öyrənilən bilik" insanlığı zülmlə barışmağa sövq etdirmək üçün deyildir. Atom bombası faciəsindən sonra bütün gücünü və iradəsini həyatın, insanlığın bərpasına yönəldən Yaponiya, faşizmə qalib gələn Sovetlər birliyi, Amerika ilə müharibədən qalib çıxan Vyetnamın ayaq üstə qala bilmək dirənişinin əsasındakı dəyərlər gözdən düşməməli, əksinə qorunub gələcək nəsillərə ötürülməlidir.

[92] Cavadlı Qəmər, 2017, səh. 333

Tədqiqatlardan məlum olur ki, cəmiyyəti formalaşdıran müasir nəzəriyyələrin əksər müəllifləri, siyasətçi və idarəçilər əsasən kişilərdir. Deməli, həyatın davamı üçün, insanlığın mütərəqqi inkişafı üçün ictimai məsuliyyət onların üzərindədir. Akademik A.Yakovlev qadınları (məsələn: Raisa Qorbaçovanı) zamanın və ya mühitin öldürdüyünü iddia[93] etməzdən əvvəl bir qədər düşünsə, qadınlara münasibətdə kişilərin məsuliyyətini çox asan anlaya bilər. Cəmiyyətin idarəçiliyi əsasən kişi qisminin üzərindədirsə, fərdlərin tərbiyəsi ilə əsasən qadınlar məşğul olur. Qadınlar şəxsiyyət yetişdirmə funksiyalarını dərk etsələr, nəzəriyyənin reallaşma subyektləri rolunda çıxış etdiklərini bilərlər. Tarixdən yaxşı tanıdığımız Fironun arvadı Asiya, İsa peyğəmbərin anası Məryəm, Muhamməd peyğəmbərin birinci arvadı Xədicə, Muhamməd peyğəmbərin üçüncü arvadı Aişə, Muhamməd peyğəmbərin qızı Fatimə kimi qadınlar öz mənəviyyatları və davranışları ilə qadınlıq örnəyidirlər. Bəşəriyyəti "olduran" və ya "öldürən" onların öz yaradılış fitrətlərinə sadiqlik səviyyələridir. Müasir qadınların anlayış və seçimləri yeni nəslin inkişafını təmin edir. Yeni nəsil gələcəyin idarəçiləridir. İnsanın dünyaya gəlməzdən öncə 9 ay ana bətnində qalma müddəti də nəzərə alınarsa, qadının ictimai funksiyası və cəmiyyətdəki rolununun əhəmiyyəti dünyada heçnə ilə müqayisə oluna bilməz.

## 2.3. Məkan və qadın

Avropa və Asiyanın qovşağında, böyük İpək yolunun üzərində yerləşən qədim mədəniyyətlər beşiyi olan Azərbaycanda qadına münasibəti ədəbiyyat və sənət nümunələri ilə yanaşı, real həyat gerçəkləri nümayiş etdirir. Bəzən hadisə və prosesləri məkan anlayışı ilə bağlayır, müxtəlif regionlardakı fərqli münasibətləri coğrafi fərqlərə müncər edirlər. Əlbəttə, insanların həyat

[93] Яковлев Александр, 1999.

tərzləri və məşğuliyyətləri məkana bağlıdır. Cəmiyyətdəki norma və dəyərlərlə qadının ictimai funksiyası arasında mütənasiblik vardır. Təsir əks təsirə bərabərdir. Coğrafi faktorların sosial münasibətlərə, ayrıca qadına münasibətə təsirini söyləmək çətin olsa da, konkret ərazidə qadına münasibət haqqında fikir mübadiləsi aparmaq olar.

Azərbəycan mədəniyyətində qadınlara münasibətin tarixi-bədii nümunələrindən biri "Kitabi-Dədə Qorqud" dastanıdır. Dastanda cərəyan edən hadisələrin tarixi haqqında tədqiqatçılar tərəfindən müxtəlif versiyalar irəli sürülmüşdür, hətta XI-XV əsrlərə aid olduğunu söyləyənlər də vardır... "Salur Qazanın evinin yağmalanması" boyunda isə məsələyə aydın ipucu vardır: "Varıban Peyğəmbərin yüzini görən, gəlübəni Oğuzda sahabəsi olan, acığı tutanda bıqlarından qan çıqan Bığı qanlu Bügdüz Əmən çapar yetdi: - Çal qılıcın, bəgüm Qazan, yetdim!" – dedi..."[94] Məlumdur ki, Peyğəmbər VII əsrdə yaşamışdır və sahabələrindən biri Azərbayacanda İslamı yaymışdır (məlumatı tarixi abidələr təsdiq edir). Dastanda Peyğəmbərin üzünü görən sahabədən - Salur Qazana köməyə gələn Bügdüz Əməndən bəhs edilməsi hadisələri VII əsrə aid etməyə imkan verir.

Dastan Azərbaycan dövlətçiliyinin əsasları və ailə mədəniyyətinin güzgüsüdür. Kitabi-Dədə Qorqudda qadın yalnız köməkçi, tamamlayıcı personaj olmayıb, həm də proseslərin əsas, həlledici, fəal, stimulverici tərəfi kimi təsvir olunur. Ailə münasibətlərində qadına görə kişi, kişiyə görə isə qadın idealı yüksəkdə durur. Dastanda qadın və kişi rolları xaraktercə fərqlənsə də, bərabərhüquqludur: fiziki və mənəvi üstünlüyün cinsi məhdudiyyəti yoxdur. Kişi üçün bəyənilən şəxsi keyfiyyətlər qadın üçün də bəyənilləndir.

Qadının üstün keyfiyyətlərə malik olması tələbini dastan qəhramanlarından biri olan Qanturalının təsəvvürlərindən öyrə-

[94] Kitabi-Dədə Qorqud, 2004, səh. 49.

nək: "Ata, mənə bir qız alıb ver ki, mən yerimdən durmadan o durmuş olsun! Mən qaracıq atıma minmədən o minmiş olsun! Mən döyüşə getməmiş o mənə baş gətirsin!" [95] Belə bir qızın cehizi də təbii ki, at, dəmir dəbilqə və nizə idi. Yalnız bu halı ilə Selcan xatun həmin zamanda və həmin məkanda igid Qanturalıya həqiqi həyat yoldaşı ola bilərdi. Əsrlər keçməsinə baxmayaraq bəlkə də bu səbəbdən yalnız Azərbaycanda "həyat yoldaşı" sözü ailədə həm ərə, həm də arvada aid edilir.

Dastanda kişi xarakteri və onun qadına münasibəti "Qanlı qoca oğlu Qanturalı" boyunda da çox gözəl izah olunur. Qanturalı bəyənib seçdiyi, "İgidim, bəy igidim, bu düşmənin bir ucu sənin, bir ucu mənim"[96] deyən qorxmaz, cəsur, mərd xatunu Selcanın üstünlük və şöhrətinə qısqanclıqla yanaşır. Düşmən basqınından onu xilas edən, yaralı halda atının tərkinə alıb döyüş meydanından çıxararaq ölümdən qurtaran, ayıq-sayıq yarının qız-gəlin içərisində öyünərək lovğalanması zənni ona rahatlıq vermir. Bu xəcalətdən qurtarmağın yeganə yolunun onu öldürmək olduğunu söyləyir. Selcan xatun əsəbləşir və ona döyüşməyi təklif edir. Ox atmalı olurlar. Qanturalı birinci Selcanın ox atmasını tələb edir. Selcan yarına qıymır, gizlincə dəmir ucluğunu çıxardığı oxu elə atır ki, onu yaralamasın. Qanturalı Selcanı sınamaqda yanılmadığını başa düşür, artıq oxunu atmır və qadına münasibətini aşağıdakı sözlərlə çatdırır:

"Par-par yanan, parıldayan incə donlum!
Yeriyəndə yerə qədəm basmayan,
Qar üstünə qan dammış tək al yanaqlım!
Qoşa badam sığmayan dar ağızlım!
Qələm ilə rəssam çəkən qara qaşlım!
Hörükləri qırx tutamlıq qara saçlım!

---

[95] Kitabi-Dədə Qorqud, 2004, səh. 248.
[96] Kitabi-Dədə Qorqud, 2004, səh. 258.

Aslan nəsli, sultan qızı,
Heç mən səni öldürməyə qıyardımmı?
Öz canıma qıyardım, sənə qıymazdım;
mən səni sınayırdım."[97]

Dastanda qadınların kişidən daha yaxşı at çapan, ox atan, ov ovlayan, döyüşən olmalarına baxmayaraq, dikbaşlı olmamaları, kişidən üstün olduqlarını biruzə verməmələri, təvazökarlıqlarını qorumaları, ərlərinin hörmətini saxlamaları tövsiyə olunur.

Kitabi-Dədə Qorqudda qadın xarakterlərinin müxtəlifliyi maraqlı, ibrətamiz dəlillərlə açıqlanır: "Arvadlar dörd cürdür: birisi soy soldurandır; birisi toy doldurandır; birisi evin dayağıdır; birisi necə desən, bayağıdır."[98]

"Evin dayağı" o qadındır ki, evə bir qonaq gəlsə, yedirər-içirər, abır-həya ilə, hörmətlə yola salır. Beləlləri Ayişə, Fatimə kimi müsəlman xanımların tərbiyəsini götürənlərdir. "Soy solduran" qadınlar gizlicə yerindən qalxar, əl-üzünü yumadan doqquz bozlamacla bir bardaq qatığı tıxıb-basıb doyunca yeyər, əlini belinə qoyub deyər: "Bu evi görüm, xaraba qalsın! Ərə gedəndən bəri qarnım doymadı, üzüm gülmədi. Ayağım başmaq, üzüm yaşmaq görmədi... Ah, nə olaydı, birinə də gedəydim. Umduğumdan da yaxşı-uyğun olaydı."[99] Dastanda ozan belə qadınlar üçün "uşaqları böyüməsin! Heç ocağa belə arvad düşməsin" deyir.

"Toy dolduran" qadınlar səhər yerindən qalxan kimi əl-üzünü yumadan obanı dolaşar. Şayiə yayar, qeybət edər, qapılara qulaq asar... Günorta evinə gələr, görər ki, "oğru köpəklə yekə dana evini qatıb-qatışdırmış; evi toyuq hininə, inək damına dönmüşdür. Qonşularından umar-küsər ki: "Qonşu haqqı - Tanrı haqqıdır. Mənim evimə baxsaydınız nə olardı?" Ozanın belə qa-

[97] Kitabi-Dədə Qorqud. 2004, səh. 259.
[98] Kitabi-Dədə Qorqud. 2004, səh.175.
[99] Kitabi-Dədə Qorqud. 2004, səh.175

dınlara münasibəti açıqdır: "Heç bir evə belə arvad gəlməsin, beləsinin uşaqları böyüməsin!"

O qadın ki, "necə desən, bayağıdır" əri evdə olanda evinə qonaq gəlsə, əri desə ki, dur çörək gətir, yeyək; qonaq da yesin. Arvad deyər: "Neyləyim, bu yıxılmış evdə un yox, ələk yox... Dəvə də dəyirmandan gəlmədi... deyə üzünü o tərəfə, sağrısını ərinə döndərər. Min söylərsən, birisini eşitmez, ərin sözünü vecinə almaz. Ozan deyir ki, belə qadınlar Nuh peyğəmbərin eşşəyi nəslindəndir. Ocağınıza belə arvad gəlməsin!"[100]

Dastanda qeyd olunan xasiyyət sahiblərinə müasir cəmiyyətdə də rast gəlinir. Onlara münasibətdə incə bir məqamın gözdən qaçırılması problemi günümüzə qədər daşıyır və təbii ki, davranış davam etdikcə yaxşılığa doğru dəyişiklik baş vermir. Həmin məqam qadının əri ilə əlaqədardır. Ər xanımına münasibətdə öz nəfsini cilovlaya və Allahın ölçüləri ilə rəftar edərsə, problemi çözmək mümkün olur. Ailə münasibətlərində ərin qadından tələbləri onun haqqını üstələdikdə problemlər artır. Dastanda qeyd olunduğu kimi, real həyatda da qadınlara münasibətdə qadınlıq, analıq funksiyasını aşan tələblər mühitində "ərin sözü" "ərin haqqı" anlayışından daha çox qabardılır. Hal bu ki, ailə münasibətlərində "ərin sözü" və "ərin haqqı" - "qadının sözü" və "qadının haqqı" arasında ziddiyyət yaratmamalıdır, əks halda problem dərinləşir. Təəssüf ki, insan haqlarının pozulması yalnız cəmiyyətdə fitnə-fəsada səbəb olmur, eyni zamanda ailə kimi möhkəm bağı qıra, sosial-psixoloji institutu dağıda bilir.

Suriyalı mütəfəkkir Ömər Übeyd Həsənə yazır ki, müasir cəmiyyətdəki yanlışlıqlardan biri Peyğəmbərin (Ona Allahın salam-duası olsun!) və Raşidi xəlifələrinin dövründə qadınlara verilmiş hüquqlara sonralar riayət olunmaması və onlara öz mövqelərini tutmaq imkanının yaradılmamasıdır. Qadınların İslam

[100] Kitabi-Dədə Qorqud. 2004, səh. 175.

islahatçılığındakı fəaliyyətləri kənar və alt haşiyələrlə məhdudlaşdırılmışdır...[101]

Tarixi proseslər və müasir dövrün problemləri kontekstində müəllifin fikri əsaslı görünə bilər. Lakin xatırlayaq ki, həyatda asan heçnə yoxdur və qadınlar cəmiyyətdəki fəallıqlarını artırmaq üçün xüsusi şərait yaradılmasını gözləməməli, şəxsi və ictimai təşəbbüskarlıq göstərməli, onlara gözəl aqibət və cənnət qazandıracaq saleh əməllərini artırmalıdırlar: kişilərə tərəf-müqabil olaraq cəmiyyətin inkişafına, çiçəklənməsinə yardım etməlidirlər. Çünki Yaradan Allah o haqqı və hüququ qadına vermiş, kitabları və peyğəmbərləri ilə təsdiq etmiş, VII əsrdə Quranla vəhyini tamamlamışdır. Həmin prinsiplər dünya dövlətlərinin qanunlarında təsbit olunaraq hüquqi status almış və müasir dövrümüzə gəlib çatmışdır. Dəyərlər onlara sahib çıxanları ucaldır. Məsələnin çətin tərəfi də məhz dəyərlərə sahib çıxmaq, qoyulan həddlərə riayət etdməkdir.

"Kişinin və ya qadının üstün olmasını müəyyən-ləşdirmək" kimi faydasız müddəalarla ömürləri çürütmək əvəzinə, artıq müəyyən olunmuş ölçülərlə yaşamaq daha asandır. Bütün dövrlərin aktual kitabı Qurani-kərimdə oxuyuruq: "Allahın (maddi və ya mənəvi cəhətdən) birinizi digərindən üstün tutduğu (birinizə digərinizdən artıq verdiyini düşündüyünüz) şeyi (özünüzə) arzulamayın. Kişilərin qazan-dıqlarından öz payı, qadınların da qazandıqlarından öz payı vardır. Allahın lütf etdiyini istəyin! Şübhəsiz ki, Allah hər şeyi biləndir"[102]

Düşündürücü deyilmi? Bizim eradan 3500 il əvvəl Mesopotamiyada, Qədim Misirdə, Hindistanda Vedalar dövründə qadın hüquqları qorunduğu halda, nə üçün Çin, Yunan, Roma və Qədim Avropa cəmiyyətlərində qadınlara kölə münasibəti bəslənirdi?.. Həmin fərqləri yaradan səbəblər bu gün dünyanın hər ye-

[101] Əbu Şəqqə, 2014, səh. 7
[102] Qurani-kərim, 4/32

rində, eləcə də Azərbaycanda aktualdır. Əgər cəmiyyətin kişi və qadın tərəfi dini və dünyəvi funksiyasını dərk edir və qarşılıqlı münasibətlərdə sağlam ruhi-intellektual mövqe tutursa, zamanın, dövrün, ictimai-iqtisadi durumun o qədər də fərqi yoxdur. Tədqiqatlar göstərir ki, cəmiyyət ilahi hikmətə nə qədər yaxındırsa, fərdi və ictimai münasibətlərdə Allahın ölçülərinə əməl edirsə, o qədər hüzur və rahatlıq tapır. Əksinə, fərdlər və toplum ilahi hikmətdən, zamanın sınağından keçmiş universalilərdən uzaqlaşdıqca çeşidli bəlalara düçar olur.

Əlcəzairli mütəfəkkir İbn Badisin (1889-1940) məsələyə münasibəti daha real təsir bağışlayır: "Bu ümmət qadın və kişilərdən ibarət "qanad"lara sahib olmadıqca uça bilməz"[103] Deməli "tək əldən səs çıxmaz", fəaliyyət birliyi olduqca vacibdir.

İnsan və cəmiyyət bilmədiyinin düşmənidir: öyrənmək zəhmətinə qatlaşmayanlar fobiyalara qapılırlar. Yalnız Azərbaycanda deyil, dünyanın başqa yerlərində də qadına münasibəti əhalinin dünyagörüşü və mədəniyyəti tənzimləyir. Din haqqında doğru-dürüst məlumatı olmayan biri gözünü yumub din təəssübkeşliyi edir və ya din əleyhinə təbliğat aparır. Anlamır ki, hər sözün və əməlin bədəli vardır. Hər davranış bir iz, bir təəssürat, təsirdir. Cəmiyyəti qadınların qayğısına qalmağa çağıran İslamın yayılmasından əsrlər keçməsinə baxmayaraq, hələ də keçmiş cahiliyyə çağında qalan və özlərini Firon kimi aparan "müsəlmanlar" aramızdadır. Tarixdə iz qoymuş qadın qəhramanlarla müqayisədə bu gün sözünü deməyə çətinlik çəkən, haqqını ifadə edə bilməyən, əzilən, hüquqları tapdalanan, çıxış yolunu intiharda arayan qadınlar inkişafın yox, tənəzzülün göstəricisidirlər. Biliksizlik hüquqsuzluğu doğurur.

Tarixin müxtəlif dönəmlərində hətta din xadimlərinin İslamı olduğu kimi insanlara çatdırmadıqları acı gerçəklikdir. Lakin bu gün informasiya bolluğu, KİV inkişaf etdiyi zamanda həqiqət-

[103] Əbu Şəqqə, 2014, səh. 7

dən bixəbər qalmaq şəxsiyyət problemi olub fərdin ruhi-intellektual, sosial-psixoloji durumundan irəli gəlir.

İslamda qadınların yalnız evdə oturararaq övlad tərbiyəsi ilə məşğul olmalı olduqlarını söyləyənlərə Quranda, bütün peyğəmbərlərin, xüsusilə Muhamməd peyğəmbərin örnək həyatında doğru cavablar vardır. Şərq müsəlman qadını qədim və orta əsrlərdə olduğu kimi, bu gün də sosial-mədəni həyatın nüvəsini təşkil edir. Onun öz funksiyasını dərk etməsi çox vacibdir. Geridə qalmış, savadsız, hüquqlarından məhrum müsəlman qadını stereotipini dağıtmaq üçün Peyğəmbər və səhabələrin zamanında zərif məxluqların sosial-mədəni həyatdakı danılmaz rolundan bəhs edən sanballı ədəbiyyatla tanış olmaq və ya həmin mənbələr əsasında yazılmış müasir tədqiqatları oxumaq kifayətdir. Onlardan biri misirli mütəfəkkir Əbdülhəlim əbu Şəqqənin (1924-1995) "Peyğəmbər dövründə qadın azadlığı" adlı elmi əsəridir. Əsər İslam dini və tarixi mənbələrinin araşdırılması nəticələrinə istinadən müasir dövrdə qadına münasibətin tənzimlənməsi, qadınların ictimai rollarının artması, funksiyalarını dərk etmələri, ailə münasibətlərində rast gəlinən bir-sıra mübahisəli məsələlərə aydınlıq gətirmək nöqteyi-nəzərindən faydalıdır. Çünki daxildə və xaricdə İslama düşmən qüvvələrin fəaliyyətlərinə rəğmən din hələ də ən güclü təsir və tərbiyə vasitəsidir. Din qadına ülviyyət və şərəf bəxş edir, ona ucalıq və etibar qazandırır.

Müəllif kitabı yazmaqdan məqsədinin qadın mövzusunda haqqı demək, onu "müasir büt"lərə sitayişdən, buxovlardan ayıraraq Allahın dininə xidmətə yönəltmək olduğunu bildirir. Əbu Şəqqəyə görə, sağlam və möhkəm cəmiyyətin qurulmasına aparan yolda müsəlman zehniyyətinin təshihi çox önəmlidir. O yazır:

"Çünki qadın müsəlmanın həm anası, həm bacısıdır, həm zövcəsi, həm qızıdır. Əgər qadın bütün bunları özündə birləşdirirsə, ondan daha dəyərli kimsə vardırmı?!... Peyğəmbər demiş-

dir: "Qadınlar və kişilər bir bütövün parçalarıdır."""[104] Təsadüfi deyil ki, İslam dininə görə kişilərin ən xeyirlisi arvadı ilə xoş dolanan, arvadların ən xeyirlisi əməlisaleh (bu isə yalnız ər ilə xoş davranmaqla bitməyən, ümumilikdə cəmiyyətə faydalı xidməti olan şəxsiyyət anlamına gəlir) olandır. İslamın kişi və qadın örnəyi müasir dövrün kişi və qadınları üçün də aktual, ideal sayıla bilər. Nəzərə alınsa ki, qadınlar VII əsrdə:

İctimai fəaliyyətlə məşğul olmuşlar;[105]

Üstün mövqeyə malik olmuşlar;[106]

Elm öyrənmək, işləmək, gəlirlərini idarə etmək, ər seçmək, cihad və icmanın mühüm qərarlarının qəbulunda müstəqil olmuşlar;[107]

Sosial həyatda fəal olmuş, kişilərlə ünsiyyət etmiş, onlara elm öyrətmiş;[108]

Sədəqə vermiş, həcc etmiş, bayram, toy və mərasimlərdə camaata qatılmışlar,[109] müasir dünyanın bir çox məkanlarında, eləcə də Azərbaycanda qadına münasibətin nə qədər geri qaldığını etiraf etmək yerinə düşər.

Ə. Şəqqə müasir qadının əsasən iki növ cəhalətdən doğan vəhşiliyə məruz qaldığını qeyd edir: a) hicri XIV əsrdən qalma ifratçılıq, təzyiqlər, ənənəvi kor təqlid cəhaləti ("dörd divara həbs etmək"); b) miladi XX əsrdən qalma çılpaqlıq, ifrat sərbəstlik (nihilizm) və Qərbi kor-koranə təqlid cəhaləti ("küçəyə atmaq") Hər iki növ cəhalət Allahın qanunlarına ziddir.[110] Beləliklə, müasir qadınlar əsasən iki zidd yanaşmanın təsiri altında istismara məruz qalırlar: təcridetmə və himayədən məhrumetmə.

[104] Əbu Şəqqə, 2014, səh. 19
[105] Əbu Şəqqə, 2014, səh. 37-69
[106] Əbu Şəqqə, 2014, səh. 71-83
[107] Əbu Şəqqə, 2014, səh. 85-103
[108] Əbu Şəqqə, 2014, səh. 341-374
[109] Əbu Şəqqə, 2014, səh. 433-482
[110] Əbu Şəqqə, 2014, səh. 19.

İfrat qısqanclıq zəminində "dörd divar arasına həbs edilmək" və məişət zorakılığı zəminində "küçəyə atılmaq" təhlükəsi müasir Azərbaycan qadınına yad deyil. Psixoloji təzyiq, döyülmə, maddi-mənəvi istismar, cinsi zorakılıq, sağalmaz xəstəliklər qadın ölümləri ilə sonlana bilir və yaxud sadalanan təhlükəli, dözülməz situasiyalar zəminində yaranan depressiyalar qadınların intihar etmələrinə səbəb olur.

Son vaxtlar Azərbaycanda intihar hallarının sayı artmaqdadır. İntihar faktlarının dəqiq statistikası aparılmasa da, mətbuat orqanlarında az qala hər gün bir-neçə nəfərin intihar etməsi barədə məlumatlar oxuyuruq. Azərbaycanda intihar statistikasına aid bir məlumatda göstərilir ki, yalnız 2018-ci ilin birinci yarısında 310 ölümlə nəticələnən intihar və ya intihara cəhd baş vermişdir. Bunlardan 200-ə yaxını birbaşa ölümlə nəticələnən intihar hadisəsidir. Bütün bu intihar hadisələrini törədənlərin ortalama yaşı 37 olub. İntihar edən ən gənc insanın 11 yaşı, ən yaşlısının isə 87 yaşı olmuşdur. Hər yaş qrupundan intihar edənlərin olmasına baxmayaraq, bu hadisələri törədənlərin təqribən yarısının yaşı 15-35 yaş intervalında dəyişir. Bakı, Gəncə, Sumqayıt və Mingəçevir kimi böyük şəhərlərlə yanaşı, Tovuz, Şəmkir, Cəlilabad, Bərdə, Şəki kimi bölgələrdə 2018-ci ilin ilk yarısında daha çox intihar hadisələri qeydə alınmışdır.[111]

İnsan öz ağlını, ruhi-intellektual potensialını adətən həyat ideallarına yönəldir. Bilərəkdən öldürmə və intihar situasiyaları bu idealların bitməsi və ümidlərin itməsi əlamətidir. İnsanın həyat mübarizəsinin istiqamətini ölümə çevirməsi həyat eşqinin sönməsi, insanlığın faciəsidir. Həyat imtahanında dünyanın fani, keçici, axirətin əbədi, qəzavü-qədərin Allahdan olduğuna inanan müsəlman daha səbrli və təmkinli ola bilir; "min dərd, min bir dərman verən" Allahın böyüklüyünə iman gətirir və "Lə iləhə illəllah!" deyərək Rəbbinə yönəlir; duasız qalmır, gələcəkdən

[111] Aslanlı, Azərbaycanda intihar statistikası, 09.08.2018.

ümidini üzmür, yaşadığı dünyadakı bilik, imtahan və çətinliyin labüd qarşılığına şəksiz inanır. Qarşılıqlı münasibətlərdəki ziddiyyətlər kimin haqlı olması dilemmasından qaynaqlanır, birlikdə mutlu olmağı düşünən isə azdır. Qadına münasibətdə yaranan problemlər çox zaman haqqı bilmədən özünü haqlı sanmaq zənnindən irəli gəlir. Düzgün tərbiyə bilik və əxlaqın vəhdətində təcəssüm edir.

Qədim Azərbaycan dastanları və folklor nümunələrində qadınların öz xeyir-duaları ilə daim kişilərə dəstək olmaları, şirin dil, xoş xasiyyət və gülər üzlə ən sərt məqamları yumşalda bilmə bacarıqları təqdir olunur. Qadınlıq funksiyası haqqında qədim və müasir mənbələrdə çox geniş informasiya vardır. Lakin bu funksiyanın dərki, qorunmasının əhəmiyyəti, ümumiyyətlə qadına münasibət bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də fərqlidir. Əsrlər keçməsinə, gender proqramlarının tətbiqinə, yeni dəblərin yayılmasına baxmayaraq qadının funksiyasının cinsəlliklə, ailə çərçivəsi ilə məhdudlaşması, bərabər hüquqlu şəxsiyyət kimi ictimai rolunun nəzərə alınmaması hələ də qalmaqdadır. Qadın hələ də dinin öyrətdiyi kimi zərif, himayə olunan məxluq, qanunların təsbit etdiyi kimi bərabərhüquqlu tərəfdaş statusunu layiqincə yaşamaqdan məhrumdur. O daha çox idarə olunur, hətta istismar olunur: dini, etik, hüquqi normalardan kənar fərdi və ictimai davranışlara məruz qalır.

Paradoksal olsa da, cəmiyyətin dini biliyi zəif qismi qadına münasibətdəki problemləri dinlə, intellekti, ümumi dünyagörüşü zəif olanlar isə modernləşmə ilə əlaqələndirirlər. Əslində həm din, həm də modern layihələr insan nəslinə xidmət edir: biri ruhunu və mənəviyyatını, digəri intellektual səviyyə və mədəniyyətini dəyişdirir.

Müasir texnoloji inkişaf insan nəslinin daha tərbiyəli və vicdanlı olmasını tələb edir. Çünki, modern imkanlar müqabilində idarəçilərin dar düşüncəli olması bəşəriyyəti qlobal təhlükələrə atır. Hər bəşəri təhlükə insan nəslinin bağlayıcı halqası olan qa-

dın amilində daha qabarıq üzə çıxır. Rusiya dövlətinin başçısı V.Putinin müxtəlif vaxtlarda Gürcüstanın, Azərbaycanın müstəqilliyinə müdaxilələri və hazırda Ukraynaya qarşı apardığı müharibə yüzlərlə insanın həyatına son qoymaqla bitmir, qadınları ərsiz, anaları ürəyi dağlı, körpələri yetim qoyur. Müharibələr zamanı daha çox ailə başsız, uşaqlar, qadın və qızlar himayədən məhrum qalırlar. Şahidi olduğumuz müharibələr Hantinqtonun dediyi kimi sivilizasiyaların deyil, cahil beyinlərin, xəbis məqsədlərin toqquşması, yol verilən ədalətsizliyə laqeyd münasibətin labüd nəticəsidir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da himayə anlayışı çox zaman kişi cinsinin qadın cinsini, böyüyün kiçiyi, güclünün zəifi nəzarətdə, (hətta basqı və təzyiq altında) saxlaması kimi başa düşülür. Əsrlər keçməsinə baxmayaraq, cəngəllik qanunundan sıyrıla bilməyənlər öz radikallıqlarını dəyərlərə müncər edir, ac ruhlarını mənəvi qida ilə doyurmaq əvəzinə, kənarda təqsirkar axtarırlar. Şəfqət və məhəbbət qaynağı olan dindən yararlanmayan, mədəni zənginlikdən kənar mühitin yetişdirməsi olan insanların tərbiyə etdikləri nəsillər eyni yanaşmanı gələcək nəsillərə və ictimai münasibətlərə ötürərək cəmiyyətdə qeyri-bərabərlik, təzyiq və radikalizm, sosial-psixoloji problemlər mənbəyinə çevrilirlər.

## 2.4. Qadına münasibətin mədəni-mənəvi əsasları

Tədqiqatlar göstərir ki, qadına münasibətdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə zidd halların yaranması daha çox fərdi xarakter daşıyır. Lakin qeyd olunan hallar son dövrlərdə tez-tez baş verərək ictimailəşdiyindən dərin narahatlıq yaradır. Hazırda mənəvi və hüquqi normalara riayət ədəbinin könüllü olması, idarəçilik səviyyəsində yerli, spesifik proqramların olmaması, əsasən beynəlxalq proqramlar çərçivəsində qlobal sosial-psixoloji fəaliyyətlərin genişləndirilməsi, beynəlxalq konvensi-

yalara qoşulmaq tələblərinin get-gedə məcburi xarakter alması lokal birlik və cəmiyyətləri daxildən parçalayır.

Ailə kiçik dövlətdir. Obyektiv və subyektiv səbəblərdən Azərbəycan ailəsi də məhz dövlət bayrağında əks olunduğu kimi türklük, İslam və müasir dəyərlər sayəsində məzmun qazanır. Respublika ərazisində coğrafi, mədəni, iqtisadi səbəblərdən asılı olaraq bu təsirlərin nisbəti dəyişsə də, nəticə etibarilə qadına münasibətdə fərqli tendensiyalar müşahidə olunur. Hazırda Azərbaycanda qadına münasibəti tənzimləyən üç real faktor: din, adət-ənənə və müasirlik aktualdır.

Ailədə qadına münasibət azəri-türk adət-ənənələri, İslam dəyərləri və müasirliyin nisbəti ilə ölçülür. Dövlətdə yazılı qanunlar və onların icra mexanizmi nə qədər mühüm rol oynayırsa, ailədə "yazılmamış qanunlar", dini-etik faktorlar və davranış mədəniyyəti daha effektiv təsir bağışlayır. Müasir ailələrdə qadına münasibətdə peygəmbərlər örnəyindən tutmuş, "Məcnun".., "Otello".., "Kərəm".., Hüseyn Cavid.., Xəlil Rza Ulutürk… və s. kimi fərqli yanaşmaların şahidi olmaq mümkündür. Gündəlik həyatda və Azərbaycan ədəbiyyatının şifahi və yazılı nümunələrində geniş əks olunmuş personajları sadalamadan mövzunun tədqiqat nəticələrinə keçmək istərdim.

Azərbaycanda "ana torpaq", "ata yurdu" ifadələri vardır. Elə bu iki ifadənin daşıdığı məna yükünü, tədqiq etmək qadın və kişinin funksiyaları, eləcə də qadına münasibət barədə bir çox mətləbləri aşkara çıxarır. Torpaq müqəddəsdir, qorunandır. Torpağı yurd etmək, vətən, ölkə, dövlət etmək müəyyən münasibətlər və fəaliyyət nəticəsində mümkündür.

Kişinin qadına münasibətində də müəyyən oxşarlıqlar vardır. Yurd yeri üçün hər hansı deyil, müəyyən, əlverişli torpaqlar seçilir. Digər tərəfdən "Dədə Qorqud" söylədiyi kimi, "Torpağı əkib-becərməyəcəksənsə, qorumağına, qorumayacaqsansa əkib-becərməyinə dəyməz". Qadını torpaqla müqayisə edərkən, onun qəlbi, ləyaqəti, təfəkkürü, müstəqil seçim azadlığı kimi xüsusiy-

yətlərinə kölgə salmaq yox, həyati əhəmiyyətini vurğulamaq, "ruzi kimi" bərəkətli övladlar yetişdirmək fitrəti nəzərdə tutulur. Yalnız onun özəl keyfiyyətlərinin qayğı və qorunması sayəsində dünya rifaha, əmin-amanlığa, bəşəriyyət səadətə qovuşa bilər. Azərbaycan mədəniyyətinin güzgüsü olan dastanda qadına münasibət ibrətamizdir:

"Bəri gəl, başımın baxtı, evimin taxtı!
Evdən çıxıb yeriyəndə sərv boylum!
Topuğuna sarmaşanda qara saçlım!
Qurulmuş yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Payız almasına bənzər al yanaqlım!
Qadınım, dayağım, döl verənim!" [112]

Bu misralar qadının təbiət kimi gözəl, xüsusilə son misra - torpaq kimi məhsuldar və bərəkətli olmasına işarədir. Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatında qadına münasibəti əks etdirən nümunələrdə din faktoru - İslam dəyərləri xüsusi mahiyyət kəsb edir. Təəssüf ki, zaman dəyişsə də, insanlar tərəfindən nəsnələrin funksiyası, öznələr, məqsəd və vəzifələrin dərki problemləri dəyişmir. Dünyadan narazı, həyatın çətinliklərindən bezən insanlar Yaradanın onları yaratmaqda məqsədinə əhəmiyyət vermədən, fərqli - özlərinə məxsus çıxış yolları axtarırlar. Nəticədə problemləri çözmək və asanlaşdırmaq əvəzinə daha da mürəkkəbləşdirdiklərinin fərqində olmurlar.

Əsrlərdən bəri adət-ənənələrimizə hopmuş hikmətin mötəbər mənbəyi Qurani-Kərimdə qadına münasibət olduqca aydın izah olunmuşdur: "Onlarla ünsiyyət edəsiniz deyə, sizin üçün zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm

[112] Kitabi-Dədə Qorqud, 2004, səh. 177.

üçün ibrətlər vardır!”[113] Deməli, Yaradanın bəndələrindən tələbi ünsiyyətdir. Hər şey ünsiyyətin təmizliyinə və səmimiyyətə bağlıdır. “Ey insan, ünsiyyət et – sevgi, mərhəmət qazan ki, dünyanın bütün nemətləri sənin olsun...” deyir bu hikmət.

Allahın dini İslam zorakılığa qarşıdır. İslamın qadınlara münasibətinin əsasında halallıq, həlimlik və səxavət vardır. “Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! Açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin. Əgər onlara nifrət etsəniz, ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah çoxlu xeyir nəzərdə tutmuş olsun.”[114] Quran ayəsi insanlara mərhəməti, gözəl rəftarı və səbri tövsiyə edir. Hətta xoşlamadığımız, nəfsimizə, istəyimizə ağır gələn məqamlarda xeyir ola biləcəyi xəbər verilir.

İslam dinində olduğu kimi, sivil dövlətlərin konstitusiyalarında və eləcə də Azərbaycan qanunlarında kişi və qadın hüquqları bərabərdir. Onlar arasındakı münasibətlər hikmətlə, universal dəyərlər, bəşəri ölçü və hüquqi normalarla tənzimlənir. Quranda insanlara hikmətlə davranmaq tövsiyə olunur: “Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tuturlarsa, onları özünüzə dost bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar.”[115]

Həyat mübarizədir. Qadın və ya kişi olmasından asılı olmayaraq, hikmətdən kənar düşmək zəlalət və məğlubiyyətlə nəticələnir. Həyat mücadiləsinin qalibləri haqqında İslamın mübarək kitabında buyrulur: “Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlar ən zəlil kimsələr arasında olacaqlar! And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik.”[116]

---

[113] Qurani-kərim tərcüməsi, 1992, ər-Rum/21.
[114] Qurani-kərim tərcüməsi, 1992, ən-Nisə/19.
[115] Qurani-kərim tərcüməsi, 1992, ət-Tövbə/23.
[116] Qurani-kərim tərcüməsi, 1992, Mücadilə /21, 23

İslam dininə görə, qadınlar əmanət olduqlarundan, Allah-Təala onların qorunub himayə olunmasında dörd kişini məsul hesab etmişdir: ata, qardaş, oğul, ər. İnsan adətən sevdiyini qoruyur. Bəzən qıza, qadına məhəbbətin yetərincə olmaması yaxud əksinə, ifrat təəssübkeşlik onların hüquqlarını məhdudlaşdırır ki, nəticə etibarilə bütün cəmiyyətin nizamının pozulmasına, bəşəriyyətin fəlakətinə səbəb olur. Azərbaycan mütəfəkkiri Hüseyn Cavidin "Peyğəmbər" əsərindən götürülmüş aşağıdakı parçada bu vacib amil xüsusi olaraq diqqətə çatdırılır:

"O bir mələk… onu təqdis edər böyük Yaradan.
O pək sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır fəqət cənnət:
Qadın gülərsə şu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək"[117]

Müasir nəzəriyyələrdən fərqli olaraq, İslam tərbiyə haqqını kişiyə vermişdir. Ehtimal olunur ki, kişilər qadınlara nisbətən daha konkret və rasionaldırlar. Deməli situasiyanı dəyişməyə və idarəçiliyə daha çox qabildirlər. Lakin bəzən onlar öz iti zəkalarından və intellektlərindən daha çox fiziki üstünlüklərinə güvənirlər. Halbuki Hz. peyğəmbərin (s) əxlaqı gözəl, rəftarı mülayim, əsas tərbiyə metodu söhbət olmuşdur. Məhz söhbət sayəsində ünsiyyət, qəlbi əlaqə qurulur, ruhi yaxınlıq cilalanır. Peyğəmbərimiz Məhəmməd (s) "Təbəssüm sədəqədir" demişdir. Cəlaləddin Rumi isə "İnsanın necə güldüyündən ədəbini, nəyə güldüyündən ağlını anlaram" - söyləyərkən, təbəssümün həm də sahibinin şəxsiyyət göstəricisi ola biləcəyini vurğulamışdır.

Muhamməd (s) peyğəmbərdən ən çox sevdiyi şey soruşularkən: "Namaz, qadın, xoş rayihə" - deyə cavab vermişdir. İslamda qadına məhəbbətin bəyan edilməsi ilə yanaşı, bu sevginin ifa-

[117] Cavid Hüseyn, 2005, səh. 192.

də yönləri, konkret sübut və dəlilləri vardır. İslamda qadına məhəbbət yalnız gözəl sözlər, qəlbi vəcdə gətirən qısa müddətli münasibətlərdən ibarət deyildir, əsaslı, etibarlı və qadının müstəqilliyini saxlayan amillərlə qorunur.

Müasir Azərbaycanda əxlaqi-etik, hüquqi normalarla yanaşı, qadının maddi-mənəvi müstəqilliyini tənzimləyən dini mexanizmlər vardır. İslama görə, ailədə halallığın, qadına qayğının və onun haqqının qorunmasının konkret göstəriciləri olan: 1) mehr, 2) nəfəqə, 3)əmlakın ayrı olması, 3) vərəsəlik prinsiplərinə riayət olunması vacibdir.

1. Mehr. Ərin evlənərkən arvadına verdiyi pul və ya mala "mehr" deyilir. Ailə quran qadının zəruri haqqı olan mehr, onun üçün iqtisadi dəstəkdir. Qurani-Kərimdə buyrulur:

"...Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin azad və ismətli qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır..."[118] "Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin!.."[119]

Şəriətə görə mehr vacib, toy xərci, hədiyyə və zinət əşyaları isə ərin istəyi və səxavətinə müvafiq hesab edilir. Mehrin miqdarı üçün hər hansı bir məhdudiyyət yoxdur. Qadın boşanmadıqca onu (mehri) heç kəs, hətta qadının öz valideynləri belə götürüb sərf edə bilməzlər. Quran ayəsində boşanma ərəfəsində olan kişilərə müraciətlə bildirilir: "...Onlardan birinə çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın!.."[120]

2. Nəfəqə. Evli qadının yemək-içmək və ev xərcləri ərinə aiddir. Evin və evdəki əşyaların təmiri də kişinin öhdəliyindədir. Hətta ər və arvad boşandıqda da müəyyən istisnalar mövcuddur. Quranda belə buyrulur: "...Anaların yeməyi və geyimi öz qüv-

---

[118] Qurani-kərim. Tərc., 1992, Maidə/5
[119] Qurani-kərim. Tərc., 1992, ən-Nisə /4
[120] Qurani-kərim. Tərc., 1992, 4/20

vəsi dairəsində uşağın atasının üzərinə düşür…”[121] “Varlı-karlı olan öz varına görə süd haqqı versin. İmkanı az olan isə Allahın ona verdiyindən versin. Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz. Allah hər bir çətinlikdən sonra asanlıq əta edər.”[122]

Azərbaycan ailələrində qadına münasibət və qayğını ifadə edən “yazılmamış qanunlar”dan biri də hər övlad doğulanda ərin öz maddi imkanı müqabilində xanımına qızıl zinət əşyası və s. hədiyyə bağışlamasıdır. Azərbaycanda bu mövzuda “Mücrü” adlı qısametrajlı film də çəkilmişdir. Həmin filmdə ər hər dəfə övladı dünyaya gələrkən xanımına bir qızıl zinət əşyası bağışlayır. İllər keçir, ikinci dünya müharibəsi başlayır, ata davaya gedir və bir daha qayıtmır. Ana yoxsulluqdan əziyyət çəkən ailəni dolandırmaq və övladlarına təhsil vermək üçün zinət əşyalarını satmalı olur, mücrü boşalır. Lakin sonradan mücrü yenidən dolur: bu dəfə övladların ali təhsil diplomları ilə. Bu gözəl ənənə ata həyatda olmasa belə, övladların himayəsində iştirakını təmin edə bilir. Filmdə nümunəvi azərbaycanlı ailəsində qadına münasibətin sosial mahiyyəti çox gözəl açıqlanmışdır.

3.Əmlakın ayrı olması. İslama əsasən ər işləyərək özünün, arvadının və uşaqlarının dolanışığını təmin etmək məsuliyyətini daşıyır. Dinə görə qadının gəliri olsa belə, o ailə xərclərini təmin etməyə məcbur deyildir. Ancaq öz istəyi ilə işləyərək və yaxud miras yolu ilə əldə etdiyi gəliri ailə məsrəflərinə sərf edərsə, sədəqə vermiş hesab olunur. Bundan başqa qadın özünə aid gəlirləri ailə xərclərinə qarışdırmayaraq xərcləmək hüququna malikdir. Özünə aid daşınan və daşınmaz əmlakı mülkiyyətində saxlaya, yaxud qərz (borc) olaraq ərinə verə bilər. Ər öldükdə və ya boşandıqda ona məxsus mal, pul və əşyalar mirasdan kənar he-

[121] Qurani-kərim. Tərc, 1992, 2/33
[122] Qurani-kərim. Tərc, 1992, 65/7.

sablanır. Dini mənbələrdə qadının özünə aid evi birgə yaşamaqları üçün ərinə kirayə verə bilməsi də qeyd olunur. [123]

4.Vərəsəlik. Hz. Peyğəmbər (s) Süraqə ibn Malikə demişdir: "Sənə ən üstün sədəqə haqqında xəbər verimmi? Boşanmış, yaxud əri vəfat edərək sənə pənah gətirən və səndən başqa gedəcək kimsəsi olmayan qızına yiyə durmağındır".[124] Allahın kitabına hörmət və və buyruqlarına riayət olan ailələrdə birmənalı şəkildə əzab-əziyyətə yer yoxdur. İmam Qəzaliyə (1058-1112) görə qadına şəhvət yox, şəfqət nəzəri ilə baxılarsa, Allah-təalanın izni ilə kişinin şəhvəti də təmin olar.

Əsrlər keçməsinə baxmayaraq indi də ailədə qadına münasibətin xarakteri ailə üzvlərinin İslam dəyərlərinə yanaşması ilə düz mütənasibdir. Müsəlman ailəsində tərəflər arasındakı məsuliyyət daha dərindən dərk olunur, halallıq qorunur, sədaqət, ən başlıcası isə münasibətlərdəki səmimiyyət və dürüstlük gözlənilir. İslama iman gətirən şəxslər bir qərar alarkən nəfslərinə xoş gələnə deyil, müqəddəs kitabın (Qurana) hökmlərinə riayət edərlər.

Hazırda ailə institutlarının sarsılma təhlükəsindən ən etibarlı çıxış yolu Quranı öyrənmək və ihya etməkdir. Allahın buyurduqlarına əməl etmək, qadağan etdiklərindən çəkinməklə insan özünü və ailəsini, bütövlükdə cəmiyyəti pis aqibətdən xilas edə bilər. Onun müvəffəqiyyəti, dünya və axirət səadəti Allah kəlamına sədaqəti ilə düz mütənasibdir: artdıqca artar, azaldıqca azalar. L.C.Mövsümova yazır: "Ruhi qidası, imanı, əxlaqi təməli olmayan insanlığın inkişafı məhvə məhkumdur. Bu, mənim qənaətimdir, hazırda yaşadığımız dünyada baş verənləri diqqətlə izləməyimin nəticəsidir."[125]

---

[123] İbnül Human, Fəthül-Qədir, III cild, səh. 321-339; Kasani, Bədai, IV cild, səh. 14, 15.

[124] İbn Macə, Ədəb, III cild, Hədis № 3667.

[125] Мовсумова Л.Д, 2000, стр. 7.

Dini mətnlərdə tövsiyə olunan dəyişməz ruhani prinsiplər insanların inamından asılı olmayaraq mövcuddur və təbiət qanunları kimi hər zaman həyatımızda təsirlərini göstərir.

"İnsanların çoxu maddiyyatı mənəviyyatdan üstün tutur. Yəni maddi rifah əsas hədəfə çevrilir, həqiqət, gözəllik, yaxşılıq və sevgi bu məqsədə çatmaq üçün vasitə sayılır. Bu zaman bəzi istəklər qəbahətə, məmnuniyyət ziyana çevrilir: ya dərhal, ya daha sonra. Bəzən bu barədə qabaqcadan təsəvvürümüz belə olmur. Ona görə də vəziyyəti düzəltmək istəyəndə büdrəyərək səhv dalınca səhv edirik. Ağrı və əzabdan qurtulmaq, mənəvi rahatlıq tapmaq üçün nə edəcəyimizi və necə davranacağımızı bilmirik."[126]İslam insanlara dünya həyatında rast gəldikləri bütün çətinliklərdən üzü ağ çıxmaq yollarını göstərir. "Biz nə üçün özümüzün və başqalarının bədbəxtliyinə səbəb olan hərəkətlər edirik?" sualına L. Mövsümovanın cavabı belədir: "Səbəb çox sadədir. Biz ona görə bədbəxt oluruq ki, yalnız öz xoşbəxtliyimiz haqqında düşünür, başqalarını unuduruq... halbuki Allahın ölçüləri haqqında bilik bizə öz səhvlərimizi anlamağa və düzəltməyə kömək edə bilərdi."[127] Məhz ilahi hikmətin sevilərək, əməl olunaraq sonrakı nəsillərə çatdırılması müdrik kəlamlar şəklində yaddaşlarda yaşayır və dövrümüzə gəlib çatır. Unutmaq olmaz ki,

Əməl əkən - vərdiş biçər,
Vərdiş əkən - fəzilət və ya qəbahət biçər,
Fəzilət və ya qəbahət əkən – xasiyyət biçər,
Xasiyyət əkən – tale biçər.

Ona görə də insanlar bədən sağlıqlarını qoruyan qidalanma ilə yanaşı ruhi salamatlıqlarını təmin edən, ünsiyyət və ictimai birliyi qoruyan mənəvi qida – hikmətə də laqeyd olmamalı, hərəkət və davranışlarında insanlıq hədlərinə həssas yanaşmalıdırlar.

---

[126] Мовсумова Л.Д, 2000, стр. 7.
[127] Мовсумова Л.Д, 2000, стр. 8.

## 2.5. Cəmiyyətdə kişi-qadın münasibətləri

Platon "Ziyafət" dialoqunda məhəbbəti müdrikliklə fəzilətin qovuşması adlandırmışdır. Esxilə görə isə, müdriklik çox şey bilmək deyil, lazım olanı bilməkdir. İnsanlara nəyin lazım, nəyin lazım olmadığını göstərən ən mükəmməl mənbə fraqmental şəkildə dövrümüzə gəlib çatan digər dinləri və peyğəmbərləri təsdiq edən tam dini mətn - Qurandır. Quran ayələrinin əməli icrası nümunəsi isə Muhamməd peyğəmbərdir. Müsəlman həyatının, xüsusilə qadına münasibətin ən gözəl örnəyini Muhamməd peyğəmbərin davranışlarında görmək olar. Məsələn: boşanma Allah tərəfindən halal buyrulsa da, Peyğəmbər xanımlarını boşamadan da onlarla xoş keçinmişdi; Quran qadını vurmağa icazə versə də, o qadınlarının heç birini nə yamanlamış, nə vurmuş, nə də istəmədiyi bir şeyə məcbur etmişdi. Onun ən güclü silahı könülləri qazanmaq, sevgi olmuşdu. O qadının əmanət, kişinin libası və haramdan qoruyanı… olduğunu örnək əxlaqı ilə isbat etmişdi. Müxtəlif xasiyyətli qadınlarla xoş, münaqişəsiz, boşanmadan, hüzur dolu yaşamın mümkünlüyünü göstərmişdi – görmək, eşitmək, bilmək istəyənlərə. Onun tərbiyəçisi Quran, dini İslam, həyatı, əxlaqı və əməli müsəlmanlıq idi.

İdealı tanımaq insanlığı müasir həyatdan uzaqlaşdırmır, əksinə davranışlarımızı cilalayır və insanlıq funksiyamızı xatırladır. Gözəl süfrə açmaq da daxil olmaqla, D. Yumun nəzərincə "hörmətə layiq hər şey bizdə məhəbbətin oyadıcısı rolunu oynayır".[128]Başqalarının çox adi baxdığı hadisə və proseslər qədirbilən tərəf müqabildə həyat və sevgi motivinə çevrilir. Azərbaycan şairi Xəlil Rzanın öz həyat yoldaşı Firəngiz xanıma həsr etdiyi "Gözəlsən" şeirindəki kimi:

[128] Göyüşov , 1972, səh. 344-345.

"- Gözəlsən! – deyirəm. Maraqlanırsan:
- Söylə… axı mənim nəyim gözəldir?
Gözəldir ismətin, utanmağın da.
Əllərin qoynunda dayanmağın da…
……………………………………
Gözəldir butalı ağ kəlağayın.
Evində iş lampan, ondördlük ayın,
Zəhmətdən yaranmış səadət payın.
……………………………………..
Gözəldir ah çəkib köks ötürməyin.
Mənə öz əlinlə çay gətirməyin.
Qapını üzümə açmazdan öncə
Özünə bir azca sığal verməyin.
Sənlə mən, bir də ki, dəniz sevgimiz
Həyatda bəlkə də dünyadan əziz!" [129]

Şeirdə diqqətəlayiq cəhətlərdən biri müəllifin sevimli xanımının yalnız fərdi xüsusiyyətlərinə deyil, həm də əməyinə, ictimai mövqeyinə (4-cü bənd, 3-4-cü misralar) və şəxsiyyətinə hörmət bəsləməsidir.

Məhəbbət etirafları adətən isti münasibətlərin, xoş təəssuratların, qeyri-adi anların nəticəsi kimi təzahür edir. Lakin tərəflər arasında anlaşılmazlıqlar, ziddiyyətlər yaranarkən belə, rəğbət hissinin azalmaması məhəbbətin bütövlüyündən, qəlbin genişliyindən xəbər verir. Hətta ən gərgin anda belə bu məhəbbət zəifləmir. Şair yazır:

"Üzümü danlama, mələyim mənim,
Ovcumda açılan çiçəyim mənim.
Başqa bir cismdə, başqa köksdə
Çarpan, çabalayan ürəyim mənim.

[129] Xəlil Rza, 1982, səh. 115-116.

Üzümü danlama, üzüm sənindir.
Kəsmə gəl sözümü, sözüm sənindir.
Deyirsən: - Çıxırsan cızığından a!
Çılğınlıq mənimdir, dözüm sənindir.

Danlama… bu dünya ölüm, itimdir.
Səndən ayrı düşmək, inan, çətindir.
Bütün suçlarımın, günahlarımın
Bircə səbəbkarı məhəbbətimdir."[130]

Mətbuatda, efirlərdə yayımlanan ailə münaqişələrinin, zorakılıq və qəddarlıq faktlarının əsas səbəbi cahillik, dinsizlik, əxlaqsızlıqdır. Müasir zamanda ailədə qadına münasibətin yaxşılaşması İslam maarifçiliyinin yeni dirçəlişi sayəsində qeyd olunan problemlərin aradan qalxması ilə mümkündür. İslamın mənbəyini öyrənmədən və örnəyini tanımadan din haqqında yanlış təsəvvürlərə qapılmaq nadanlığa səbəb olur. Biliksizlik, tərbiyəsizlik, ətalət mühitində olan toplumu əsarət altına salmaq daha asandır.

Müasir elmi-fəlsəfi təlimlərin xarakterik cəhətlərindən biri tədqiqiat obyektinə kompleks, sistemli yanaşmaqdır.[131] "Köhnə", lakin həmişə aktual problemlərə yeni yanaşma tərzi kimi meydana çıxan gender tədqiqatlarında qarşılıqlı münasibətlər, davranış və rəftarın sosial-iqtisadi, psixoloji, etik, siyasi inteqrasiyası "Gender" adı ilə tarazlaşdırılır. "Gender problemləri qlobal problemlər sistemində sülh və müharibə məsələlərindən sonra öz aktuallığı ilə ön sırada durur. Niyə? Çünki cəmiyyətdə elə təsəvvür yaranıb ki, "kişi-qadın "soyuq müharibəsi"ndə gender

[130] Xəlil Rza, 1982, səh. 118.
[131] Никифоров А. Л., 1998, 280 с.; Завьялова М. П., 2007, 160 с.; Комаров М.С., 1982, 128 с.; Штофф В. А., 1978, 269 с.; Новиков А.М., Новиков Д.А., 280 с.; İsrafilov M., 2005, 335 s.; Məmmədov Ə.B., 1997.

müqaviləsi "atəşkəs"ə bənzəyir, yəni münasibətləri harmoniyalaşdırır" [132]

Gender tədqiqatları göstərir ki, ""kişi-qadın" sosial çarpazında qadının fəal lakin pərdələnən mövqeyi formalaşmış, sosial rəy qazanmış və geniş yayılmışdır, kişilərin mövqeyi isə kompensator - aqressiv xarakter daşıyır və mahiyyətcə passivdir."[133] R.Mirzəzadənin bu fikirlərini təsdiq edən faktlara nəzər salaq.

"Speys" televsiyasının proqramlarından birində anası ölmüş üç uşağın baxımsız qaldığını göstərən süjetdə cavan, sağlam, qüvvətli ata uşaqlarına qoşulub ağlayır: acizliyindən, imkansızlığından, uşaqları dolandıra bilməməsindən şikayətlənir... Arvadının ölümündən sonra özünə cavan, gözəl başqa qadın tapan və evlənən, hətta yeni övladlar dünyaya gətirməyə hazır olan kişi məsələ ailə dolandırmağa, arvad-uşaq saxlamağa gələndə acizlik göstərir və cəmiyyətdən yardım diləyir...

Tədqiqatlarda qadın adətən emosional, kişi isə rasional düşüncəyə malik fərd hesab olunur.[134] Yuxarıda xatırlanan hadisədə isə reallıq başqadır: Uşaqlarını dünyaya gətirəndə düşünməyən "ata" indi camaatdan soruşur ki, "onları necə saxlayım? İş dalınca gedirəm, qayıdanda uşaqları ordan-burdan axtarmalı oluram". Doğrusu bu düşüncədə rasionallıqdan əsər-əlamət yoxdur. Analar var ki, tək başına həm işləyir, həm də övladını böyüdür və tərbiyə edirlər. Çünki fədakarlıq canlarındadır, onlar yalnız emosional deyil, həm də praktikdirlər. Qayğı çəkmək istəyən adam onun yollarını da tapır. Qayğı çəkmək, məsuliyyət daşımaq istəməyən, asan yola qaçan insanın isə bəhanəsi bitməz. Belələri cəmiyyətdə özlərinə haqq qazandırmağa, düşünülməmiş hərəkətlərini özünəməxsuz şəkildə əsaslandırmağa çalışır, özündən başqa hər kəsi və hər şeyi təqsirkar hesab edirlər. Bu gender

---

[132] Mirzəyeva, 2013, səh. 132

[133] Mirzəyeva, 2000, səh. 15

[134] Çələbiyev, 2015; Əlizadə, Abbasov, 1989; Дружинин, 2006; Харчев, 2007; William, Jay, 2005.

problemindən daha çox mənəvi çatışmazlıq, etik, əxlaqi problemdir, bəzi istisnalar nəzərə alınmaqla, kişilərin bütün məsuliyyəti qadınların üzərinə yükləməsi kimi meşşan xarakterin nəticəsidir.

Qeyd etmək lazımdır ki, İslam sosio-mədəni həyatın bütün sahələrinə nüfuz etdiyi kimi gender problemlərinin həllinə də işıq tutur. Yuxarıdakı problem "Qurani-kərim" hikmətinə laqeydlik şəraitində yaranmışdır. Elm, öyüd-nəsihət, hikmət mənbəyi olan müqəddəs kitabda buyrulur: "Evlənməyə qüvvəsi çatmayanlar, Allah öz lütfü ilə onlara dövlət verənə qədər gözləsinlər". [135] Ailə saxlamağa imkanı olmayan, daha doğrusu, bu məsuliyyəti dərk etməyən kişi evlənməməlidir. Evlənən kişi ailəsinin yemək və geyimini təmin etmək vəzifəsini bilməklə yanaşı, baş verə biləcək problemləri həll etmək şüuru və qabiliyyətinə də malik olmalıdır. Ailə məsuliyyət, öhdəlik və vəzifələrə hazır olmağı tələb edir. İslama görə ailə məsuliyyəti, dolanışıq təminatı, ananın və uşaqların mənafeyinin qorunması atanın vəzifələrindəndir. Ailədə həyat yoldaşına hətta "xadimə", "dayə", "..." nəzəri ilə baxan kişilər də onlara münasibətdə daha diqqətli olmalı, dünyada "ağlamamaq", Allahın qəzəbinə düçar olmamaq üçün əmanətlərə (qadınlara) sədaqət göstərməli, onların dəyərini bilməlidirlər.

Peyğəmbərimiz Muhəmməd (s): "Övlada gözəl ad vermək və onu yaxşı tərbiyə etmək atanın haqlarındandır"- demişdir. Diqqət etdinizmi? Adət-ənənədən fərqli olaraq din övladların tərbiyəsini ataya tapşırır. Hədisdə övlada qoyulan ad və tərbiyə vəhdətdə götürülür. Bu isə təsadüfi deyil. Şəxsiyyətin tərbiyəsi ona qoyulan adla başlayır. Görkəmli İslam alim Əbu Hamid Qəzali yazır ki: "Övlad 7 yaşına qədər sənin ətrindir – onu sevər, qoxlar əzizləyərsən; Sonrakı 7 ildə xidmətçindir (14 yaşına qədər valideynin dediklərinə əməl etməlidir - İ.Z.); Sonra isə, ya

[135] Qurani-kərim. Tərc., 1992, ən-Nur/33

düşmənin və ya ortağındır". Sonuncu mərhələ əvvəlki iki mərhələdə övlada verilən tərbiyədən və Allahın mərhəmətindən asılıdır.[136]

Azərbaycanda ailə məsuliyyətindən boyun qaçıran ataya "sən müsəlman deyilsənmi" sualı verilsə, bunu özünə təhqir hesab edər. Amma yuxarıda misal çəkdiyimiz hadisədə ata övladlarına baxa bilmədiyi üçün cəmiyyət qarşısına çıxaraq ağlamağı özünə rəva bilir, həm də böyüyüb gələcəkdə ata olacaq oğlan uşaqlarının yanında. İllər sonra hərəsi bir ailənin sahibi olacaq bu oğlan uşaqları atalarından hansı nümunəni götürə bilərlər? Təəssüf ki, olduqca aktual olan bu öz zamanında çox az insanı düşündürür.

Birinci və ikinci Qarabağ savaşından sonra Azərbaycanda atadan yetim qalan yüzlərlə uşaq vardır. Çox az ana olar ki, övladından imtina etsin, olsa da müvəqqəti, özünü toplayana, iş tapana, sosial durumunu nizamlayana qədər...

"Ata tək uşağa baxa bilməz" ənənəvi deyimi kişilərin "başının altına yastıq qoyur" və belə bir fikrin formalaşması əsrlərdir ki, davam edir. Tək baxa bilmir cüt baxsın, yaxınlarının köməyi ilə baxsın, amma baxsın - məsuliyyətdən qaçmasın. Çünki, heç bir bəhanə onu atalıq vəzifəsindən azad edə bilməz.

Elə övladlar vardır ki, təkcə ana himayəsində böyüyərək cəmiyyətdə fəal mövqe tutmuş, yaxşı ailə sahibi olmuşlar. Lakin bu heç də əsas vermir ki, övlad tərbiyəsində yalnız ananın - qadının rolu mütləqləşdirilsin. Həyat təcrübəsi göstərir ki, ananın himayəsində böyüyən oğulun tərbiyəsində mütləq bir kişi örnəyi olur: dayısı, babası, müəllimi və s. Yaxşı olardı ki, bu öz atası olsun. Övlada cavabdehlik, onun taleyinə məsuliyyət məsələsində atanın rolunun azaldılması qadına münasibətdə müasir cəmiyyətin ən böyük ədalətsizliyidir. Maraqlıdır ki, bəzən qız övladlarının tərbiyəsində fəallıq göstərməyən atalar onların ailə

---

[136] İmam Gazali, 1974, səh. 551.

qurmalarına yersiz müdaxilə edir, ailə qurduqdan sonra isə qızlarının problemləri ilə ümumiyyətlə maraqlanmırlar. Əslində hər bir qız övladının elə oğlan övladı kimi hər zaman valideynlərin dəstəyinə ehtiyacı vardır.

Ataların övlad tərbiyəsindən kənarda qalmasının səbəblərindən biri də qadın cinsinin ifrat fədakarlığıdır. Şahidi olduğum hadisələrdən birində təqaüdçü qadın oğlunun həyat yoldaşı öldüyünə görə qız övladlarını çox əziyyətlə öz yanında tərbiyə edirdi. Ona deyiləndə ki, ”Axı gəlinlərinin də valideynləri sağdırlar, özü də səndən çox imkanlı, qoy onlar baxsınlar”. O, deyirdi: “Nəvələrim bizim soyadımızı daşıyır, onların yox. Bu mənim borcumdur ki, nə qədər sağam, onları layiqincə tərbiyə edib yetkin yaşa çatdırım. Sonrasına Allah kərimdir”. Və o elə də etdi – oğlanlarına verə bilmədiyi tərbiyənin bədəlini özü ödədi. Bəs nədən bu qeyrətli ana özü kimi övladlar böyüdə bilmir? Sualın cavabını həyatını bölüşdüyü adamda – onun həyat yoldaşının xarakterində tapmaq olar.

Nəvələrini himayə edən təqaüdçü qadının əri (nəvələrin babası) nəinki onun fədakarlığını qiymətləndirir, hətta nəvələrini gətirib yerlərini dar, onları “boğazlarına şərik” etdiyinə görə nənəni danlayır, hər vasitə ilə nəvələrindən imtina etməsinə çalışırdı. Göründüyü kimi, meşşan düşüncə atadan oğula keçmişdi.

Bu bir fakt olsa da, bir daha cəmiyyətdəki kişi məsuliyyətsizliyinə və qadın fədakarlığına nümunədir. Paradoksal olsa da, belə situasiyalarda heç kəs övladın bilavasitə himayəçisi hesab olunan atanın məsuliyyətini yada salmır. Hətta baba təəssübkeşliyinin də şahidi olmuruq. Biz nənəni qınamaqdan tamamilə uzaq olsaq da bir faktı etiraf etməliyik ki, nəticə etibarı ilə ananın (nənənin) ifrat fədakarlığı oğulu və babanı vəzifə məsuliyyətindən azad edir, arxayınlaşdırır. Ana, bacı, xala, bibi, nənə - qadın fədakarlığına aid onlarla misal çəkə bildiyimiz kimi ata, qardaş, dayı, əmi, baba - kişi fədakarlığına aid çox az nümunə göstərmək olar. Cəmiyyətdə belə bir təzadın olması gender proble-

mi deyil, sadəcə dini maarifçiliyin aparılmamasının, sosial-psixoloji problemlərin artmasının nəticəsidir. Problem ailə başçısının öz hüquqi funksiyasını - himayəçilik vəzifəsini dərk etməməsi ilə əlaədardır. Funksiyasını bilməyən fərd onu ya ictimai qaydalar, ya da dini maarifləndirmə yolu ilə mənimsəməlidir.

## 2.6. Valideynlik funksiyası və qadının rolu

Hazırda gender tədqiqatlarının elmi nəticələrinin tətbiqinə baxmayaraq kişi və qadınların sosial funksiyalarının dərkində əhəmiyyətli irəliləyiş görünmür. Əksinə cinslər arasında ziddiyyətlər daha da kəskinləşir. Hələ də himayəçiliyi despotluq və zorakılıq anlayışları ilə səhv salanlar çoxdur. Bütün bunlar cəmiyyətdə insanlıq funksiyasının dərk olunmaması, şəfqət və sahiblik anlayışlarının doğru mənimsənilməməsi, başqasına diqqət və mərhəmət hissinin əskikliyi, sevərək yaşamaq və yaşatmaq cəhdinin yetərsizliyi ilə əlaqədardir.

Övlad tərbiyəsi olduqca vacib məsələdir. Reallıq belədir ki, çox vaxt bu missiyanı analar öz üzərlərinə götürürlər. Bu o demək deyil ki, atalar özlərini kənara çəkməli, yalnız pul qazanmaqla kifayətlənməlidirlər. Əsas məsələ - ailənin təminatının həm maddi, həm də mənəvi tərəfini görməkdir. Atanın borcu qabaqcadan ailənin mühafizəsini sığortalamaq üçün hər bir üzvün hüquq və vəzifəsini müəyyənləşdirmək, ailənin idarə olunmasını təşkil etməkdir.

Necə olur ki, kişi - yaxşı aşpaz, həkim, müəllim, dövlət başçısı ola bilir, lakin yaxşı ailə başçısı ola bilmir: övladının, xəstə arvadının, hətta anasının qayğıları ilə maraqlana bilmir. Əlbəttə, bilər, əgər "qadınlar imkan versələr" – öz dəyər və hüququqlarını bilərək tərəf müqabilləri ilə sözün həqiqi mənasında əməkdaşlıq etsələr. Lakin gerçək olan budur ki, həm kişilərin, həm də qadınların qüsurlarını yalnız qadınların ünvanına yazmaq cəmiy-

yətdə hələ də "norma" olaraq qalır. Gender münasibətlərində üstü örtülü qalan bu məsələyə aydınlıq gətirmək olduqca vacibdir.

Hüquq bərabərliyinin hakim olduğu cəmiyyətlərdə qanundankənar evliliklər, atılmış uşaqlar kimi ciddi problemlərdə qadınları birtərəfli şəkildə qınamaq ədalətsizlikdir. Heç nə əsas vermir ki, insan öz insanlıq missiyasına xilaf çıxsın: ayrıseçkilik etsin, zəif cins adlanan tərəfi daha çox yükləsin. Güclü zəifə təcavüz edib cəzasız qalırsa, zəif də qisas, yaxud özünümüdafiə məqsədi ilə alternativ üsullar axtarmalı olur. Bu isə problemi həll etmir, cəmiyyətdə gücə-güc tendensiyası yaradır. Məlumdur ki, boşanmaların çoxu kişilərin məsuliyyətsizliyi və ya qəddarlığı ücbatından olur. Cinsindən asılı olmayaraq, istənilən zorakılığın qarşısı qətiyyətlə alınmalıdır. İnsan insanı öz intellekti, məhəbbəti, faydası ilə sevdirməlidir, qol gücünə, mənəvi-psixoloji baskı ilə tabe etməməlidir. Hər halda cəmiyyəti təbiətdən, insanı heyvandan fərqləndirən müəyyən bəşəri dəyərlər vardır.

Aydındır ki, problemlər vaxtında həll olunmadıqda vəziyyət gərginləşir və konfilktlər daha da kəskinləşir. Ailə cəmiyyətin özəyi olduğu üçün xüsusi diqqət tələb edir. Ailə dağılanda uşaqların tamamilə ananın ixtiyarında qalması, ərin tezliklə başqa bir qadınla evlənməsinə və onu da eyni təzyiq altında ("onu boşadım, səni də boşayaram ha!") saxlamasına şərait yaradır. Qəribədir ki, müasir cəmiyyətdə vurub arvadının başını yaran kişi o qədər qınanmır, nəinki öz həyatını və ərini daha ağır cinayətlərdən qorumaq üçün polisə müraciət edən qadın qınanır. Tədqiqat və müşahidələr göstərir ki, şiddət və zorakılığa fərdi yanaşma özünü doğrultmur. Törədənin cinsindən və sosial mövqeyindən asılı olmayaraq, bütün növ zorakılıqlar, cəzasız qalmamalı, ailə üzvünə qarşı törədilən cinayət ikiqat cəzalandırılmalıdır. "Cəza xəstəyə verilən dərman kimi olmalıdır: həm xəstəni sağaltmalı, həm də başqalarına yoluxmasının qarşısını almalıdır... Cinayətlə mü-

barizədə cəza və cəmiyyət "müttəfiq" olmalıdır."[137] Yəni qanunvericilik cərimələr vasitəsilə büdcəyə pul gətirməkdən daha çox ədalətə, asayişə və ictimai nizama xidmət etməlidir. Zərərçəkmişlər də cəmiyyətdə nizam və ədalətin olmasından rahatlıq duymalı, əmin ola bilməlidirlər.

Mövlanə Cəlaləddin Rumi nə gözəl demişdir: "Qadınlar - ağıllı kişilərə qalib, cahillərə isə məğlub olurlar". Adətən qolu zorlu cahilin ailəsinə mərhəmət, məhəbbət, qayğı göstərməyə "ehtiyacı və marağı" olmur. Gender tədqiqatları bu diskriminasiyanın səbəbləri üzərinə köklənməlidir ki, maraqlar, tələblər və təkliflər gerçək həyatda, reallıqda fayda versin, ümumilikdə cəmiyyətin, yeni nəslin tərbiyəsində müsbət dəyişikliklər yaransın. Əslində məsələnin genderlə, cins fərqi ilə əlaqəsi çox azdır. Problem əxlaqi və hüquqi müstəvidəki boşluqlardan, nəzəriyyə və praktika arasındakı vəhdətin olmamasından qaynaqlanır.

Etiraf etməliyik ki, cəmiyyətdə güclü, qadınlara arxa-dayaq, ən əsası isə himayədar olan ağıllı kişilərə də rast gəlinir. Belə kişilər güclə birlikdə, ədalət və mərhəmət, xüsusilə əmanətə sədaqət hissinə, cavabdehlik məsuliyyətinə sahibdirlər. Tam inamla demək olar ki, bəzən taleyin amansız sınağına, tənhalığın bütün əzab-əziyyətinə qatlaşaraq öz şərəfli, müqəddəs missiyasına sadiq qalan atalarımız da az deyil. Deməli, övladın taleyinə biganəlik - yalnız "kişi problemi" yaxud gender problemi deyil, sosial-hüquqi, psixoloji problemdir.

Ata-ana çıxılmaz vəziyyətlərdə boşana bilərlər. Lakin uşağı dünyaya gətirib sonra atmaq, onu öz taleyi ilə baş-başa buraxmaq heyvandan da aşağı xislət, mənəviyyatsızlıq, əmanətə xəyanət, övlada qarşı "sui-qəsd"dir. "Valideynin övladına görə əziyyət çəkməməsi" (Bax: "...Heç kim gücünün çatmadığından məsul tutulmaz. Nə ana, nə də ata uşağına görə zərər çəkməli-

[137] Rahimov İlham, 2014, səh. 302.

dir! ...”[138]) haqqında Quran ayəsi övlad məsuliy-yətini valideynlərin üzərindən qaldırmır. Övlad yetkinliyə çatana qədər ana onu ruhi-mənəvi, ata isə həm də maddi cəhətdən gücü yetdiyi qədər himayə etməlidir. Müharibələrdə atasını itirən övladların məsuliyyətinin anaların üzərinə düşməsi və onlarda hər iki funksiyanı icra etmək vərdişlərinin yaranması, sonrakı nəsillərdə analoji olaraq kişi mühafizəkarlığını təşviq edir. Bu problem həm də analar, bacılar, nənələr və qız övladlarının son dərəcə fədakar və ifrat qəlbigenişliyinin bəhrəsidir.

Dində məcburiyyət olmadığı kimi, “məcburi mənəviyyat” da mümkün deyildir. Amma çox vaxt erkən tərbiyənin düzgün təşkili, doğru təbliğat, islahedici cəzalar insanın vicdanını oyadır. Qadınlar öz vəzifələrinin icrasında “qızıl orta”nı tuta bilsələr (öz hüquq və haqlarını dərk etsələr), cəmiyyətdə nüfuz qazanmış hörmətli din xadimləri, ağsaqqallar qadına münasibət barədə dini həqiqətləri gənc nəslin diqqətinə vaxtında çatdırsalar, təlim-tərbiyə müəssisələrində gənclərlə maarif-ləndirmə tədbirləri həyata keçirilsə, mövcud problemləri qismən azaltmaq olar. Gender tədqiqatları hormonlar üzərində eksperimentlər apararaq cinsi xüsusiyyətləri dəyişdirməkdənsə, təbii cinsi xüsusiyyətlərin gücləndirilməsinə, qadınla kişi arasında qarşılıqlı anlaşma, harmonik, təbii münasibətlərin yaradılmasına yönəldilsə cəmiyyət üçün daha faydalı olardı.

Ailələrdə böyüyən oğlan uşaqları elə tərbiyə olunmalıdır ki, çətinlikdən qorxmasınlar, zəhmətə alışan olsunlar, ailə başçısı, hami xislətini özlərində daşısınlar, gələcəkdə kişi olacaqları ilə fəxr etsinlər və bu adı layiqincə daşımağa həm əqli-intellektual, həm ruhi, həm də əxlaqi cəhətdən hazır olsunlar.

[138] Qurani-kərim tərcüməsi, 1992, 2/233

## 2.7. Dində qadına münasibət məsələləri

Azərbaycan əhalisinin böyük qismi İslam əqidəsinə xidmət edir, kitabımız "Qurani-kərim", örnəyimiz Muhəmməd(s) peyğəmbərdir. Dinimiz nəfsi ehtiyaca görə qadına zülm etməyi qadağan edir. Kişilər arasında ədalətli, dürüst, yaxşını pisdən ayıra bildiyi üçün yeri gələndə qadını cəzalandırmağa haqqı olan peyğəmbərimiz (s) çoxarvadlı olmasına baxmayaraq tarixi mənbələrdə, onun qadınları hər hansı bir şəkildə incitməsi barədə məlumata rast gəlinmir.[139] Deməli, o, qadınlarla doğru davranmağın örnəyidir. Bəs görəsən arvad-uşağına zülm edən kişilərin örnəyi kimdir? Onlar özlərini müsəlman hesab edib əslində Firon kimi davranırlar. İstər keçmişdə, istərsə də müasir dövrdə (hətta qeyri-müsəlmanlar arasında) çoxarvadlı olub böyük ailəsini lazımınca idarə edən, yaxud bir arvadı olub kiçik ailəsini dolandıra bilməyən kişilər haqqında yetərincə məlumatlar vardır. Müşahidələrdən bir daha aydın olur ki, problem erkən evlilik və ya çoxarvadlılıqdan daha çox insani natamamlıq və şəxsiyyətsizlikdən irəli gəlir... Hətta qanun icazə versə belə, qadın həyat yoldaşı üçün o qədər dəyərli ola bilər ki, kişi ikinci bir evliliyə ehtiyac duymaz və ömrü boyu bir qadına sadiq qalar. Əslində ailə məsuliyyətini dərk etməyən, mərhəmət və sevgi hissindən məhrum, kobud bir kişinin yeganə arvadı olmaqdansa, sözün həqiqi mənasında məsuliyyətini dərk edən və hər iki dünyada Allahın razılığını qazanmaq istəyən müsəlman kişinin bir-neçə arvadından biri olmaq daha münasibdir.

Peyğəmbərimiz (s) "Cənnət anaların ayaqları altındadır" deməklə insanları sevgiyə, qayğıya, qadına məhəbbətə və hörmətə dəvət edir. Analar da oğullarını peyğəmbər (s) əxlaqı ilə böyütməlidirlər ki, gələcəkdə nə ailəsini, nə də ümumiyyətlə himayəsində olanları (ana, bacı, nənə, bacı qızı, qardaş qızı, qaynana)

[139] Gümüş Sadrettin, tarixsiz, səh. 43-88.

ehtiyac yarandığı hallarda bu və ya digər bəhanə ilə diqqətdən kənar qoymasınlar.

Quranın "Nisə " surəsində bəyan edilir: "Ey insanlar! Sizi tək bir özdən iki cins olaraq yaradan, sonra ikisindən bir çox kişilər və qadınlar törədib çoxaldan Rəbbinizdən qorxun. Adını dilinizdən düşürmədiyiniz Allaha qarşı ehtiram göstərin, ailə bağlarını qoruyun. Unutmayın ki, Allah hamını çox yaxşı görür."[140] Ayədəki "nəfsi vahidə" kəlməsi tək öz, canı bir, bir nəfs, bir ruh - mənalarını verir. Yəni kişi və qadın "tək bir özdən" var edilib və yaranış olaraq biri-digərindən üstün deyildir, deməli onların "bərabərlik" uğrunda mübarizəsi əsassızdır. Nisa surəsindəki ayələrdə bir çox haqların qadınlara verildiyi, İslamın gəlişi ilə qadınların tapdanmış hüquqlarının bərpa olunduğu, vəziyyətlərinin yaxşılaşması naminə cəhdlər edildiyi xatırlanır.

XI əsrin görkəmli mütəfəkkiri Əbu Hamid əl-Qəzali deyirdi ki, Qadına şəhvət gözü ilə deyil, şəfqət gözü ilə baxarlar. Bu gözəl kəlama əməl edən Allahın savabını qazanar və yəqin ki, şəhvət ehtiyacından da naümid qalmaz. Kişi üçün özgüvən hissi nə qədər vacibdirsə, qadın üçün güclü arxaya ehtiyac hissi, onun qədrini bilmək və ondan faydalanmaq hissi daha vacibdir. Qadın ağılda özünə arxalansa da fəaliyyətdə kişinin köməyinə istinad edərkən daha güclü olur. Azərbaycan ailəsində qızları əsasən evdarlığa hazırlayırlar. Rəftar, davranış, özünə hörmət, haqlarını bilmə və bu haqqı çox nəcib şəkildə ətrafından tələbetmə səriştəsi ikinci plana keçir. Bəyəndiyimiz və dillər əzbəri olan xalq nağıl və dastanlarımızdan çox az bəhrələnirik. Dastanlarımızda, şfahi və yazılı ədəbiyyat nümu-nələrində əsil qadın şəxsiyyətinin mahiyyəti açılır: qəhrəmanlıq, səmimiyyət, qabiliyyətlə birlikdə şirin dil, təvazökarlıq, zəriflik... ən əsası isə kişi heysiyyat və vüqarına hörmət və tərəfmüqabilliyi dəyərləndirmə bacarığı.

[140] Qurani-kərim tərcüməsi, 1992, ən-Nisə/1

"Qurani-kərim"də qadınlara xitabən deyilir: "Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açılıb-saçılmayın (bərbəzəyinizi taxaraq evdən çıxıb gözəlliyinizi yad kişilərə göstərməyin!). Namaz qılın, zəkat verin. Allaha və Rəsuluna(s) itaət edin. Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər!"[141] Haqq kitabımızda göstərilir ki, açıq-saçıqlıq, müasirlik deyil, gerilik, primitivlik və cahillikdir. "Müasir dəbin vətəni" hesab edilən Avropada belə əxlaqlı, bilikli, kübar qadınlar açıq-saçıq geyimə üstünlük vermirlər. Açıq-saçıqlıq başqasının malı qismində olan kəniz, qul-qaravaş tərzidir.

Quranda buyrulur: "Ey, peyğəmbər! Zövcələrinə, qızlarına və mömünlərin övrətlərinə de ki, (evdən çıxanda cariyələrə oxşamasınlar deyə, bədənlərini başdan ayağa gizlədən) örtülərinə bürünsünlər. Bu onların tanınmaması (cariyə deyil, azad qadın olduqlarının bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayan və rəhm edəndir!"[142]

Deməli, örtük (hicab) azad qadının libasıdır, onun tanınmaması və toxunulmazlığının zahiri qarantıdır. Hüququnu bilmək, yerini dərk etmək və haqqını təmin etmək bacarığı isə qadının daxili, mənəvi zəngliyidir. Zahiri və batini dəyərinin hasil olması üçün Allah qadına dörd etibarlı hami (ata, oğul, qardaş, ər) mükəlləf etmişdir. Müstəqil qadın həyatda tənhalığa məhkumdur. Müsəlman qadın isə onun üçün məsuliyyət daşıyan dörd kişinin himayə etdiyi dəyərli məxluqdur. Adi qadın deyil, dörd nəfərin yoluna baş qoymağa hazır olduğu arxalı, güclü qadındır. Bu heç də yedək olmaq anlamına gəlmir, əksinə "lokomativ" olmaqdır. Fitrətə, təbiətə zidd şeylər bizim əleyhimizədir. Kişi kişiliyi ilə, qadın da qadınlığı ilə özünü təsdiq etmədikdə cəmiyyət fəlakətə sürüklənir.

[141] Qurani-kərim. Tərc., 1992, əl-Əhzab/33
[142] Qurani-kərim. Tərc., 1992, əl-Əhzab/59

Qadına münasibəti formalaşdıran məqamlardan biri də onların ətrafdakılarla ünsiyyət və rəftarıdır. Qurani-kərim qadınlara xitabən buyurur ki, "..Yad kişilərlə yumşaq (əzilə-əzilə) danışmayın, yoxsa qəlbində mərəz (şəkk, nifaq və günah mərəzi) olan tamaha (özgə təmənnaya) düşər. (Danışdığınız zaman) gözəl danışın! (Allahın buyurduğu kimi, yaxud qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin!)"[143] Həyat göstərir ki, müti, aciz, sadəlövh və emosional qadınlardansa ağıllı, ciddi xarakterli, təmkinli qadınlara daha çox hörmət edilir. Birincilər həyatda çox vaxt bədbəxt olur, ətrafdakılar tərəfindən dəyərsizləşdirilir və əzilirlər. Qadının öz ləyaqətini, izzət-şərəfini uca tutması, yerini və haqqını bilməsi ona rəğbət qazandırır. İslam dini qadının sosial roluna yüksək dəyər verir, kişilərin onlara dəstək olmalarını, himayə etmələrini və onlarla xoş davranmalarını tövsiyə edir. (Bax: Quran, Nisə surəsi, 19-cu ayə). Təsadüfi deyil ki, İslam peyğəmbəri: "Kişilərin mömini - qadınlarla xoş rəftar edən, qadınların mömini - əməlisaleh olandır" demişdir. Əməlisalehlik yalnız ailədaxili funksiya deyildir, eyni zamanda ictimai məzmun kəsb edən anlayışdır.

İslam tarixinin müsəlman qadınları əməlisaleh olmuş, cəmiyyət həyatının fəal iştirakçıları kimi həm sülh şəraitində, həm də hərbi vəziyyətlərdə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər. Qadınlar elmlə məşğul olmuş, öz qazanclarından yetimlərə, ehtiyac sahiblərinə yardımlar etmiş, məscidlər, məktəblər və tibb müəssisələri tikdirmişlər. XXI əsrdə bəzi kişilərin qadınları ictimai həyatdan kənar tutaraq, əməlisalehlikdən məhrum qoymalarının dinlə heç bir əlaqəsi yoxdur. Onların öz nəfslərinə dinə pərdə etmələrinin əsası yoxdur. Həqiqətlə əlaqəsi olmayan qısqanclıq və sui-zənnin dinə müncər edilməsi acı təəssüf doğurur.

[143] Qurani-kərim. Tərc., 1992, əl-Əhzab/32.

Şərqdə qadınlara münasibətdə İslam dəyərlərinə uyğun gəlməyən hallara rast gəlindiyi kimi, Qərbdə də ifrat "mədəni təmayüllər" qadınlara münasibətdə fərqli problem və çətinliklər yaradır. Onlardan biri Gender proqramlarının icbari təhsil sisteminə daxil edilməsidir.

## 2.8. Qadına münasibətin gender aspekti

Avropa tədqiqatçılarının bütün səylərinə baxmayaraq ailədə və cəmiyyətdə zorakılıq problemi hələ də həll olun-mamış qalır. Çıxış yolu kimi, bu gün Azərbaycanda da tövsiyə olunan müvəqqəti sığınacaq yerləri təklif olunur. Artıq dünyanın demək olar ki, hər yerində açılan "böhran mərkəzləri" zorakılıq qarşısında acizliyin etirafı deyilmi? "Zorakılıq qurbanları üçün nəzərdə tutulan zəruri hüquqi, tibbi, psixoloji yardımların göstərilməsi, maarifləndirmə və məlumatlandırma kampaniyaları"[144] nədənsə məhz "iş-işdən keçdikdən sonra tətbiq olunur. Təhlükəsizliyin bərabər şəkildə qorunması hər bir cəmiyyət üzvünün adi hüququ və haqqı deyilmi? Zorakılıq problemi sosial müdafiə sisteminə, hüquq mühafizə orqan-larının səlahiyyətinə aid olan məsələdir. Əgər bu problemin ictimai həlli mümkün olsa idi, milyonlarla pul vəsaiti hesabına hüquq-mühafizə orqanlarının saxlanmasına nə ehtiyac vardı? Elə mövcud dövlət və qeyri-dövlət qurumları onu həll edərdi və məsələ bitərdi. Vəziyyət son dərəcə ağırdısa, deməli bu qism problemlərin həllinin ictimai səmtə yönəl-dilməsi azdır, cinayətin qarşısının alınmasındakı boşluqlara diqqət yetirmək lazımdır. Hazırkı sistemdə cinayət əməlinin araşdırılması maliyyə maraqlarına xidmət etdiyindən, cinayətlər durmadan artır. İctimai tədbirlər onu nəinki aradan qaldırmır, hətta ləngidir və xroniki həddə çatdırır. Vətəndaşlar hər hansı bir şiddət və ya zorakılıq müqabilində qeyd-şərtsiz cəzalanacaqlarını bilsələr, ra-

[144] Zeynalova M.N., 2005, səh. 18.

dikallıqdan və qərəzli hərəkət-lərdən qismən çəkinərlər. Əgər asayiş keşikçiləri cinayət hadisələrini araşdırıb cinayətkarı tapmaq və cəzalandırmaq əvəzinə başqa "humanist" yollar düşünürlərsə, yaxud özləri qanunu pozaraq ədalətsizlik edirlərsə, nə qədər "hüququn fəlsəfəsi"ni yazsalar və QHT yaradılsa da xeyri yoxdur, ailə münaqişələrinin, xüsusilə da qadınlara qarşı şiddətin qarşısının alınması problem olaraq qalacaqdır. Hüquq, qanunvericilik ədalətlə icra olunmalıdır. Əgər hüquqşünas cəzanın əhəmiy-yətinə şübhə edirsə, deməli mühakimə prosesində böhran yaşanır. Xüsusilə ailə münaqişəsi zəminində olan cinayətkarlığın artmasının səbəbi hüquq-mühafizə orqanlarında çalışan əməkdaşların dünyagörüşünün məhdudluğu, bəzən vəzifə məsuliyyətini şəxsi maraqlardan üstün tuta bilməmələri ilə əlaqədardır. Belə bir mühiti gender proqramları ilə dəyişdirmək cəhdləri mənəvi mühiti daha da korlayır. Çünki, əxlaqi (tərbiyə əsasında qazanılan) keyfiyyətlər fitri keyfiyyətlərin süni olaraq dəyişdirilməsi ilə yaxşılaşmır, bəlkə də əksinə, pisləşir. Müşahidələr göstərir ki, genderşünaslığın nailiyyətlərindən təbii cinslərin istisna keyfiyyətlərinin kosmetikasında istifadəsi daha məqsədəuyğun ola bilər. Həyatda olduğu kimi, tibbdə və psixologiyada da radikal təkliflər münasibətlərdəki harmoniyanı pozur, mədəni proseslərə xələl gətirir.

İnsanlar arasındakı ünsiyyət mədəniyyətinin iki təməli vardır: dəyərlər və hüquq. Sosio-mədəni dəyərlərə o zaman hörmət bəslənir, əməl olunur və yaşayış tərzinə çevrilir ki, onlara müqəddəs duyğu ilə yanaşılsın. Müqəddəslik isə dini anlayışdır və iman hissi ilə bağlıdır. İslam dəyərləri gender münasibətlərində bərabərlikdən daha çox harmoniya və bir-brini tamamlama faktoruna diqqətu cəlb edir, rəftar, davranış, özünə hörmət, haqqını bilmə və bu haqqı çox nəcib şəkildə ətrafından tələbetmə səriştəsini ön plana çəkir. İslam dini kişi və qadın arasında bərabərlik, müstəqillik aşılamasa da, onların qarşılıqlı tələbat, ehtiyac hissi,

ünsiyyət və şəfqət əlaqələrini, xüsusilə məsuliyyət hissini vəhdətə bağlayır.

Bu gün Azərbaycan qanunvericiliyində kişi və qadınların hüquq bərabərliyi qeyd olunur.[145] Gerçəklik, real həyat həqiqətləri isə başqa mənzərə yaradır. Cəmiyyətin aparıcı sahə-lərində, nüfuzlu dairələrdə, seçkili orqanlarda qadınların sayı nəzərə çarpacaq dərəcədə azdır. Bu hal bir tərəfdən onların daha məsuliyyətli analıq missiyası, vaxt məhdudluğu ilə bağlıdırsa, digər tərəfdən cəmiyyət sturukturlarının qadına qeyri-səmimi münasibəti, ikili standartlarla yanaşmaları ilə əlaqədardır.

Problemdən çıxış yolu kimi yaradılmış qadın cəmiy-yətləri tək-tək qadınların problemlərini həll etsə də, ümumilikdə qadınlara münasibətdə hələ də mövcud olan ikili standartları aradan qaldıra bilməmişlər. Məsələn, əxlaqsızlığın ifşası zamanı yalnız qadınlar qınaq obyekti olur, onların "portnyorları" isə ittihamdan kənarda qalırlar (biz dəfələrlə televiziya ekranlarında belə kadrların şahidi olmuşuq). Ümumiyyətlə, "kişiyə - olar, qadına – olmaz" prinsipi gender asimmetriyasının əsas qaynağıdır.

Qloballaşmanın mənfi təzahürlərindən biri də insan alveridir. Azərbaycanda az rast gəlinən bu problemin də qurbanları əsasən qadınlar olurlar. Ümumiyyətlə, "alver" bazara məxsuz anlayışdır. Bazar iqtisadiyyatı isə tələb və təklif əasında yaranır. Bu rəzalətin aradan qaldırılması üçün tələb və təklifi yaradanlar barədə eyni səviyyəli cəzalar tətbiq edilməlidir.

Hər bir məsələnin həllində iki yol vardır: doğru, halal, yəni dini və qanuni baxımdan məqbul; yanlış, haram, yəni dini və qanuni baxımdan qadağan olan. Məsələ halalıqla həll olunmadıqda, harama təlabat yaranır. Buna yol verməmək üçün bəşəriyyətə ünvanlanmış ilahi nizam – Qurani-Kərim vardır. Həyatın çətinlikləri ilə üz-üzə qalanda, müqəddəs kitabımızdan yaxşı məsləhətçi, peyğəmbər əxlaqından gözəl örnək ola bilməz. Kiminsə

[145] Azərbaycan Konsitutsiyası, maddə 25, II; maddə 34, IV; maddə 17, I

Qurani-Kərim ayəsinə əməl edib, ziyan çəkdiyinə inanmaq çətindir. İnsan ya biliksizliyindən, ya da xarakterinin zəifliyindən (könülsüzlük, tənbəllik, təkəbbür, laqeydlik, bəyənməzlik, dəb alüdəçiliyi və s.) doğru əməldən yayınır. Başqa bir halda isə o seçim aparır: nəfsinə xoş gələn vəzifələrini yerinə yetirir, digər funksiyalarına fikr vermir. Əməl yarımçıqlığı – imanın zəifliyini göstərir. Yarımçıq fərdi təcrübələr yarımçıq toplum, faydasız, pərakəndə, məqsədsiz, kortəbii cəmiyyət yaradır. Bu isə dinin deyil, insanın dünyəvi qüsurudur.

Qurani-Kərimdə buyurulur ki, "Kişilərin qadınlar üzə-rində hüquqları olduğu kimi, qadınların da onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlandıqları üçün) onlardan bir dərəcə üstündürlər. Allah yenilməz qüvvət və hikmət sahibidir"[146] Bu ayəni gender-şünaslıq prizmasından bərabərsizlik kimi anlayanlar ifadədəki şərti görmürlər. Bizim bütün problemlərimiz haqları ya bilmədikdə, ya da ki, bilərəkdən inkar etdikdə meydana çıxır. Sonuncular (bilərək inkar edən və əməl etməyənlər) mentalitet, adət-ənənə basqısı altında dini əmrləri danır, riyakarlıq edir, həqiqəti cəmiyyətdən gizlədurlər. Məlumdur ki, qadınların mentalitet, adət-ənənə adı altında bildikləri - uzun illərdən bəri "kişi qisminin seçib bəyəndiyi xüsusiyyətlərin toplusudur".[147] Bəzən bunların adət-ənənəyə, mentaliteti təyin edən parametrlərə, yaxud dinə qətiyyən dəxli olmur. Qadın cəmiy-yətdə, o cümlədən ailədə tutduğu mövqeyi ən əvvəl özü dərk etməli, haqqını, funksiyasını, vəzifəsini anlamalıdır. Nə qədər ki, qadınar həyatda öz rollarını dərindən anlamağa cəhd etmir və "kişi təfəkkürü ilə aşılanırlar"[148], qadınların problemləri azala bilməz. Bəzən qadınların özləri istəmədən bu problem-lərin yaradıcısı, yaxud icraçısı olurlar. Çünki mühitin diktəsi ilə

[146] Qurani-kərim. Tərc., 1992, 2/228
[147]Məmmədzadə İlham, 2000, səh. 24.
[148] Məmmədzadə İlham, 2000, səh. 25.

olduqları kimi deyil, onları ətrafılarındakıların onları görmək istədikləri kimi olmağa səy edirlər. Bu isə çox vaxt onları yanlışlığa aparır, həyatdan istədiklərini ala bilmirlər. Bəzən də tükənməz qayğılar içərisində öz hüquqlarını bilmək və ona nail olmaq yolları haqqında heç düşünmürlər.

Ailə dağılarkən, çox zaman bütün ağırlıq qadının üzərinə düşür. Dinimizdə isə, əksinə, övlad tərbiyəsində atanın məsuliyyətinin daha yüksək olduğu bildirilir: Dünyanın ən mükəmməl hikmət kitabı Quranda buyrulur: "Dünyaya gələn övlada ad verib, onu yetkinlik yaşına qədər tərbiyə etmək, ona təhsil vermək atanın haqlarındandır". Müasir dövrdə vəziyyət necədir? Dünyanı bürümüş müharibələr də nəzərə alınarsa, müasir insan nəslinin az qala 70%-i yalnız ana tərbiyəsinin məhsuludur. İslam dini fitrətə müvafiq olaraq ailədə uşaqların sayı məsələsini də atanın məsuliyyətinə aid edir. Müasir Azərbaycanda isə "Ailə planlaşdırma mərkəzi" atalarla yox, analarla təbliğat – maarifləndirmə işi aparır və onları cinayətə təşviq edir. Bunun mənəvi sonucları bir yana, fiziki, sağlamlığa zərərli, hətta faciəli nəticələri hamıya yaxşı məlumdur.

Elmin, texnologiyanın müqayisə olunmaz dərəcədə inkişaf etdiyi, iqtisadiyyatın sərhədləri aşdığı, mədəniyyətlərin qovuşduğu XXI əsrdə yenidən silahlı münaqişələrə qayıtmaq ictimai şüurun, dərin hüquq böhranının nəticəsidir. Beynəlxalq hüququ tənzimləyən qurum və təşkilatların müxtəlif işlək mexanizmlərinin olmasına baxmayaraq qlobal və lokal səviyyələrdə qanunların pozulması, o cümlədən İraqa, Fələstinə, Suriyaya, Yəmənə, Azərbaycana, Gürcüstana, Ukraynaya, başqa ölkələrə olan silahlı müdaxilələr, cina-yətkarların cəzasız qalması və s. acı gerçəklər müasir dövrdə "hüquq böhranı" yaşandığının dəlilləridir. Müasir Qərb tədqiqatçıları (E.Ferri, P.Garofalo, F.Gramatica, S.K.Gogel, D.Dril) cinayət və cəza mövzusunda yaranmış vəziyyəti "cəza böhranı" kimi qələmə verməyə çalışsalar da, İ.Rəhimov əsərində A.A.Piantovski, N.Kristi, İ.İ. Karpets, N.A.Belya-

yevin görüşlərini müdafiə edərək "cəza böhranı" deyil, "cəmiyyət böhranı" yarandığını qeyd edir. [149] Tarixən cəmiyyətdə bu və ya başqa şəkildə böhranlar baş verdiyi zaman hakim qüvvələr mənəvi dəyərlərə əsaslanaraq müvafiq tədbirlər görərək məsələnin həllinə nail ola bilirdilər. Hazırda vəziyyət tam fərqlidir: bəzi hakim dairələr dəyərlərin köhnəldiyini düşünür və öz subyektiv düşüncələrini universal bəşəri dəyərlərin yerinə qoymağa çalışırlar, hətta yeri gəldikdə dini və elmi öz məqsədlərinə alət etməkdən çəkinmirlər.

Digər tərəfdən mənəvi dəyərin maddi dəyərlə eyniləşdirilməsi cəhdləri cəmiyyətdə sosial-psixoloji prob-lemləri artırır. Unutmaq olmaz ki, qeyd olunan dəyərlər (maddi-mənəvi) öz-özlüyündə bir-birini tamamlayan faktorlar olaraq insan münasibətlərində vəhdət, sosial bağ rolu oynayır. Qeyd-şərtsiz bərabərlik tələbi ilə çıxış edənlər nəinki dəyərlərin mozaik vəhdətinin vacibliyini dərk edir, hakimiyyət qanununun pozulmasının sosial nəticələrini belə nəzərə almırlar (bəzən hətta qərəzli şəkildə).

Mənəvi böhrandan çıxmaq üçün "dəyərlərin yaradılması pedaqoqikası" və genderşünaslığın "neytral cins proqramları" sosial bərabərlik, ədalət, demokratik dünya tələblərinə deyil, bir qrup ideoloqun maddi maraqlarına cavab verir. Problemə müasir gender tədqiqatları aspektində nəzər salarkən, psevdoelmi nailiyyətlər sayəsində mövcud ictimai tarazlığın pozulması və əslində gözlənilən effektə zidd təsirlərin artması nəzərdən qaçmır.

1958-ci ilə qədər "gender" [150] termini elmi ədəbiyyatlarda sözün həqiqi mənasında işlənirdi. 1958-ci ildə Los Ancelesin Kaliforniya universitetində transseksuallıq problemi ilə məşğul olan və gender şüurunu tədqiq edən mərkəzin əməkdaşı Robert

---

[149] Rəhimov İlham, 2014, səh. 182-187, 301-303.

[150] Latın dilindəki «*genus*» kökündən götürülən "*gender*" sözü ingilis dilindən tərcümədə "cins" mənasını verir və "sosial cins" anlayışını ifadə etmək üçün istifadə edilir. Genderşünaslıq genderin tədqiqi və cəmiyyətə tətbiqi problemləri ilə məşğul olan müasir ideoloji tədqiqat sahəsidir.

Stoller psixoanaliz üzrə apardığı tədqiqatlarda ilk dəfə bioloji "sosial cins" [151] anlayışından istifadə etmişdir. O, 1963-cü ildə Stokholmda keçirilən psixoanalitiklər konqresindəki məruzəsində sosial-mədəni, qazanılmış keyfiyyətlərin köməyi ilə sosial cins yaxud gender bərabərliyinə nail olmaq yollarını göstərmiş, sosial bərabərliyin təminatında insanın təbii, fiziki, bioloji mənsubiyyətinin ayrıseçkilik yaratdığını və sosial ədaləti pozduğunu ifadə etmişdir. Stollerin irəli sürdüyü konsepsiya qeyd olunan yeni tədqiqat istiqamətləri üzrə yeni gender texnologiyaları inşa etməyə meydan açmışdır.

Gender tədqiqatları təbii, bioloji cins probleminə sosiomədəni yöndən yanaşaraq, fərqli baxışlar formalaş-dırmağa və onları guya bərabərləşdirəcək yollar aramağa imkan verir.[152] Əslində bərabərlk idealı altında insanların mənliyi, şərəf və ləyaqəti, hüquqları, dəyərləri tapdalanır, sosial-psixoloji üsullarla ictimai sifarişə uyğun yeni mədəni modifikasiyalar - sosial tiplər formalaşdırılır.

Təsadüfi deyil ki, sosioloq D.Lorber genderi ev xidmətçiləri, sosial tərəfdaşlar, analar, müəllimlər kimi istifadə edilə bilən qruplar istehsal edən sosial institut adlandırır[153] Belə ki, gender ideologiyası insanlara sosial sifarişə müvafiq status qazandırma metodlarına malikdir. Gender tədqiqatları insanların bioloji cinsini müəyyən edən parametrləri (genlər, hormonlar, sinir sistemi, fiziki fərqlər) nəzarətdə saxlayaraq, cəmiyyət üçün faydalı sosial statusa müvafiq insanlar və ya qruplar formalaşdırmaq imkanlarının genişləndirilməsinə xidmət edir. Bu institutun lektorları cinsi identikliyə tolerant mövqeyi müdafiə edirlər. D.Lorber fərdi müstəvidə gender ideologiyasının funksiyalarına: 1)gender statusuna haqq qazandırmaq, 2)öz cinsi mənsubiyyətini təyin etmə imkanlarına sahib olmaq, 3)genderə inamı təşviq et-

[151] Stoller, 1968.
[152] Stoller R., 1968, səh. 151; McIntosh M., Begriff, 1991, səh. 845-860; Oakley A., 1972, səh. 16.
[153] Лорбер Д ., Фаррел С., 2000, səh. 186.

mək və etiraz zamanı inandırma mexanizmlərini işə salmaq, 4)insanlara gender mənsubiyyətini açıq təqdim etmək bacarıqlarının aşılanması, gender evliliyinin təbliğ olunması və s. eksperimentlərin daxil edildiyini qeyd edir. [154]

Q.Qarfinkel, K.Uest və D.Simmermanın ünsiyyət psixo-logiyasına dair tədqiqatlarında gender anlayışı cəmiyyət nizamında kişi və qadın mənsubiyyətini təyin edən şəxsiyyətlərarası qarşılıqlı sistem kimi çıxış edir. Onlar da genderin fizioloji, bioloji cinsdən fərqli olaraq, elmi mexanizmlər vasitəsilə yaradılmış keyfiyyət, "cinsin qazanılma, mədəni səviyyəsi" [155] olduğunu təsdiq edirlər. Bu mütəxəssislərin mülahizələrinə görə, körpəlikdən beş yaşa qədər uşaqlarda psixoloji, kulturoloji, sosial üsullarla gender (sosial cins) формalaşdırılır. Nəticədə iki hal yaranır: 1) fərd öz yeni durumu ilə barışır; 2) (istisna hallarda) öz təbii bioloji cinsinə qayıtmağa çalışır. Təbii ki, gender tədqiqatlarında "axıra qədər getmək" başqa sözlə fərdi mədəni şəkildə "sosial sifarişə" tabe etmək yolları da düşünülmüşdür.

Feministlər Moira Gatens, antropoloq Geyl S. Rubin, yazıçı A.Riç, yazıçı, kulturoloq M.Uittig və başqaları öz həyat və yaradıcılıqları ilə gender tədqiqatlarının "uğurlarına" imza atmışlar. Onlar ənənəvi cəmiyyətdə heteroseksuallığın cəmiyyəti cinsi ayrıseçkiliyə məruz qoyması, iqtisadiyyatın qadın və kişi fərqi üzərində qurulması, ailənin kişilərin mənafeyinə xidmət edən hakimiyyət forması olması kimi birtərəfli nəzəriyyələr irəli sürür, qadınları "məzlum sinif", "başqasının malı" olmaqdan qurtarmaq üçün nikah və ailə münasibətindən azad "neytral cins" olmağa çağırırlar. M.Vittiq daha uzağa gedərək "amazonkalarsayağı hakimiyyət" üsulu ilə tədricən "gendersiz cəmiyyət" yaradılması haqqında düşüncələrini təbliğ edir. [156]

---

[154] Лорбер Д., Фаррел С., 2000, səh. 28, 24; Lorber J., 1994, səh. 127-136.
[155] Goffman E., 1976, p. 69 -77.
[156] Wittig M.,1973.

N.Çodorou "Analığın bərpası. Psixoanaliz və gender sosialogiyası"[157] əsərində analıq instinktini və onun nəsildən-nəslə ötürülməsi prosesini araşdıraraq müəyyən etmişdir ki, analıq - sosial roldur, bu rolu qadınlarla bərabər kişilər həm evdə, həm də ailədənkənar ifa edə bilərlər. Bu elmi tezis ailə münaqişələrinin sıx olduğu bəzi Afrika ölkələrində icbari sosial layihə şəklində həyata keçirilmiş və müsbət nəticələr vermişdir. Belə ki, ataların da növbəli şəkildə uşaqların təlim-tərbiyəsinə cəlb olunduğu ailələrdə məişət zəminli münaqişələr xeyli azalmışdır.

Терeза de Lauretisə görə isə gender – normal cinsi identiklikdən onun tamamilə dəyişilməsinə gətirib çıxaran ideyaların performansı, texnologiyası və nəticəsidir.[158] Sözün həqiqi mənasında qadın və kişi olmaq kimi səmimi və şərəfli vəzifələrə ironik yanaşmanı ifadə edən "gender rolu" anlayışı hazırda fərdi şüurdan ictimai şüura intiqal edərək cəmiyyəti bütövlükdə ironik vəziyyətə salmaqdadır.

Amerikan tədqiqatçısı Cudit Batler genderşünaslığı "identikliyi rekonstruksiya edən təlim" adlandırır. [159] Onun qənaətinə görə cinsi identikliyin rekonstruksiyası siyasi və mədəni proseslərin nəticəsidir. Deməli genderşünaslıq elm deyil, müasir burjua ideologiyasıdır. Hazırda dünya ölkələrində (Norveç, İsveç, Almaniya, Fransa və digər ölkələrdə təhsil, səhiyyə və digər müvafiq strukturlar tərəfindən Gender proqramının təşkili cəmiyyətin sosial-psixoloji durumuna təsir edərək, gərginliyə, ümidsizliyə, dözümsüzlüyə və müxtəlif fobiyalara yol açır. Gender tədqiqatlarının gələcək hədəfində kişi və qadınları tədricən kibernetik orqanizmlərə çevirmək və s. məsələlər də nəzərdə tutulur. [160]

Müasir tədqiqatlarda insan orqanizminin hüceyrə, gen səviyyəsində dəyişikliklər aparılması ilə yanaşı "bioloji cins" fakto-

[157] Chodorow N., 1978.
[158] Lauretis T., 1984, p. 159.
[159] Butler J., 1990, p. 2-6.
[160] Zərqanayeva İradə, 2018, səh. 161.

rundan da açar kimi istifadə edilməsi sosial-psixoloji sferada ideoloji sifarişlərin təminatını həyata keçirir. Beləliklə gender təbii, cinsi identiklikdən yeni, fərqli formaları identifikasiya etməyə imkan verən münasibətlər sistemi yaradır və nəticə etibarilə cəmiyyətin azad, hüquqi, təbii, multikultural, mənəvi dəyərlərinin dəyişdirilməsinə yönələn, insanlar arasındakı təbii ünsiyyəti, bəşəri münasibətləri saxtalaşdırmağa xidmət edən müasir sosiomədəni, hətta siyasi fenomenə çevrilir. Gender tədqiqatlarının elmi yenilikləri təhsil, mədəni-maarif, səhiyyə müəssisələri səviyyəsində sınaqdan keçirilir. Con Monenin "neytral cins"[161] təlimi və digər eksperimentlər qanunverici orqanlar tərəfindən dəstəkləndiyi üçün sadə vətəndaşların mövqeyi, ruhi və intellektual düşüncəsi, konstitusion hüquq və azadlıqları nəzərə alınmır. Gender proqramını hökumət səviyyəsində təşkil edən strukturların fəaliyyətinə qarşı narazılıq aksiyaları inzibati qurumlar tərəfindən yatırılır, uşaq təlim-tərbiyə müəssisələri, məktəb və digər təhsil ocaqlarındakı əxlaqsızlıq və azğınlığın təbliğinə qarşı dinc insanların hökumətə etirazı dözümsüzlük kimi qələmə verilir.[162]

Tədqiqat və müşahidələr göstərir ki, dəyərlərin yaradılması pedaqoqikası və gender proqramının təşkili ölkələrin hakim dairələrində mənəvi yoxsulluğun etirafı, sağlam düşüncənin çatışmaması sindromudur. Beləliklə, gender proqramı lokal ictimai şüurun ilahi fitrətə, təbii identikliyə, yaradılış zənginliyinə, dünyəvi rəngarəngliyə və multikulturalizmə qarşı dözümsüzlüyünün təzahürü, ümumbəşəri dəyərləri inkar edən zümrənin əsassız, xəstə fobiya və hallüsinasiyalarından qaynaqlanan nəzəri paradiqması, yeni quldarlıq texnologiyasının tərkib hissəsidir.

Fikrimizcə gender asimmetriyasının səbəbi zorakılıq faktoru ilə əlaqədar ikili standartların tətbiqidir. "Ailə müqəddəsliyi" məfhumunun arxasında gizlənən nadanlar problemə real və vax-

---

[161] Money, 2018.
[162] Zərqanayeva, 2018, səh. 161.

tında müdaxilə etmək istəmirlər. Mənəvi və intellektual səviyyəsi aşağı mütəxəssislər, ailədaxili ziddiyyətlərdən kənar qalmağa çalışan hüquq-mühafizə əməkdaşları çox zaman baş verən hadisələrə qanunauyğun reaksiya göstərmir, vaxtında zorakılığın qarşısını almırlar. Hətta şikayət edən kişini – "utanmır, yekə kişidir, şikayət edir", yaxud qadını – "belə arvadım olsa, bir gün də saxlamaram" qınağı ilə damğalayır, ədalətli işgüzarlıq əvəzinə hissi emosanallıq nümayiş etdirir, asayiş keşikçisi funksiyasını və vəzifə məsuliyyətini unudurlar. Əgər biz, həqiqətən adət-ənənəmizə, mentalitetimizə hörmət edən, İslam dininə itaət edən ümmət olsaydıq, doğmalarımıza şəfqətli davranar, mənəvi şiddət etməz, onlara münasibətdə ədalətli davranardıq. O zaman qanuna ehtiyac qalmazdı... Təəssüf ki, insanların çoxu axirətindən yox, dünyasından əndişəlidir. Vicdanında ədalət hissi olmayan insanlar üçün qanuni cəza labüddür. Allah-Təala, Peyğəmbərə(s): "Öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən!"[163] "Sən onların üzərində hakim deyilsən!"[164]- buyurmuşdur və əmin etmişdir ki: "Lakin üz döndərib inkar etsə, Allah onu ən böyük əzaba düçar edər!"[165] Quranda insanlara aqibətləri haqqında "Şüphəsiz ki, onların axır dönüşü Bizədir! Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!" [166] ayələri ilə xəbərdarlıq edilmişdir.

XXI əsrin astanasında Azərbaycanda gender münasibət-lərinə toxunan Z.Quluzadə konfrans və forumlarda qaldırılan məsələlərin elmiliyinə, humanizminə və demokratik mahiyyətinə baxmayaraq, həyat tərzində gender asimmet-riyasının kəskinləşdiyini, cəmiyyətin sabitliyini kökündən sarsıdan cinslərarası qarşıdurmanın artdığını qeyd edir.[167] Gender münasibətləri iqtisadi, siyasi, hüquqi, dini-etik, ailə və məişət problemləri zəminində

---

[163] Qurani-kərim tərcüməsi, 1992, 88/21
[164] Qurani-kərim tərcüməsi, 1992, 88/22
[165] Qurani-kərim tərcüməsi, 1992, 88/23-24
[166] Qurani-kərim tərcüməsi, 1992, 88/25-26
[167] Quluzadə Zümrüd, 2000, səh. 13.

formalaşır. Müasir cəmiyyətdə mənəvi dəyərlərin dirçəldilməsində, o cümlədən gender münasibətlərində əsas meyarlar hüquq, demokratiya və sosial harmoniya olmalıdır.

Gender probleminin həllində qarşı tərəflərin mənəviyyat saflığı, söz, əməl birliyi, qayğıkeşlik təşəbbüsü, şəfqət hissləri həlledici əhəmiyyət kəsb edir. Bəzən laqeydlikdən və məsuliyyətsizlikdən, bəzən də cəsarətsizlikdən mənəvi dəyər-lərə əməl olunmur. Cinsindən asılı olmayaraq, insanın üstünlüyü onun elmi, düşüncəsi, təfəkkürü, idrakı qədərdir. “Beşikdən qəbrə qədər öyrənmək”, özünü dərk və özünütəsdiq – Azərbaycanda gender problemlərinin həllini asanlaşdıra bilər.

H.Ə.Əliyevin “hər şey – gənclərə nəyi, necə öyrətməyi-mizdən asılıdır” fikrini bir an belə unutmadan təhsil, təlim-tərbiyə məsələlərinə diqqət və məsuliyyət artırılmalıdır. Bu tendensiya bütün istiqamətlərdə genişlənməlidir. Valideynlər oğullarını elə tərbiyə etməlidirlər ki, gələcəyin əsl kişiləri olsunlar və qadınlara münasibətdə doğru davranmağı öyrənsinlər. Kişilər qadınlara münasibətdə şəfqətli davranmalı, ana, bacı, qız və həyat yoldaşlarına qarşı bəyənilməyən davranışları-başqalarının etməsini istəmədikləri hərəkətləri özləri də başqa qadınlara qarşı etməməlidirlər. Deyirlər ki, “Dünyanı gözəllik xilas edəcək”, dinə görə isə dünyanı kişilər xilas edəcək: öz nəfsinə deyil, Allahın kitab və peyğəmbərlər vasitəsilə göndərdiyi İslama təslim olan kişilər... Qadınlar bu xeyirdə onların sadiq dostları və həyat yoldaşlarıdırlar.

İstənilən problemin həlli üçün öncə reallığı, gerçəkləri qəbul etmək lazımdır. Kişi böyük qüvvədir. Qadın bunu dərk etməli, potensial imkandan ümumi fayda naminə ağılla və ədalətlə faydalanmalı, fəaliyyətini gerçəkliyə uyğun qurmalıdır. Qadın təşkilatlarının hansı qərarları qəbul etmələrindən asılı olmayaraq, axırda – nəinki Azərbaycanda, bütün dünyada hakim qüvvə olan kişilərin rəyi həyata keçir. Əgər əksi olsaydı, hazırda dünyanın heç bir yerində müharibə olmamalı idi. Təəssüf ki, belə deyil.

Dünya ölkələrinin kişi liderləri hələ də idarəçilikdə gücə və zorakılığa arxalanır, silahlanmanı davam etdirir, yeri gələndə hərb maşınını işə salır, qadınların göz yaşına baxmırlar. Unudulmaz Hüseyn Cavid çox haqlıdır: Qadına münasibətlə dünyaya münasibət mütənasibdir. Kişilər qadına münasibətdə Allahın kəlamına riayət etsələr, dünya dəyişər, müharibələr dayanar, hər yerdə sülh və əmin-amanlıq hökm sürər.

Azərbaycan cumhuriyyətinin yaranmasından keçən illər ərzində elmdə və istehsalatda çox böyük nailiyyətlər qazanılmışdır. Lakin, qadınların sosial təminatı, onlara edilən güzəştlər 10.12.1918-ci il Azərbaycan Xalq Cumhuriyyəti Parlamentinin "Fəhlə məsələsi"nə[168] həsr olunan II iclasında qəbul edilənlərdən çox da fərqlənmir. Qeyd etmək lazımdır ki, həmin güzəştləri o zaman kişilər, qadınlarsız, müstəqil qəbul etmişdilər və bu günə qədər biz həmin imkanlardan faydalanırıq. Qadınların həyat tərzinin yaxşılaşması üçün onların hakimiyyət stukturlarında təmsil olunması müsbət haldır, lakin görünür ki, həlledici deyildir. Hazırda dövlət strukturlarında və QHT-də birləşən qadınlar çox şey etmək intellektində və arzusunda olsalar da, ümumilikdə qadınlara münasibət dəyişmir. Çünki qadınların da kişilərə münasibəti dəyişməlidir, əlbəttə ki, tək geyimlə yox, rəftar, davranış mədəniyyəti və ləyaqət nümunəsi ilə.

Qadın öz "zəifliyi" ilə güclüdür. Təsir əks təsirə bərabər olduğundan kişilərə güc nümayişi yox, zəiflik, zəriflik və ehtiyac hiss etdirilməlidir. Qadınların hədsiz canfəşanlığı çox zaman onların əleyhinə çevrilir... İmkan vermək, ruhlandırmaq lazımdır ki, qadınlara qayğı göstərilsin. Gücünün çatmadığı məqamlarda belə, yeri gəldi-gəlmədi kişilərə "havadarlıq" etmək qadınlığı öldürür. Axı mənəvi və fiziki cəhətdən yorğun, üzülmüş qadın kimə lazımdır? Bu vəziyyətdə yaxşı ana olmaq da çətindir. Kişilər bi-

---

168 ADR (1918-1920), Законодательные акты, 1998, стр. 40.

zim daim onlara ehtiyacımız olduğunu hiss etməli, görməlidirlər. Qadına münasibət insana münasibətin tərkib hissəsidir. Kişi və qadınları insanlıqdan uzaqlaşdıran hər şey gender münasibətlərinə mənfi təsir etdiyi üçün fərdləri yaradılış fitrətinə qaytaran, milli-mənəvi dəyərlərə söykənən meyarlara diqqət artmalıdır. Dünyanın salamatlığı, sülh və təhlükəsizliyin təminatı üçün BMT-nin 17 bənddən ibarət Davamlı inkişaf məqsədləri kifayət etmir, qadına münasibət dəyişməlidir. Onların düşüncə və xəyalları, arzu və istəkləri, narahatlıqları ciddi nəzərə alınmalıdır. Yalnız o halda gender münasibətləri qaydaya düşə, bəşəriyyətin nizamı öz təbii məcrasına qayıda, müharibələrə son qoyula bilər.

# NƏTİCƏ

"Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" mövzusunun elmi tədqiqi zamanı fəlsəfə və insanın düşüncə mədəniyyəti arasındakı əlaqələr, düşüncə mədəniyyətinin davranış və fəaliyyətlərə təsiri, ayrıca qadına münasibətin dini-etik aspektləri 88 adda informasiya mənbəyinə istinadən araşdırılmış və aşağıdakı elmi nəticələr əldə edilmişdir:

Müasir Azərbaycan fəlsəfəsi və dövlətçilik siyasətinin əsasında bu ərazidə yaşayan xalqların milli-mənəvi dəyərləri durur. Azərbaycan Xalq Cumhuriyyəti qurulduğu zamandan etibarən Azərbaycan bayrağının rəmzlərində əksini tapan türklük, islam və müasirliyin vəhdəti dövlətçilik ideologiyasının nüvəsini təşkil etmişdir. SSRİ tərkibində olarkən, idarəçilik sistemi qismən dəyişsə də, Azərbaycan vətəndaşları milli-mənəvi dəyərlərini qoruyub saxlamışlar.

Qədim oğuzlardan sonrakı nəsillərə cilalanaraq gələn milli-mənəvi dəyərlərimiz M.Ə.Rəsulzadə başda olmaqla cumhuriyyət qurucuları tərəfindən milli məfkurəyə çevrilmiş, dövlət bayrağımızın simvolları kimi əbədiləşdirilmişdir. Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə bu təməl üzərində Azərbaycançılıq ideologiyasını inkişaf etdirmiş, milli məfkurəni müasir dövlətçilk siyasətinin daxili strategiyası kimi möhkəmləndirmişdir. Azərbaycançılıq milli liderlərin sezgisi, sevgisi və əməyi sayəsində məfkurədən siyasətə çevrilən və hazırda yenidən həyat qazanan vətəndaşlıq təcrübəsidir.

Azərbaycan milli fəlsəfəsi müasir dünyanın "fəlsəfəsiz həyat düsturu" ilə balans təşkil edir, multikultural düşüncə mədəniyyətini, mənlik şüuru və ləyaqət hissini itirməyə qoymur. Milli mənlik şüuru, ədalət və ləyaqət hissi fəlsəfə, ədəbiyyat və incəsənət sahələrində bir-birini şərtləndirən, doğuran, tamamlayan və kamilləşdirən fenomenlərdir. Fəlsəfə, mənlik şüuru və ictimai

rəy arasında düz mütənasiblik vardır. Fəlsəfə mənlik şüurunu formalaşdırır, mənlik şüuru ictimai şüuru və dövlətin siyasi ideologiyasını, o da daxili və xarici strategiyasına istiqamət verir. Hazırda azərbaycançılıq xalqımızın milli birlik strategiyasını, multikulturalizm isə xarici siyasət xəttini ifadə edir. Yalnız Azərbaycan vətəndaşları deyil, dünyanın müxtəlif ərazilərində yaşayan soydaşlarımız Azərbaycançılıq idealı ətrafında birləşirlər.

Müasir Azərbaycanda qazanılmış nailiyyətləri əldə saxlamaq və daha da inkişaf etdirmək üçün düşüncə mədəniyyətinin rolu danılmazdır. Keçmiş nəzəri irs və tarixi təcrübələrdən doğru nəticələr çıxarmadan bu günü dəyərləndirmək və gələcəyi düşünmək çətindir. Azərbaycan milli məfkurəsi Heydər Əliyev tərəfindən XX əsrin sonu XXI əsrin əvvəllərində dövlətin siyasi ideologiyasına çevrilmişdir. Azərbaycançılığın siyasi mexanizmə, hərəkətverici qüvvəyə, müasir dövlətçiliyimizin əsas prinsipinə çevrilməsi onun adı ilə bağlıdır. Azərbaycanlı olmaq - Yaradanın hikmətini sevmək, milli-mənəvi dəyərlərə sadiq qalmaq, dürüst və etibarlı olmaq, müasirliklə ayaqlaşa bilməkdir.

Tədqiqatdan müəyyən olunmuşdur ki, dövlət xadiminin uzaqgörənliyi və diplomatik səyləri ilə fəlsəfi düşüncə, siyasi ideologiya ilə əhalinin mənlik şüuru arasında əlaqə vardır. Həyatda baş verən bütün hadisələr, sosial-psixoloji əlaqə və təsirlər cəmiyyətin həssas qrupu olan qadınlara münasibətin dəyişməsində özünü göstərir.

Ailə kiçik dövlətdir: onun fəlsəfi-ideoloji tərəfi qadın, praktik, əməli tərəfi daha çox kişi fəaliyyəti ilə bağlıdır. Həyatın bəzi situasiyalarında bu funksiyların yerdəyişməsi və ya pozulması, varlıqların yaradılış funksiyasına, öz təbiətlərinə uyğun olmayan fəaliyyəti sosial-psixoloji problemlər yaradır. Azərbaycan dövləti kimi, azərbaycanlı ailəsi də məhz dövlət bayrağında əks olunan - türklük, İslam və müasirlik dəyərlərinə sahibdir. Ailədə qadına münasibəti türk adət-ənənələri, İslam dəyərləri və müasirlik tələbləri tənzimləyir. Dövlətdə liderlik parametrləri, rəsmi

qanunlar və onların icra mexanizmləri nə qədər mühüm rol oynayırsa, qadına münasibətdə də ailə "qanunları", dini dəyərlər və sosial-etik faktorlar güclü təsir bağışlayır. "Azərbaycanda qadına münasibətin fəlsəfi aspektlərinin tədqiqi zamanı həqiqi təsirlərlə fobiyalar, stereotiplər fərqləndirilmiş, zaman və qadın, məkan və qadın mövzusunda təhlillər aparılmış, kişinin qadına münasibəti, qadının öz valideynlik funksiyasına münasibəti, qadına münasibətdə dini aspekt, gender və gerçəklər haqqında elmi mülahizələr irəli sürülmüşdür.

Tədqiqatda M.S.Qorbaçovun simasında ədalətsiz idarəçiliyin cəmiyyətə, xüsusilə qadın talelərinə təsiri faktlar və rəqəmlərlə göstərilmiş, fərdlərin öz fitrətlərinə, yaradılış funksiyalarına, milli-mənəvi dəyərlərə, etik tələblərə uyğun məsuliyyətli davranışlarının həyati vacibliyi elmi-fəlsəfi dəlillərlə əsaslandırılmışdır. Azərbaycanın vətəndaş əxlaqi təcrübəsində qadın fenomeninin analıq, övladlıq və həyat yoldaşı funksiyaları daxili, ruhi-intellektual və xarici milli-mənəvi, sosial-psixoloji, ictimai-siyasi, hüquqi aspektlərdən xarakterizə edilmişdir. Qloballaşma və mədəniyyətlərin inteqrasiyası şəraitində, gender proqramlarının tətbiqinin sosial mühitə yansıması nəticəsində dünyada və Azərbaycanda qadına münasibətin dəyişməsi, dəyərlərin dəyişməsi, qida, gen və hüceyrə səviyyəsində insanın fitrətinə edilən müdaxilələrin insana, təbiətə və insan idrakına təsirləri analiz edilmişdir.

Cəmiyyətə yeni, azad, demokratik, ədalətli normaların gətirilməsinə xidmət kimi təqdim olunan müasir fəlsəfi nəzəriyyələrin bəzən geriliyə, cahilliyə və fanatizmə atılan addımlar kimi bəşəri tərəqqiyə ciddi ziyan vurduğu qeyd edilmiş, Azərbaycanda mənəvi dəyərlərin təbliği və qorunması, o cümlədən qadına münasibətdə problemlərin aradan qaldırılması üçün cəmiyyətdə etik-intellektual balansın gözlənilməsi, xaricdən idxal olunan nəzəriyyələrə ciddi yanaşılması, ehtimal olunan risqlərin cəmiyyətə təsirlərinin sosial-psixoloji nəticələrinin hesablanması və göz önündə saxlanması təklif edilmişdir. Tədqiqat göstərir ki, əhali-

nin bilik səviyyəsi ilə əxlaqi-etik səviyyənin uzlaşmaması bəşəri dəyərləri zəiflədir, insanlıq duyğularını korlaşdırır. Müasir sosial-psixoloji böhrandan çıxış yollarını tapmaq üçün qanunların icrasında vahid, ədalətli yanaşma təmin olunmalıdır. Maddi ayrıseçkiliyin mənəvi ayrıseçkiliyə səbəb olmasına yol verməmək, hər kəsi fitrətinə, davranışına və əməlinə görə dəyərləndirmək lazımdır. Cinsindən asılı olmayaraq insana şiddətə son qoyulması üçün qanunvericilikdə nəzərdə tutulan qaydalara sözsüz riayət olunması təmin olunmalı, düşüncə azadlığı, söz haqqı qorunmalı, sosial harmoniya gözlənilməlidir.

Təbiət, cəmiyyət və idrak vəhdətdədir. Onlardan birinin funksiyasının dəyişməsi bəşəriyyətdə, xüsusilə onun daha həssas qismi olan qadınlarda dərin sarsıntılar yaradır. Sarsıntı və travmalar mühitindən isə sağlam nəsil gözləmək çətindir. Tədqiqat nəticələri bütün dünyada olduğu kimi, Azərbaycanda da qadınlara münasibətin birmənalı olmadığını, təəssüf ki, öldürülən, işgəncə verilən, istismar olunan, intihara sürüklənən qadınların sayının pandemiya dövründə daha da artdığnı göstərir. Hadisə və proseslərin xarakteri insanların hikmətə, cəmiyyətin qadınlara münasibəti ilə mütənasibdir. Hüzur və asayişin bərpası üçün cəmiyyət hikmətə sevgi, qadına şəfqət və qayğı ilə yanaşmalıdır. İşdə qadınların ailə daxilində, cəmiyyətdə fəallığına dəstək olmaq, onların fitri imkanlarından cəmiyyət həyatının rifahı, gənc nəslin səadəti naminə faydalanmaq yolları göstərilir. Fərdləri yaradılış fitrətinə qaytaran, milli-mənəvi dəyərlərə söykənən meyarlara qayıtmanın vacibliyi vurğulanır. Dünyanın salamatlığı, sülh və təhlükəsizliyin təminatı üçün BMT-nin 17 bənddən ibarət Davamlı inkişaf məqsədlərinin kifayət etmədiyi, qadına münasibətin dəyişməsinin vacibliyi diqqətə çatdırılır. Qadınların düşüncə və xəyalları, arzu və istəkləri, narahatlıqlarının əbəs olmadığı və təxirəsalınmaz şəkildə lokal, qlobal, beynəlxalq miqyasda ciddi qəbul edilməsi tələbi əsaslandırılmışdır. Beləliklə gender münasibətlərinin harmoniyasına nail olmaq, dünya niza-

mının öz təbii məcrasına qayıtmq və amansız müharibələrə son qoyulması imkanları qadına münasibət kontekstində nəzərdən keçirilmişdir.

## Summary

The book traces the foundations of the ideology of Azerbaijanism, the process of transformation of ideology into politics, examines philosophical aspects of attitudes towards women in Azerbaijan on the basis of culture and literature, religious views, national and spiritual values, the life and activities of modern women. The dynamics of changing attitudes towards women in the context of religion, globalization, integration of cultures, application of gender programs are studied. The consequences of the changes in the cultural, political, socio-psychological situation in the modern world on women's morality and health, women's sensitivity, the fact that her feelings and emotions are a warning to society and reflected to future generations are highlighted.

## İstİfadə olunmuş ədəbİyyat sİyahısı

1.Abbasov Ə.F. Fəlsəfə millətləşmənin və müstəqil dövlətçiliyin zəruri əsaslarındandır// Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. Toplu. Bakı: "Elm", 2011, s. 6-7.
2.Ağasıoğlu Firudin. Azərbaycan türklərinin İslamaqədər tarixi.(Doqquz Bitik).I Bitik:Tarixi qaynaqlar. Bakı: 2014, 368səh.
3.Anar. Əsərlər. IV cild. Nurlan, Bakı: 2004, 503 səh.
4.Aleksiyeviç Svetlana. Müharibə qadın simalı deyil. Roman. "Xan", Bakı: 2015, 456 s.
5.Aslanlı Kənan. Azərbaycanda intihar statistikası. Open Government (openazerbaijan.org) 09.08.2018.
6.Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Баку: 1998, стр. 40.
7.Azərbaycan Cümhuriyyəti. Bakı: "Elm", 1998, 336 səh.
8.Azərbaycan Konsitutsiyası, maddə 25, II; maddə 34, IV; maddə 17, I.
9.Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 səh.
10. Butler J. Gender Trouble. Feminism and the Subversion of Identity. N.Y. – L., 1990. p.
11. Cavid Hüseyn. Əsərləri. Beş cilddə, I cild. "Lider nəşriyyat", Bakı: 2005, 256 səh. Cavid Hüseyn. Əsərləri, beş cilddə. III cild. "Lider nəşriyyat", Bakı: 2005, 304 səh.
12. Chodorow N. The Reproducting of Mothering: Psychoanalysis and Sociology of Gender. Berkley, 1978.
13. Çələbiyev. Ailə psixologiyası. Bakı: 2015.
14. Çəmənzəminli Y.V. Azərbaycan nağıllarının əhval-ruhiyyəsi. Əsərləri. III cild. Bakı: Elm, 1977.
15. Дружинин В.Н.. Психология семьи. Москва: 2006.
16. Дьяконов И.М. История мидии. М-Л.: 1956, стр. 260-262

17. Erdoğan R.T. kimdir? Gündem, 26 şubat, 2013. http://gundem.bugun.com.tr/basbakan-erdoganin-dogum-tarihi-haberi/224276
18. Əbu Şəqqə Əbdülhəlim. Peyğəmbər dövründə qadın azadlığı. Tərcümə, redaktə, ön söz və şərhlərin müəllifi E. Məmmədov. Bakı: CBS, 2014, 512 səh.
19. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: 2005, 304 səh.
20. Əliyev Heydər. Milli özünüdərketmə / Beynəlxalq elmi kollokviumun tezisləri. Bakı: 21-24 aprel 1999, 260 səh.
21. Əliyev Heydər. Milli varlığımızın Dədə Qorqud dünyası. Məqalələr. Bakı: "Öndər", 2004, 240 səh.
22. Əlizadə Ə.Abbasov A.N.Ailə. Bakı: 1989.
23. Gazali İmam. İhyau ulumid-din. cild 2. İstanbul: Bedir yayınevi, 1974.
24. Goffman E. Gender Display // Studies in Anthropology of Visual Communication. 1976. Vol. 3, p. 69-77.
25. Gönlübol Mehmet, Atatürk'ün Dış Politikası: Amaçlar ve ilkeler, Atatürk Yolu, 1981.
26. Görüryılmaz Mustafa. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918) Bakı: "Qismət", 2009, 408 səh.
27. Göyalp Ziya. Türkçülüyün əsasları. "Xəzər Universiteti" nəşriyyatı. Bakı: 2010, 208 səh.
28. Göyüşov Z. Fəzilət və qəbahət. Azərbaycan dövlət nəşriyyatı, Bakı: 1972.
29. Gümüş Sadrettin. Kurana göre Hz. Muhammedin (s.a.v.) aile hayatı. Ravza yayınları, İstanbul: 2013, 112 səh.
30. Hacıyeva A.Ə. Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: hermenevtik təcrübələr. Bakı: "Elm və təhsil", 2017, 308 səh.
31. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2007, 480 səh.
32. Харчев А.Г. Современная семья и ее проблемы М.: Наука, 2007
33. İbn Macə. Ədəb. III cild, Hədis № 3667.

34. İbnül-Hüman Kəmalüddin Məhəmməd ibn Əbdülvahid. Fər-hül-qədir. Altı cilddə, III cild, Misir: 1898, səh. 321-339.
35. Диалог Арнольда Дж. Тойнби и Дайсаку Икеды /Перевод с английского Ю.М. Канцура. Сверка и дополнения по изданию на японском яз. Экуко Сайто-Бэнц. - М.: Изд-во Моск. ун-та, 2007, 448 с.
36. Kasani, Ələddin Əbu Bəkr ibn Məsud. Bədaiüssənai fi tərti-biş-şərayi. IV cild. Beyrut: 1974. səh. 14-15.
37. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. "Öndər nəşriyyat", Bakı: 2004, 376 səh.
38. Qaçqınlar və məcburi köçgünlər http://supremeco-urt.gov.az/static/view/178, 11.02.2021.
39. Qafarlı R.O. Azərbaycan türklərinin mifologiyası (mifik dün-ya modeli, təsnifat). Bakı: Ağrıdağ, 2004, 236 səh.
40. Qafarov R.O. Azərbaycan türklərinin mifologiyası (qaynaqla-rı, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası). Filolo-giya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2010, 59 səh.
41. Qaspıralı İsmayıl. Dildə, fikirdə, işdə birlik. 1851-1914. Bakı: Qartal, 2002, 242 səh.
42. Quliyev R. Tur Heyerdal: Qobustan - qədim sivilizasiyanın beşiyi. 20 iyun, 2013.
43. Quluzadə Zümrüd. XXI əsrin astanasında Azərbaycan gender münasibətləri. Genderşünaslıq. Beynəlxalq elmi-kütləvi jurnal №1, 2000.
44. Qumilyov L.N. Qədim türklər. Bakı: Gənclik, 1993, 536 səh.
45. Qurani-kərim. Tərc. Z. Bünyadov və V. Məmmədəliyev. Azərnəşr. Bakı, 1992.
46. İsrafilov M. Məntiq. Bakı: 2005, 335 səh.
47. Lauretis de T. Alice Doesn't: Feminism, Semiotics and Sine-ma. Bloomington, 1984, p. 159.
48. Lenczowski George. "United States' Support for Iran's Inde-pendence and Integrity, 1945–1959", Annals of the American

Academy of Political and Social Science, Vol. 401, America and the Middle East. (may, 1972).
49. Лорбер Д., Фаррел С. Принципы гендерного конструирования // Хрестоматия феминистских текстов. Переводы. Спб., 2000.
50. Lorber J. Paradoxes of Gender. N.Y., 1994.
51. Лорбер Дж. Пол как социальная категория // THESIS. 1994. Вып. 6., с. 127-136.
52. Mahmudov Yaqub. Dədə Qorqud dünyası. Məqalələr. Bakı: “Öndər”, 2004, 240 səh.
53. Максимов Л. В. Очерк современной метаэтики // Вопросы философии, 1998, № 10. с. 39-54.
54. Мамедова Фарида. Генезис национального самосозна-ния азербайджанцев. Milli özünüdərketmə / Beynəlxalq elmi kollokviumun tezisləri. Bakı: 21-24 aprel 1999, səh. 96-100. s.
55. Мамедзаде И., Некоторые теоретические проблемы исследования нравственности и права. http://philosophy.edu.az/index.php?newsid=1177, 05.10. 2021.
56. Matthew Hill, David Campanale and Joel Gunter. "Their goal is to destroy everyone": Uyghur camp prisoners claim systematic rape, BBC News, 9 February 2021.
57. McIntosh M. Der Begriff “Gender” // Argument. Bd. 190. Berlin, 1991.
58. Məmmədov Ə.B. Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı, 1997.
59. Məmmədzadə İ.R. Müstəqil dövlətçilik fəlsəfəsi. Bakı: “Xalq” qəzeti, 29 noyabr, 2016.
60. Məmmədzadə İlham. Cins: Etika və siyasət problemləri / Genderşünaslıq. Beynəlxalq elmi-kütləvi jurnal, №1, Bakı: 2000.
61. Milli fəlsəfə.Bakı:“Azərbaycan nəşriyyatı”,2019,904 s.
62. Milli özünüdərketmə / Beynəlxalq elmi kollokviumun tezisləri. Bakı: 21-24 aprel 1999, səh. 96-100.

63. Mirzəyeva R. Multikulturalizm siyasəti və Şərq-Qərb müxtəlifliyi:gender, din, mənəviyyat. Bakı: Təknur, 2013, 160 s.
64. Mirzəyeva R. Gender: Qadın və siyasət Genderşünaslıq, N1, "Səda", Bakı 2000.
65. Money John. Theory gender neutrality. https://books.google.ru/books? 11.10.2018.
66. Мовсумова Л.Д. Ислам, божественный закон и ответственность женщин за уголовные преступления. ИПО «Азербайджанская Энциклопедия», Баку, 2000, 80 стр.
67. Mürsəlov R.Ə. Qloballaşma və İslam universalizmi / Qlo-ballaşma və İslam. AMEA Akademik Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutunun elmi konfransının materialları. Bakı: 12-13 may, 2004, s. 39-41.
68. Nərimanov N. Məqalələr və nitqlər. İki cildlik, I cild, Bakı: Azərnəşr, 1971.
69. Никифоров А. Л. Философия науки: история и методология. М.: Дом интеллектуальной книги, 1998, 280 с.
70. Новиков А.М., Новиков Д.А. Методология научного исследования. М.: Либроком, 280 с.
71. Oakley A. Sex, Gender and Society. London: 1972, Maurice Temple Smith Ltd., 220 p.
72. Rahimov İlham. Suç ve ceza. Tercüme eden ve yayına hazırlayan Tuğrul Veli. Türkiye Barolar Birligi, İstanbul: 2014, 354 səh.
73. Rza Xəlil. Ömürdən uzun gecələr. Gənclik, Bakı, 1982.
74. Sabir M.Ə. Hophopnamə, İki cilddə. II cild. Bakı: "Şərq-Qərb", 2004, 384 səh.
75. Sahil Rəşad. N.Nərimanov haqqında bilmədiyimiz faktlar. Azərbaycan. http://news.atv.az/news/interesting/9605-neriman-nerimanov-haqqinda-bilmediyimiz-faktlar 25.12.2014.
76. Səma Məleykə. Xocalı şərqisi. Bakı: "Adiloğlu" nəşriyyatı, 2006, 188 səh.

77. Stoller R. Sex and Gender: on the Development of Masculinity and Femininity. N.Y., 1968.
78. Şabanov Zeynəddin. Milli fəlsəfədə ailə dəyərlərinin rolu./Milli fəlsəfə. “Azərbaycan” nəşriyyatı, 2019, səh. 693-710.
79. Şaiq Abdulla. Seçilmiş əsərləri, 3 cilddə. I cild, Bakı: “Avrasiya Press”, 2005, 496 səh.
80. Şəmsizadə Nizaməddin. Azərbaycançılıq. Bakı: “Nurlar”, 2006, 192 səh.
81. Штофф В. А. Проблемы методологии научного познания. М.: “Высшая школа”, 1978, 269 с.
82. Şükürov A.M. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı: “Səda” nəşriyyatı, 2007, 396 səh.
83. Vahabzadə Bəxtiyar. Bayraq. http://senet.az/bayraq-b%C9%99xtiyar-vahabzad%C9%99/ 09.11.2017.
84. Валлерстайн И. Анализ мировых систем и ситуация в современном мире. Пер. с англ. П. М. Кудюкина. Под общей редакцией канд. полит, наук Б. Ю. Кагарлицкий — СПб.: Издатальство «Университетская книга», 2001, 416 с.
85. Я должна была заболеть, чтобы меня поняли”, - говорила Горбачева https://ria.ru/20090920/185670182.html 11.02.2021.
86. Ъ-Яковлев Александр. Раису Горбачеву убило время. Газета "Коммерсантъ" №171, от 21.09.1999.
87. Yusifov M. İ. Nizamidə azərbaycançılıq. Bakı, “Elm və təhsil”, 2012. 168 səh.
88. Завьялова М. П. Методы научного исследования. Томск: Изд-во ТПУ, 2007, 160 с.
89. Zeynalova M.N. Ailədə və cəmiyyətdə qadınlara qarşı zorakılıq problemi: sosial-fəlsəfi təhlil / Namizədlik dissertasiyasını avtoreferatı. “Adiloğlu”, Bakı 2005.
90. Zərqanayeva İradə. Genderin ideoloji funksiyası və cəmiyyətdəki sosial-psixoloji təsirləri // Gender problemi və müasir Azərbaycan. II Respublika elmi konfransının materialları. Azərbaycan Universiteti, Bakı: 23 noyabr, 2018, səh. 159-162.

91. William M. Pinsof, Jay L. Lebow. «Family Psychology» Oxford Series in Clinical Psychology, 2005.
92. Wittig M. Les Corps Lesbian, 1973, 192 p.

# MONOQRAFIYA HAQQINDA ELMI RƏYLƏR

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Etika şöbəsinin aparıcı elmi işçisi f.üf.d., dosent İradə Zərqanayevanın "Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" adlı monoqrafiyası haqqında

## R Ə Y

Monoqrafiya mövzusu yenidir, aktualdır, millilik və müasirliyin vəhdəti probleminə həsr olunmuşdur. İ.Z. Zərqanayeva tədqiqata mövzu ilə əlaqədar Azərbaycan mənəvi mədəniyyətini əks etdirən zəngin ədəbiyyatın icmalı ilə başlamış, müstəqil dövlətimizin ideoloji əsaslarına daha bir nəzər salmış, milli-mədəni dəyərlərimizdə və real həyatda qadına münasibəti analiz etmişdir. İşdə müstəqil Azərbaycan milli təfəkkürünün oyanışı, təşəkkülü və Azərbaycançılıq ideologiyasına çevrilməsi prosesi şərh olunur, siyasi dəyişikliklərin və gender proqramlarının cəmiyyətə, eləcə də qadınların həyatına təsirləri diqqətə çatdırılır, ədəbiyyatda və real həyatda qadına münasibətin fərqli tendensiyaları fəlsəfi-etik aspektdən şərh olunur, məişət zorakılığı və qadınların intihara əl atmalarının sosial-psixoloji səbəbləri aydınlaşdırılır.

Tədqiqat işinin fəsil və paraqrafları mövzu üzrə qarşıya qoyulan məqsəd və vəzifələri yerinə yetirməyə imkan verir. İ.Z.Zərqanayeva yerli və xarici ədəbiyyatlardakı elmi yeniliklərə münasibətini bildirməklə yanaşı, öz elmi nəticə-lərindən çıxış edərək müstəqil yanaşma ortaya qoyur. Müəllifin tədqiqat nəticələrinə görə, bütün dünyada olduğu kimi, Azərbaycanda da qadınlara münasibət birmənalı deyildir. Təəssüf ki, öldürülən, işgəncə verilən, istismar olunan, intihara sürüklənən qadınların sayı pandemiya dövründə daha da artmışdır. Hadisə və proseslərin

xarakteri insanların hikmətə münasibəti ilə, cəmiyyətin qadınlara münasibəti arasında mütənasibliyin olduğunu göstərir. Hüzur və asayişin bərpası üçün cəmiyyət hikmətə sevgi, qadına şəfqət və qayğı ilə yanaşmalıdır. Qadınların həm ailə daxilində, həm də cəmiy-yətdə fəallığına dəstək olmaq, onların fitri imkanlarından cəmiyyət həyatının rifahı, gənc nəslin səadəti naminə faydalanmaq yolları açılmalıdır.

Tədqiqat göstərir ki, əhalinin bilik səviyyəsi ilə əxlaqi-etik səviyyəsinin bəzən uzlaşmaması bəşəri dəyərləri zəiflədir, insanlıq duyğularını korlaşdırır. Maddi ayrıseçkiliyin mənəvi ayrıseçkiliyə səbəb olmasına yol verməmək, hər kəsi fitrətinə, davranışına və əməlinə görə dəyərləndirmək lazımdır. Cinsindən asılı olmayaraq insana şiddətə son qoyulması üçün qanunvericilikdə nəzərdə tutulan qaydalara sözsüz riayət olunması təmin olunmalı, düşüncə azadlığı, söz haqqı qorunmalı, sosial harmoniya gözlənilməlidir. Müəllif Azər-baycan ədəbiyyatı klassiklərinin əsərlərindəki fəlsəfi-etik baxışlardan, atalar sözlərindən, dini mətn və hədislərdən istifadə edərək cəmiyyəti xeyirə, faydaya və halallığa təşfiq edən bir əsər yazmışdır.

Elmimizə yeni töhfə olan bu əsəri dəstəkləyir, müəllifə tədqiqatlarında uğurlar arzulayıram. İ.Z.Zərqanayevanın "Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" monoqrafiyasının çap edilməsini tövsiyə edirəm, xeyirli olsun.

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**
**Siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin**
**müdiri f.e.d., professor Rəna Mirzəzadə**

AMEA Fəlsəfə və Sosialogiya İnstitutunun Etika şöbəsinin aparıcı eimi işçisi f.üf.d., dosent İradə Zərqanayevanın "Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" adlı monoqrafiyası haqqında

**R Ə Y**

Monoqrafiyada müasir Azərbaycan mədəniyyətinin əsaslarına nəzər salınır, müasir dövlət ideologiyasının məzmunu ilə qadına münasibət arasında əlaqələrə fəlsəfi nəzər salınır. müasir Azərbaycan dövlətinin milli ideologiyasının əsaslarına nəzər salınır, fərdi və ictimai şüur arasındakı münasibətlər, ölkədə baş-verən siyasi dəyişikliklər fonunda cərəyan edən dəyişikliklər izlənir, cəmiyyətin sosial-psixoloji durumunun analizi kontekstində keçmişdə və indi qadına münasibətin fərqli tendensiyaları müqayisə olunur.

Azərbaycanda qadına münaibəti ana, qız, bacı və həyat yoldaşı funksiyaları zəminində araşdırılır. Qadına münasibətin qanunlar və etik normalar vasitəsilə tənzimlənməsi mexanizmləri, dini dəyərlər və sosial-etik faktorların rolu aydınlaşdırır. Azərbaycanda mənəvi dəyərlərin təbliği və qorunması, o cümlədən qadına münasibətdə problemlərin aradan qaldırılması üçün cəmiyyətdə etik-intellektual balansın gözlənilməsi, xaricdən idxal olunan nəzəriyyələrə ciddi yanaşılması, ehtimal olunan risqlərin cəmiyyətə təsirlərinin sosial-psixoloji nəticələrinin hesablanması və göz önündə saxlanması vacibdir. Yalnız hikməti sevən insanlar qadına şəfqət və qayğı ilə yanaşa, ailə daxilində, cəmiyyətdə fəallığına dəstək ola, onların fitri imkanlarından cəmiyyət həyatının rifahı, gənc nəslin səadəti naminə faydalana bilər.

Monoqrafiyanın mövzusu aktualdır. Tədqiqatda müasir Azərbaycanda ideoloji təşəkkül və qadına münasibət dinamikasının parametrləri haqqında xeyli yeniliklər vardır. Monoqrafiya haqqında fikrim müsbətdir, nəşr oluna bilər.

**AMEA Fəlsəfə və Sosialogiya İnstitutunun Etika şöbəsinin baş elmi işçisi, f.ü.e.d., dosent Dilarə Müslümzadə** Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi f.ü.f.d., dosent İradə Zərqanayevanın "Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" mövzusunda monoqrafiyasına

**R Ə Y**

Monoqrafiyada müasir Azərbaycanda ideoloji kontekst və qadına münasibətin fəlsəfi aspektləri müzakirə olunur. Müəllif İradə Zərqanayeva Azərbaycanda qadına münasibət kontekstində Azərbaycan mədəniyyətindən ədəbi və fəlsəfi müstəvidə nümunələrə yer verməkdə və onları etik aspektdən təhlil etməkdədir. Burada dini baxışlar, milli-mənəvi dəyərlər və müasir qadınların həyat və fəaliyyətlərinin tədqiqi əsasında Azərbaycanda qadına münasibətin dini-etik aspektləri araşdırılır. Beləliklə əsərdə din, qloballaşma, mədəniyyətlərin inteqrasiyası, gender proqramlarının tətbiqi şəraitində qadınlara münasibətin dəyişməsinin dinamikası, müasir dünyada mədəni, siyasi, sosial-psixoloji durumun dəyişməsi proseslərinin qadın mənəviyyatı və sağlamlığında yaratdığı fəsadlar, qadın həssaslığı, onun hiss və həyacanlarının cəmiyyət üçün xəbərdarlıq siqnalı olması və gələcək nəslə yansıması problemləri öyrənilir və əsaslandırılır.

Əsərdə elmi-metodoloji prinsiplərə kifayət qədər riayət edilib.Əsərin dili elmi və anlaşılandır. Müəllifin yer verdiyi ədəbi, fəlsəfi nümunələr arasında kifayət qədər məntiqi əlaqə qurduğu görülür ki, bu da əsərin müzakirə obyektinə çevirdiyi məsələnin aydın və sistemli şəkildə anlaşılmasına imkan yaradır.

Əsər haqqındakı rəyim müsbətdir. Əsəri çapa məsləhət görürəm və müəllifə yeni elmi nailiyyətlər arzu edirəm.

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**<br>
**Etika şöbəsinin aparıcı elmi işçisi,**<br>
**Dr.Dos. Anar Qafarov**

AMEA Fəlsəfə və Sosialogiya İnstitutunun Etika şöbəsinin aparıcı eimi işçisi, f.üf.d. dosent İradə Zərqanayevanın "Milli ideologiya və qadına münasibətin fəlsəfi problemləri" adlı monoqrafiyası haqqında

**R Ə Y**

Azərbaycan dövləti və xalqı üçün çox mürəkkəb, tarixi və ictimai dəyəri yüksək olan bir dövrdə müəllifin bu mövzuda ərsəyə gətirdiyi elmi tədqiqat işi təqdirəlayiqdir, aktual və icti-mai prizmadan maraqlı sahəyə həsr olunmuşdur.

Əsərdə dünyada bir cox ölkələrin qəliz, fərqli ideoloji münasibətləri fonunda Azərbaycan dövlətinin yeritdiyi siyasət, dövləti və dövlətçiliyimizi qorumaq və dünyada hörmətli bir səviyyəyə çatdırmaq üçün görülən işlər barədə fikirlər söylə-nilir, bu yolda böyük zəhməti olan dövlət xadimi Heydər Əliyevin "azərbaycançılıq" məfkurəsinin həyata keçirilmə-sindəki əvəzsiz xidmətləri barədə fikirlərə diqqət ayrılır. Kitabda Azərbaycan fəlsəfi, elmi, ədəbi, siyasi mühitinin görkəmli nümayəndələrinin əsərlərindən götürülmüş nümu-nələr fəlsəfi təhlil olunmuş, etika sahəsində yeni elmi nəticələr təqdim olunmuşdur. Əsər struktur və məzmun cəhətdən orijinaldır, ideyaca yenidir.

Kitabın diqqətəlayiq xüsusiyyətlərindən biri azərbay-cançılıq məfkurəsinin köklərinin formalaşmasının hələ qədim dövrlərdən, islamaqədərki tarixdən qaynaqlanmasının elmi mənbələrlə əsaslandırılmasıdır. İşdə dini mətnlərə, Qərb və Şərq, rus və ərəb mütəfəkkirlərinin, yazıçı və filosofların baxışlarına əsasən ümumiləşdirmələr aparılmış, müəllifin fərqli mövqeyi ortaya qoyulmuşdur. Əsərdə müasir dövrdə Qafqazda sülh ideyası kimi çox vacib bir məsələyə də nəzər yetirilmişdir. Əsərin "Milli birlikdə Qafqaz körpüsü" bölümündə qəsbkar ermənilərin yeritdiyi işğalçı siyasətin fəsadları, bölgədə nə qədər ölümcül və pozucu proseslərə və ağır nəticələrə səbəb olmasından danışılır, Azər-

baycanın xilaskarlıq fəaliyyətinin sülh və regional təhlükəsizlik baxımından əhəmiyyəti qeyd olunur.Kitabın "Müasir Azərbaycanda qadına münasibətin fəlsəfi aspektləri" adlanan II fəslində Azərbaycan qadınına münasibətin formalaşmasında zaman və məkan faktorları fəlsəfi təhlilə cəlb olunmuş, qadına fərqli münasibətlərin formalaşması, inkişafı, müsbət və mənfi tendensiyalar hərtərəfli araşdırılmışdır.

Bu gün Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı Şanlı Qələbənin bünövrəsində qəhraman oğullarımızı Vətən eşqi ilə böyüdən, övladlarının haqq, ədalət yolunda şəhadəti ilə, igidliyi ilə fəxr edən, böyük ürəkli, mərd analarımızın xüsusi rolu vardır. İ.Z.Zərqanayeva kitabında müasir dünya qadınlarına bir nümunə ola biləcək Azərbaycan türk qadınının şəninə yazılmış qədim və müasir, Şərq və Qərbin tanınmış mütəfəkkirlərinin əsərlərinə müraciət edərək, mövzu üzrə qarşıya qoyulmuş problemin mahiyyətini açmağa çalışmışdır. Kitabda A.Şaiq, N.Nərimanov, H.Cavid, R. Qafarlı, F.Ağasıoğlu, N.Şəmsizadə və b. tədqiqatçılarla yanaşı Qərb yazıçı və filosoflarının elmi-fəlsəfi fikirləri müqayisəli təhlil olunmuş, eləcə də "Kitabi-Dədə Qorqud" eposunda və Qurani-Kərimdə qadına münasibətin əsasları ilə müasir yanaşmalar arasındakı fərqlərin səbəbləri araşdırılmış, qadına münasibətin hikmətə sevgi ilə mütənasibliyi diqqətə çatdırılmışdır.

Əsəri dil üslubu, səlisliyi, ahəngdarlığı, elmi-məntiqi ardıcıllığı və əsaslılığı baxımından nəinki elmi mühit, eləcə də böyük oxucu kütləsi üçün maraqlı hesab edirəm. Geniş və əhatəli ədəbiyyat siyahısı ilə, maraqlı istinadlarla, dini, ədəbi, fəlsəfi mənbələrlə zəngin olan bu əsər gələcək tədqiqatçılar üçün də etibarlı istinad mənbəyi ola bilər. Monoqrafiyanın çap edilməsini təklif edir, İ.Z.Zərqanayevaya uğurlar arzulayıram.

**AMEA Fəlsəfə və Sosiologiya**
**İnstitutunun Etika şöbəsinin**
**aparıcı elmi işçisi, f.ü.f.d.,**
**dosent Şəhla Musayeva**

Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Səma Qasımova
Çapa imzalanmış 12.12.2022
Şərti çap vərəqi 9. Sifariş № 415
Kağız formatı 60x84. 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4